RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 9 (10029) 16 yanvar 2026-cı il CÜMƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR



# İLHAM ƏLİYEVİN YARATDIĞI YENİ REALLIQLAR

## BU REALLIQLARI BÜTÜN DÜNYA, ELƏCƏ DƏ ERMƏNİSTAN QƏBUL EDİR

Bu gün Azərbaycan-ABŞ münasibətləri ən yüksək səviyyəyə çatmışdır.

Ancaq Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi başlayarkən bizə qarşı ən böyük ədalətsizliyi və pisliyi də ABŞ etmişdir.

Təcavüzə məruz qalan, torpaqları işğal edilən də Azərbaycan idi, ABŞ tərəfindən 907-ci düzəlişin hədəfinə çevrilən də.

ABŞ-dəki erməni diasporu tərəfindən ələ alınan, onun ianələrinin təsiri altında obyektivliyini və ədalət hissini itirənlər 907-ci düzəlişi təcavüzkara deyil, təcavüzə məruz qalana tətbiq etdilər.

Yerli televiziya kanallarına müsahibəsində İlham Əliyev həmin dövrdə baş verənlərə bir daha aydınlıq gətirdi:

"907-ci düzəliş 1992-ci ilin oktyabrında qəbul edildi. O vaxt bizim torpaqlarımız artıq işğal altında idi, Şuşa, Laçın işğal altında idi. Ermənistan dövləti tərəfindən Xocalı soyqırımı törədilmişdi, xalqımıza qarşı hərbi cinayət törədilmişdi və Azərbaycanın torpaqlarının işğal altında olması, təbii ki, Ermənistanı blokadaya almaq imkanlarını da sıfra endirirdi. Yəni ki, hansı blokadadan söhbət gedə bilərdi?! Nəzərə alsaq ki, Ermənistanın Gürcüstanla, İranla sərhədləri açıq idi, hətta Türkiyə-Ermənistan sərhədi 1993-cü ildə bağlanmışdır. Ona görə hər hansı bir blokadadan söhbət gedə bilməzdi. Ancaq erməni lobbisi və onun əhatə dairəsində olan senator və konqresmenlər belə bir ədalətsiz düzəlişi qəbul etdilər.

Onu da deməliyəm ki, onların bir çoxu artıq həyatda deyil, amma həyatda olanlar arasında çox maraqlı adlar da var. Onları siz tapa bilərsiniz, amma bir ad çəkməklə kifayətlənəcəyəm, o da ovaxtkı keçmiş senator, ondan sonra vitse-prezident, ondan sonra Prezident Co Bayden. Co Bayden 907-ci düzəlişin qəbul edilməsində çox böyük fəallıq göstərmişdir. Təkcə bu fakt kifayətdir ki, hər kəs anlasın, nə üçün bizim, həm Obama-Bayden, həm Bayden-Blinken administrasiyası ilə münasibətlərimiz istənilən səviyyədə deyildi".

ABŞ 11 sentyabr 2001-ci il hadisələrində çətin duruma düşdüyündən, Əfqanıstanda hərbi əməliyyatlar apardığından və buna görə Azərbaycana möhtac olduğundan Amerika Prezidenti bu düzəlişi öz imzası ilə aradan qaldırdı.

Bayden-Blinken administrasiyası Əfqanıstandan xaotik şəkildə qaçdıqdan sonra Azərbaycanın bu yaxşılıqlarını unutdular, yenidən 907-ci düzəlişi qüvvəyə mindirdilər.

Hazırda Ermənistan-Azərbaycan münaqişəsinə son qoyulub, Ermənistana Azərbaycan vasitəsilə buğda və yanacaq daşınır, Zəngəzur dəhlizinin (TRIPP) işə salınmasına ciddi hazırlıqlar görülür.

Belə bir vəziyyətdə 907-ci düzəlişin mövcudluğu yalnız gülüş doğurur və yəqin ki, Tramp administrasiyası onun tamamilə ləğv edilməsinə Konqres üzvlərini, xüsusilə Respublikaçılar Partiyasının üzvlərini inandıra biləcəklər.

Hazırda dünyada gedən müharibələr, baş verən hadisə və proseslər göstərir ki, artıq beynəlxalq hüquq yox, yalnız güclülərin sözü keçir!

Cənab İlham Əliyev öz müsahibəsində bu reallığa da məxsusi diqqət yetirdi:

"Öz təhlilimi apararaq görürəm ki, bugünkü dünyada beynəlxalq hüquq deyilən məsələ yoxdur. Bunu hər kəs gərək unutsun. Güc var, əməkdaşlıq var, müttəfiqlik var, qarşılıqlı dəstək var. Təbii ki, sən gərək özün əmin olasan ki, haqq yolundasan".

Belə bir vəziyyətdə nə etmək lazımdır?

İlham Əliyev bu sualın da cavabını verir:

"Bilirəm və görürəm, dünyadakı proseslər o istiqamətdə gedir ki, hər bir ölkə ilk növbədə öz hərbi potensialını gücləndirməlidir, təhlükəsizliyini gücləndirməlidir. Hətta Yeni il bayramı ilə əlaqədar Azərbaycan xalqına təbrikimdə də demişdim, bugünkü dünya belədir: kim güclüdür, o da haqlıdır".

5

## Tam və mütləq qələbə



Yanvarın 13-də Ağdərədə Azərbaycan xalqının qəhrəmanlıqlarla dolu milli mübarizəsindən qürurla bəhs edən qalib lider İlham Əliyev söylədi ki, torpaqların itirilməsi, böyük sayda şəhidlərin şəhadətə ucalması - bütün bu ədalətsizliklər bizi xalq olaraq çox incidirdi, ancaq bizi sarsıtmadı: "Biz əyilmədik, iradəmizi göstərdik və döyüş meydanında həm şəhidlərimizin qisasını aldıq, həm də torpaqlarımızı qaytardıq".

Azərbaycan İkinci Qarabağ savaşında qazandığı qələbə nəticəsində BMT TŞ-nin qətnamələrini yerinə yetirərək beynəlxalq hüququ öz gücünə təmin etdi. Həmçinin ATƏT-in keçmiş Minsk qrupunun üzərinə götürdüyü və onilliklər ərzində həll edə bilmədiyi (əslində, həllində maraqlı olmadığı) Qarabağ münaqişəsini kökündən həll edərək Cənubi Qafqazda dayanıqlı sülhün əsasını qoydu. Ölkəmizi dünyada qalib edən əsas məqamlardan biri də elə məhz pozulan beynəlxalq hüququ öz gücünə həll etməsi oldu.

7

## Doğma torpaqlara qayıdış davam edir



Tarixi abidələrlə zəngin olan Çıldıran kəndinin ərazisində XII əsrə aid Alban məbədi və XIII əsrə aid "Qırmızı məbəd" yerləşir. Azərbaycan Silahlı Qüvvələrinin 2023-cü ilin sentyabrında həyata keçirdiyi antiterror əməliyyatı nəticəsində kənd işğaldan azad edilib. Kənddə 177 fərdi ev mövcuddur. Onlardan 69-u yararsız, 108-i isə qismən yararlıdır. İndiyədək 28 ev istismara hazır vəziyyətə gətirilib, bu il isə daha 30 evin bərpası planlaşdırılır. Çıldıran kəndində mövcud transformatorlar, elektrik və qaz xətləri bərpa olunub, yeni kommunikasiya xətləri çəkilib, su nasosu istifadəyə verilib, 190 kubmetrlik su anbarları təmizlənib, subartezian quyusu təmir edilib, 8,4 kilometr uzunluğunda kənddaxili yollar yenidən qurulub, park salınıb.

Ağdərə rayonunun Heyvalı kəndi Qarabağ silsiləsinin ətəyində yerləşir. İşğaldan əvvəl kənd əhalisi əsasən taxılçılıq, tütünçülük və heyvandarlıqla məşğul olub, burada məktəb, klub və poçt fəaliyyət göstərib.

7

## Tarixi zənginlik və strateji perspektivlər



İşğaldan azad edilmiş ərazilərdə aparılan bərpa və yenidənqurma işlərinin əsas istiqamətlərindən biri də mədəni irsin bərpasıdır. Dağıdılmış məscidlərin, tarixi abidələrin, mədəniyyət müəssisələrinin bərpası dövlət tərəfindən xüsusi diqqət mərkəzində saxlanılır. Şuşa şəhərinin Azərbaycanın mədəni paytaxtı elan edilməsi bu siyasətin əhəmiyyətini göstərir. Şuşada Molla Pənah Vaqifin məqbərəsinin, Yuxarı Gövhər ağa məscidinin, Xurşidbanu Natəvanın, Üzeyir bəy Hacıbəylinin və Bülbülün evlərinin bərpası milli-mədəni yaddaşın dirçəlişinin bariz nümunəsidir.

10



## Sədərək-Yerasx dəmir yolu sahəsinə birgə baxış keçirilib

**Yanvarın 15-də Azərbaycan və Ermənistan nümayəndələri tərəfindən Sədərək-Yerasx dəmir yolu sahəsinin cari vəziyyətinə birgə baxış keçirilib.**

Nazirlər Kabinetindən AZƏRTAC-a bildiriblər ki, bu baxışın məqsədi müvafiq infrastrukturun bərpası tədbirlərinin yerinə yetirilməsi məqsədilə xüsusi dəmir yolu tikintisi texnikasının hərəkəti üçün həmin dəmir yolu sahəsinin texniki cəhətdən yararlılığının qiymətləndirilməsi olub.

Tərəflər keçirilən baxış çərçivəsində həmin sahədə dəmir yolu infrastrukturunun texniki vəziyyətinin qiymətləndirilməsi məsələləri üzrə fikir mübadiləsi aparıblar.

## Su təhlükəsizliyinin qarantı

Qarabağ və Şərqi Zəngəzurda su anbarları regionun sosial-iqtisadi dirçəlişində və dayanıqlı inkişafında mühüm rol oynayır. Bu ərazilərin relyef və iqlim xüsusiyyətləri su ehtiyatlarının tənzimlənməsini zəruri etdiyindən mövcud su anbarları suvarma, içməli su təminatı və enerji istehsalı baxımından strateji əhəmiyyət daşıyır. Xüsusilə kənd təsərrüfatının bərpası və genişləndirilməsi su anbarları hesabına mümkün olur ki, bu da ərzaq təhlükəsizliyinin möhkəmləndirilməsinə mühüm töhfə verir. Azad olunmuş ərazilərdəki mövcud su anbarları həm də keçmiş köçkünlərin qayıdış və yaşayış məntəqələrinin yenidən qurulması prosesində əsas infrastruktur elementlərindən biridir.



8

# Nəqliyyat-ekspedisiya fəaliyyəti haqqında

## Azərbaycan Respublikasının Qanunu

Bu Qanun Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci, 10-cu, 13-cü və 23-cü bəndlərinə uyğun olaraq, Azərbaycan Respublikasının ərazisində nəqliyyat-ekspedisiya fəaliyyətinin hüquqi, təşkilati və iqtisadi əsaslarını müəyyən edir, bu sahədə dövlət orqanlarının (qurumlarının), habelə hüquqi şəxslərin, xarici hüquqi şəxslərin filial və nümayəndəliklərinin (bundan sonra - hüquqi şəxslər) və fərdi sahibkarların fəaliyyətini, həmçinin onlar arasında yaranan münasibətləri tənzimləyir.

### 1-ci fəsil
### ÜMUMİ MÜDDƏALAR

**Maddə 1. Əsas anlayışlar**

1.1.Bu Qanunun məqsədləri üçün istifadə olunan əsas anlayışlar aşağıdakı mənaları ifadə edir:

1.1.1. **daşıyıcı -** yük daşınması müqaviləsi əsasında və haqq müqabilində yükün olduğu yerdən təyinat yerinə daşınmasını həyata keçirən, mülkiyyət, icarə və ya istifadə hüququ ilə nəqliyyat vasitələrinə malik olan hüquqi şəxs və ya fərdi sahibkar;

1.1.2. **ekspeditor -** nəqliyyat-ekspedisiya müqaviləsi əsasında müəyyənləşdirilən nəqliyyat-ekspedisiya xidmətlərini müştərinin tapşırığı və vəsaiti hesabına göstərən və ya üçüncü şəxslər vasitəsilə göstərilməsini təşkil edən hüquqi şəxs və ya fərdi sahibkar;

1.1.3. **ekspeditora verilən muzd -** nəqliyyat-ekspedisiya müqaviləsinin yerinə yetirilməsi üçün müştərinin ekspeditorun bank hesabına köçürülməklə ödədiyi pul;

1.1.4. **müştəri -** nəqliyyat-ekspedisiya müqaviləsi əsasında müəyyənləşdirilən nəqliyyat-ekspedisiya xidmətlərinin göstərilməsi və ya üçüncü şəxslər vasitəsilə göstərilməsinin təşkil edilməsi üçün şəxsən və ya nümayəndəsi vasitəsilə tapşırıq verən və nəqliyyat-ekspedisiya xidmətlərinin istifadəçisi olan hüquqi və ya fiziki şəxs;

1.1.5.**nəqliyyat-ekspedisiya fəaliyyəti -** yüklərin daşınması ilə bağlı nəqliyyat-ekspedisiya xidmətlərinin göstərilməsi üzrə ekspeditor tərəfindən həyata keçirilən sahibkarlıq fəaliyyəti;

1.1.6. **nəqliyyat-ekspedisiya fəaliyyətinin iştirakçıları -** müştərilər, ekspeditorlar, daşıyıcılar və nəqliyyat-ekspedisiya fəaliyyətinin həyata keçirilməsində iştirak edən digər hüquqi və fiziki şəxslər;

1.1.7. **nəqliyyat-ekspedisiya xidmətləri -** nəqliyyat-ekspedisiya müqaviləsi əsasında yüklərin bir və ya bir neçə nəqliyyat növü ilə daşınmasının təşkili və (və ya) həyata keçirilməsi ilə bağlı olan, ekspeditorlar tərəfindən göstərilən xidmətlər;

1.1.8. **yük -** daşınma məqsədilə təqdim edilmiş əmtəə və ya qeyri-əmtəə təyinatlı mal;

1.1.9. **yük-nəqliyyat sənədi -** müştəri və ya ekspeditor tərəfindən verilən, yükün müştəri tərəfindən təhvil verilməsini, eləcə də ekspeditor tərəfindən qəbul edilməsini, anbarda saxlanılmasını və təhvil verilməsini təsdiq edən sənəd.

1.2. Bu Qanunda istifadə olunan digər anlayışlar Azərbaycan Respublikasının normativ hüquqi aktları ilə müəyyən edilmiş mənaları ifadə edir.

**Maddə 2. Nəqliyyat-ekspedisiya fəaliyyəti haqqında Azərbaycan Respublikasının qanunvericiliyi**

2.1. Nəqliyyat-ekspedisiya fəaliyyəti haqqında Azərbaycan Respublikasının qanunvericiliyi Azərbaycan Respublikasının Konstitusiyasından, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən, Azərbaycan Respublikasının Mülki Məcəlləsindən, Azərbaycan Respublikasının Ticarət Gəmiçiliyi Məcəlləsindən, "Nəqliyyat haqqında" Azərbaycan Respublikasının Qanunundan, bu Qanundan və bu sahəni tənzimləyən Azərbaycan Respublikasının digər normativ hüquqi aktlarından ibarətdir.

2.2. Ələt Azad İqtisadi Zonasında nəqliyyat-ekspedisiya fəaliyyəti sahəsində münasibətlər "Ələt Azad İqtisadi Zonası haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq tənzimlənir.

**Maddə 3. Bu Qanunun tətbiq dairəsi**

3.1. Bu Qanun yüklərin ölkədaxili və beynəlxalq daşımaları ilə bağlı nəqliyyat-ekspedisiya fəaliyyətinin həyata keçirilməsi zamanı həmin fəaliyyətin iştirakçıları arasında yaranan münasibətlərə şamil olunur.

3.2. Bu Qanunun müddəaları aşağıdakılara şamil edilmir:

3.2.1. boru kəmərləri və elektrik şəbəkəsi vasitəsilə yüklərin daşınması;

3.2.2. "Avtomobil nəqliyyatı haqqında" Azərbaycan Respublikası Qanununun 3.2-ci maddəsində nəzərdə tutulan daşımalar;

3.2.3. Azərbaycan Respublikası Ticarət Gəmiçiliyi Məcəlləsinin 3.2-ci maddəsində nəzərdə tutulan yüklərin daşınması;

3.2.4. şəxsi istehlak məqsədilə onlayn platformalar vasitəsilə alınan yüklərin daşınması;

3.2.5. xüsusi təyinatlı poçt rabitəsi vasitəsilə poçt göndərişlərinin daşınması.

### 2-ci fəsil
### NƏQLİYYAT-EKSPEDİSİYA FƏALİYYƏTİNİN HƏYATA KEÇİRİLMƏSİ

**Maddə 4. Nəqliyyat-ekspedisiya fəaliyyətini həyata keçirmək üçün hüquqi əsaslar**

4.1.Nəqliyyat-ekspedisiya xidmətləri müştəri və ekspeditor arasında bağlanılmış nəqliyyat-ekspedisiya müqaviləsi əsasında həyata keçirilir.

4.2. Hüquqi şəxslər və fərdi sahibkarlar nəqliyyat-ekspedisiya xidmətlərinin göstərilməsi ilə bağlı fəaliyyətin həyata keçirilməsi üçün "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının Qanunu ilə tələb olunduğu halda zəruri lisenziyanı və icazəni almalı, habelə bu Qanunla və Azərbaycan Respublikasının Mülki Məcəlləsi ilə müəyyən edilmiş müvafiq müqavilələri bağlamalıdırlar.

**Maddə 5. Nəqliyyat-ekspedisiya fəaliyyətinin həyata keçirilməsinin əsas prinsipləri**

5.1. Nəqliyyat-ekspedisiya fəaliyyətinin həyata keçirilməsinin əsas prinsipləri aşağıdakılardır:

5.1.1. nəqliyyat-ekspedisiya fəaliyyəti iştirakçılarının hüquq bərabərliyi;

5.1.2. nəqliyyat-ekspedisiya fəaliyyəti iştirakçılarının iradə sərbəstliyi;

5.1.3. nəqliyyat-ekspedisiya fəaliyyətinin bütün iştirakçılarının maraqlarının nəzərə alınması və qorunmasının təmin edilməsi;

5.1.4. nəqliyyat-ekspedisiya fəaliyyəti iştirakçılarının pozulmuş hüquqlarının bərpasının təmin edilməsi və məhkəmə müdafiəsi.

**Maddə 6. Nəqliyyat-ekspedisiya xidmətləri**

6.1. Nəqliyyat-ekspedisiya xidmətlərinə ekspeditor tərəfindən aşağıdakıların təşkili və (və ya) həyata keçirilməsi daxildir:

6.1.1. daşınma üçün yüklərin hazırlanması ilə bağlı xidmətlər: yükün yığılması, yükün tərkib hissələrinə ayrılması (mümkün olduğu halda), çəkisinin müəyyən olunması, taralanması və (və ya) qablaşdırılması, yenidən etiketlənməsi, markalanması, bərkidilməsi və çeşidləndirilməsi;

6.1.2. yüklərin yüklənməsi və boşaldılması ilə əlaqədar xidmətlər: yükləmə-boşaltma və yenidən yüklənmə, bağlama və saxlama, o cümlədən bir neçə nəqliyyat növündən istifadə edilməklə yerinə yetirilən yük daşımaları (qarışıq daşımalar) zamanı yükün yerinin dəyişdirilməsi, yerləşdirilməsi, bərkidilməsi;

6.1.3. yüklərin olduğu yerdə qəbulu, müxtəlif nəqliyyat növü ilə təyinat məntəqəsinə daşınması və təhvil verilməsi (o cümlədən yükün "qapıdan-qapıya" çatdırılması prinsipi ilə);

6.1.4. nəqliyyat vasitələrinin cəlb edilməsi, yüklərin vaxtında göndərilməsi üçün limanlara, dəmiryol stansiyalarına, anbarlara, terminallara və ya digər obyektlərə çatdırılması və daşınma üçün təqdim edilməsi;

6.1.5. müştərilərin mallarının daşınması üçün lazım olan avadanlıq, vaqon və konteynerlərlə təmin edilməsi (istifadəyə verilməsi), o cümlədən müştərilərə və daşıyıcıya (ekspeditorun daşıyıcı qismində çıxış etdiyi hal istisna olmaqla) kilidləmə və möhürləmə qurğularının verilməsi;

6.1.6. yüklərin kəmiyyətinin, eləcə də "Uyğunluğun qiymətləndirilməsi sahəsində akkreditasiya haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq akkreditasiya edilmiş uyğunluğu qiymətləndirən qurumlar tərəfindən keyfiyyətinin və texniki reqlamentlərin tələblərinə uyğunluğunun yoxlanılması ilə bağlı işlərin təşkili;

6.1.7. limanlarda, dəmiryol stansiyalarında, anbarlarda, terminallarda və ya digər obyektlərdə yüklərin gəlişinin və gedişinin qeydiyyatının aparılması;

6.1.8. yüklərin daşınması ilə bağlı daşıyıcıya sifarişlər verilməsi;

6.1.9. yük yerlərinin sayının, yüklərin çəkisinin və vəziyyətinin yoxlanılması, həmçinin itirilmiş yüklərin axtarışının təşkili;

6.1.10. nəqliyyat-ekspedisiya xidmətlərinin həyata keçirilməsi üzrə digər ekspeditorların xidmət növləri, tarifləri və iş rejimləri barədə məlumatların verilməsi;

6.1.11. xərclərin azaldılması məqsədilə nəqliyyat-ekspedisiya müqaviləsinin şərtlərinə uyğun olaraq, həmçinin bir neçə nəqliyyat növündən istifadə edilməklə yerinə yetirilən yük daşımaları zamanı (qarışıq daşımalar) yüklərin daşınması üçün optimal sxemin (marşrutun, ardıcıllığın) seçilməsi;

6.1.12. yüklərin daşınması üçün nəqliyyat-ekspedisiya müqaviləsinin, habelə Azərbaycan Respublikasının normativ hüquqi aktları və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri ilə müəyyən edilən digər nəqliyyat sənədlərinin tərtib olunması (rəsmiləşdirilməsi);

6.1.13. müvafiq nəqliyyat növünə uyğun olaraq nəqliyyat vasitələrinin və yüklərin hazırlanması və əlavə təchizatı;

6.1.14. yüklərin gömrük, fitosanitar, karantin, qida təhlükəsizliyi, sərhəd təhlükəsizliyi, sanitar-gigiyena sahəsində normativ hüquqi aktların, o cümlədən müvafiq texniki reqlamentlərin tələblərinə uyğun olaraq daşınması;

6.1.15. yüklərin daşınma prosesində müşayiət edilməsi, mühafizəsi və yüklərin daşınmasına nəzarət olunması, habelə yüklərin daşınma prosesi ilə bağlı müştəriyə mütəmadi məlumat verilməsi;

6.1.16. gömrük orqanlarına bəyannamələrin, yüklərin və müşayiətedici sənədlərin təqdim edilməsi, gömrük rəsmiləşdirilməsinin həyata keçirilməsi üçün tədbirlərin görülməsi;

6.1.17. nəqliyyat-ekspedisiya xidmətlərinin göstərilməsi zamanı vergilərin, dövlət rüsumlarının, gömrük rüsumlarının və gömrük yığımlarının, habelə digər icbari ödənişlərin ödənilməsinin həyata keçirilməsi;

6.1.18. nəqliyyat-ekspedisiya xidmətlərinin həyata keçirilməsi ilə bağlı aidiyyəti hüquqi və fiziki şəxslərlə hesablaşmaların aparılması.

6.2. Nəqliyyat-ekspedisiya xidmətləri bu Qanunun və Azərbaycan Respublikasının digər normativ hüquqi aktlarının tələblərinə və nəqliyyat-ekspedisiya müqaviləsinin şərtlərinə uyğun göstərilməlidir.

6.3. Ekspeditor yüklərin daşınması ilə bağlı nəqliyyat-ekspedisiya müqaviləsində nəzərdə tutulmuş və Azərbaycan Respublikasının normativ hüquqi aktlarının tələblərinə zidd olmayan digər xidmətlər göstərə bilər.

### 3-cü fəsil
### NƏQLİYYAT-EKSPEDİSİYA FƏALİYYƏTİ SAHƏSİNDƏ DÖVLƏT TƏNZİMLƏMƏSİ

**Maddə 7. Nəqliyyat-ekspedisiya fəaliyyəti sahəsində dövlət tənzimləməsinin əsas məqsədləri və dövlətin vəzifələri**

7.1. Nəqliyyat-ekspedisiya fəaliyyəti sahəsində dövlət tənzimləməsinin əsas məqsədləri nəqliyyat-ekspedisiya xidmətləri bazarının formalaşması, inkişafı və Azərbaycan Respublikasının, həmçinin hüquqi şəxslərin və fərdi sahibkarın iqtisadi maraqlarının qorunmasıdır.

7.2. Nəqliyyat-ekspedisiya fəaliyyəti sahəsində dövlətin əsas vəzifələri aşağıdakılardır:

7.2.1. vahid dövlət siyasətinin formalaşdırılması, o cümlədən dövlət proqramlarının, strategiyaların, milli fəaliyyət planlarının, konsepsiyaların və bu kimi digər sənədlərin (bundan sonra - dövlət proqramları) hazırlanması və həyata keçirilməsi;

7.2.2. Azərbaycan Respublikasının normativ hüquqi aktlarının qabaqcıl beynəlxalq təcrübəyə uyğunlaşdırılması;

7.2.3.nəqliyyat-ekspedisiya fəaliyyətinin həyata keçirilməsi zamanı ətraf mühitin mühafizəsi;

7.2.4. inhisarçılıq fəaliyyətinin və haqsız rəqabətin qarşısının alınması, azad və sağlam rəqabət mühitinin təmin olunması, eləcə də müştəri və ekspeditorun hüquqlarının qorunması üçün tədbirlərin görülməsi;

7.2.5. investisiya mühitinin yaxşılaşdırılması, habelə yerli və xarici investisiyaların cəlb edilməsi üçün tədbirlərin görülməsi;

7.2.6. normativ hüquqi aktların tələblərinə riayət olunmasının təmin edilməsi və pozulmasının qarşısının alınması.

**Maddə 8. Nəqliyyat-ekspedisiya fəaliyyətinə dövlət dəstəyi**

8.1. Nəqliyyat-ekspedisiya fəaliyyətinə dövlət dəstəyi nəqliyyat sahəsində və digər iqtisadi sahələrdə inkişafın təmin edilməsi ilə bağlı qəbul edilən dövlət proqramlarına uyğun olaraq müəyyənləşdirilir və həyata keçirilir.

8.2. Nəqliyyat-ekspedisiya fəaliyyətinə dövlət dəstəyi aşağıdakıları əhatə edir:

8.2.1. nəqliyyat-ekspedisiya xidmətlərinin həcminin artırılması;

8.2.2. nəqliyyat-ekspedisiya fəaliyyəti ilə bağlı normativ hüquqi aktların hazırlanmasında ekspeditorların ictimai birliklərinin iştirakının təmin edilməsi;

8.2.3. ekspeditorların nəqliyyat-ekspedisiya fəaliyyəti sahəsində maarifləndirilməsi üçün informasiya-məsləhət xidmətinin təşkili;

8.2.4. ixtisaslaşmış müəssisələr cəlb edilməklə nəqliyyat-ekspedisiya fəaliyyəti sahəsində çalışan şəxslərin peşə hazırlığının və ixtisaslarının artırılması üçün ödənişli təlimlərin təşkil edilməsi;

8.2.5. ekspeditorların ictimai birliklərinin yaradılmasının və fəaliyyətinin dəstəklənməsi;

8.2.6. ekspeditorların ictimai birliklərinin nəqliyyat-ekspedisiya fəaliyyəti sahəsində ixtisaslaşmış beynəlxalq təşkilatlarla əməkdaşlığının təşviq və inkişaf etdirilməsi;

8.2.7. Azərbaycan Respublikası ekspeditorlarının beynəlxalq bazarda rəqabət qabiliyyətinin artırılması.

### 4-cü fəsil
### NƏQLİYYAT-EKSPEDİSİYA MÜQAVİLƏSİ

**Maddə 9. Nəqliyyat-ekspedisiya müqaviləsinin mahiyyəti**

9.1. Nəqliyyat-ekspedisiya müqaviləsinə əsasən, bir tərəf (ekspeditor) ona veriləcək muzd müqabilində digər tərəfin (müştəri) tapşırığı əsasında və vəsaiti hesabına müqavilədə nəzərdə tutulan nəqliyyat-ekspedisiya xidmətlərinin təşkilini və göstərilməsini həyata keçirir.

9.2. Nəqliyyat-ekspedisiya xidmətləri mütəmadi həyata keçirildikdə müştəri ilə ekspeditor arasında uzunmüddətli nəqliyyat-ekspedisiya müqavilələri bağlanıla bilər.

**Maddə 10. Nəqliyyat-ekspedisiya müqaviləsi**

10.1. Nəqliyyat-ekspedisiya müqaviləsi yazılı formada (kağız daşıyıcıda və ya elektron sənəd formasında) bağlanılır.

10.2. Nəqliyyat-ekspedisiya müqaviləsinin bağlanılması məqsədilə ekspeditor müştəriyə aşağıdakı məlumatları və sənədləri təqdim edir:

10.2.1. hüquqi şəxs üçün - adı, faktiki və hüquqi ünvanı, hüquqi şəxslərin dövlət reyestrindən çıxarışın və vergi uçotuna alınması haqqında şəhadətnamənin surətləri;

10.2.2. fərdi sahibkar üçün - soyadı, adı və atasının adı, eləcə də qeydiyyat ünvanı, vergi uçotuna alınması haqqında şəhadətnamənin surəti;

10.2.3. ekspeditor tərəfindən göstərilən nəqliyyat-ekspedisiya xidmətlərinin siyahısı və muzdun məbləği;

10.2.4. nəqliyyat-ekspedisiya xidmətləri üzrə muzdun və nəqliyyat-ekspedisiya müqaviləsinin icrası üzrə çəkilən xərclərin həyata keçirilmə forması və hesablaşma qaydası;

10.2.5. müxtəlif nəqliyyat növləri ilə yüklərin daşınması tarifləri, belə daşımaların müddəti (o cümlədən çatdırılma müddəti), qaydaları və şərtləri haqqında məlumat;

10.2.6. müştərinin sorğu etdiyi digər məlumatlar (əldə edilməsi qanunla məhdudlaşdırılan məlumatlar həmin məlumatlardan istifadəni tənzimləyən normativ hüquqi aktların tələblərinə uyğun olaraq ekspeditor tərəfindən verilir).

10.3. Nəqliyyat-ekspedisiya müqaviləsində aşağıdakı şərtlər və məlumatlar qeyd edilir:

10.3.1. müqavilənin tərəfləri haqqında məlumatlar:

10.3.1.1. hüquqi şəxslər üçün -adı, hüquqi ünvanı, təşkilati-hüquqi forması və vergi ödəyicisinin eyniləşdirmə nömrəsi;

10.3.1.2. fərdi sahibkarlar üçün - soyadı, adı, atasının adı, qeydiyyat ünvanı və fərdi identifikasiya nömrəsi, habelə vergi ödəyicisinin eyniləşdirmə nömrəsi;

10.3.1.3. əcnəbilər və vətəndaşlığı olmayan fərdi sahibkarlar üçün - soyadı və adı (adları), Azərbaycan Respublikasının ərazisində və ya Azərbaycan Respublikasının hüdudlarından kənarda qeydiyyat ünvanı, eləcə də fərdi identifikasiya nömrəsi (olduqda);

10.3.2. nəqliyyat-ekspedisiya xidmətinin növü;

10.3.3. yükün adı, növü, çəkisi və həcmi;

10.3.4. xidmətin göstərilmə, o cümlədən yükün daşınma müddəti;

10.3.5. yükün olduğu yer (çıxış yeri) və təyinat yeri;

10.3.6. tərəflərin hüquqları və vəzifələri;

10.3.7. müştərinin tapşırıqları;

10.3.8. tariflərdə, hərəkət sxemində (marşrutunda), daşınma şərtlərində, nəqliyyat növündə, nəqliyyat vasitələrində, yükün çatdırılma üsulunda, daşınma qaydasında (ardıcıllığında) və müştərinin tapşırıqlarında ediləcək dəyişikliklərin razılaşdırılması qaydası;

10.3.9. ekspeditora ödənilən muzdun məbləği;

10.3.10. müqavilənin müddəti;

10.3.11. tərəflərin məsuliyyəti (o cümlədən tərəflərin iradəsindən asılı olmayan səbəblərdən dəymiş ziyana görə);

10.3.12. müqavilənin ləğvi əsasları və qaydası;

10.3.13. müqavilə ilə müəyyən edilən yüklərin, nəqliyyat vasitələrinin, risklərin sığortası, vurulan zərərə görə mülki məsuliyyətin sığortası və müqavilənin ləğvi nəticəsində tərəflərə dəyən zərərin ödənilməsi şərtləri və qaydası;

10.3.14. mübahisələrin həlli qaydası;

10.3.15. bu Qanunun 27.9-cu maddəsinə uyğun olaraq pretenziya vermək hüququnun başqasına verilməsi halı və təsdiqi qaydası;

10.3.16. hesablaşma qaydası;

10.3.17. tərəflərin məxfi hesab etdiyi məlumatlar;

10.3.18. tərəflərin bank rekvizitləri.

10.4. Müqavilənin digər şərtləri Azərbaycan Respublikasının Mülki Məcəlləsi ilə tənzimlənir.

10.5. Müştəri və ekspeditor qarşılıqlı razılıq əsasında Azərbaycan Respublikasının normativ hüquqi aktlarına zidd olmaması şərtilə, bu Qanunun 10.3-cü maddəsində qeyd olunanlardan əlavə şərtlər müəyyən edə bilərlər.

10.6. Ekspeditor tərəfindən göstəriləcək nəqliyyat-ekspedisiya xidmətlərinin növlərindən asılı olaraq daşıma, tapşırıq, podrat, komissiya və nəqliyyat-ekspedisiya müqavilələrini əhatə edən qarışıq müqavilələr bağlanıla bilər.

10.7. Ekspeditor tərəfindən müştəriyə göstərilən, o cümlədən Azərbaycan Respublikasının və ya digər dövlətlərin ərazisində yüklərin ixrac, idxal, tranzit, eləcə də ölkədaxili daşınması ilə bağlı olan nəqliyyat-ekspedisiya xidmətlərinin dairəsi nəqliyyat-ekspedisiya müqaviləsində tərəflərin razılığı ilə müəyyən olunur.

**Maddə 11. Nəqliyyat-ekspedisiya müqaviləsi üzrə ekspeditorun hüquqi statusu**

11.1. Nəqliyyat-ekspedisiya müqaviləsində başqa hal nəzərdə tutulmadıqda, nəqliyyat-ekspedisiya müqaviləsinin icrası zamanı ekspeditor öz adından və ya müştərilərinin adından üçüncü şəxslərlə müqavilələr bağlamaq hüququna malikdir.

11.2. Üçüncü şəxslərə münasibətdə ekspeditor bu Qanunun 11.3-cü maddəsində nəzərdə tutulmuş hallar istisna olmaqla, öz adından hərəkət edir. Ekspeditorun öz adından bağladığı müqavilələr üzrə hüquq və vəzifələr ekspeditora aiddir.

11.3. Nəqliyyat-ekspedisiya müqaviləsi ilə nəzərdə tutulan hallarda, eləcə də müqavilədə ekspeditora belə hüquq verilmədikdə müştəri tərəfindən verilən etibarnamə əsasında ekspeditor üçüncü şəxslərlə münasibətlərdə müştərinin adından hərəkət edir. Bu zaman ekspeditor nəqliyyat-ekspedisiya müqaviləsi əsasında müştərinin adından bağladığı bütün müqavilələrin əslini 5 (beş) gün ərzində müştəriyə təqdim etməlidir.

11.4. Ekspeditor nəqliyyat-ekspedisiya müqaviləsində nəzərdə tutulmuş öhdəliklərinin icrası üçün başqa ekspeditor cəlb etdikdə müştərinin razılığı ilə əlavə nəqliyyat-ekspedisiya müqaviləsi bağlamalıdır. Bu halda digər ekspeditoru cəlb edən ekspeditor nəqliyyat-ekspedisiya müqaviləsinə əsasən müştərinin hüquq və vəzifələrini əldə edir.

**Maddə 12. Nəqliyyat-ekspedisiya fəaliyyəti həyata keçirilərkən sənədlərin rəsmiləşdirilməsi**

12.1. Nəqliyyat-ekspedisiya müqaviləsi çərçivəsində xidmətlər göstərilərkən yükü müşayiət edən sənədlər, eləcə də aşağıdakı yük-nəqliyyat sənədləri tərtib olunur:

12.1.1. ekspeditora tapşırıq - müştəri tərəfindən tərtib edilir;

12.1.2. ekspeditorun qeydi - ekspeditor tərəfindən tərtib edilir;

12.1.3. anbar qeydi - ekspeditor tərəfindən tərtib edilir;

12.1.4. bu Qanunun 2.1-ci maddəsində qeyd edilən normativ hüquqi aktlarla nəzərdə tutulan digər yük-nəqliyyat sənədləri - həmin normativ hüquqi aktlarla müəyyən edilən qaydada və şəxslər tərəfindən tərtib edilir.

12.2. Yük-nəqliyyat sənədləri rəsmiləşdirilməmiş nəqliyyat-ekspedisiya xidmətləri həyata keçirilə bilməz. Ekspeditora tapşırığın rəsmiləşdirilməsi bu Qanunun 13-cü maddəsi ilə müəyyən olunmuş qaydada həyata keçirilir.

12.3. Ekspeditorun qeydində və yük anbarda saxlanılmağa qəbul edilərkən tərtib edilən anbar qeydində aşağıdakı məlumatlar göstərilir:

12.3.1. nəqliyyat-ekspedisiya xidmətlərinin başlanılması vəyekunlaşdırılmasıtarixləri;

12.3.2. yükün qəbul edilməsi;

12.3.3. yükün adı, növü, çəkisi və həcmi;

12.3.4. yükün görünüşü və vəziyyəti;

12.3.5. qablaşdırmanın növü və vəziyyəti;

12.3.6. yükün olduğu yer (çıxış yeri) və təyinat yeri, eləcə də yük yerləri;

12.3.7. yükün dəyəri (müştəri tərəfindən yükün dəyəri elan edildiyi təqdirdə qeyd olunur);

12.3.8. yükün daşınma və ya anbarda saxlanma müddəti;

12.3.9. xüsusi təhlükəli və potensial təhlükəli yük olduqda - təhlükənin konkret növü, rəftar qaydası və belə hallarda yerinə yetirilməli ehtiyat tədbirləri;

12.3.10. nəqliyyat-ekspedisiya xidmətlərinin şərtləri barəsində müştərinin xüsusi göstərişləri;

12.3.11. yüklə birlikdə verilmiş sənədlərin siyahısı;

12.3.12. qeydin tərtib edildiyi yer və tarix;

12.3.13. qeydi tərtib edən şəxsin vəzifəsi, soyadı, adı və atasının adı.

12.4. Ekspeditor qeydinin və anbar qeydinin 1 (bir) nüsxəsi 2 (iki) gün ərzində ekspeditor tərəfindən müştəriyə (yük alana) təqdim edilir.

12.5. Nəqliyyat-ekspedisiya müqaviləsinin tərəfləri bu Qanunun 12.3-cü, 13.1-civə 13.3-cü maddələrində nəzərdə tutulanlara əlavə olaraq zəruri hesab etdikləri digər məlumatları yük-nəqliyyat sənədlərinə daxil edə bilərlər.

12.6. Beynəlxalq yük daşımaları ilə bağlı nəqliyyat-ekspedisiya xidmətləri həyata keçirilərkən Azərbaycan Respublikasının qoşulduğu beynəlxalq müqavilələrdə nəzərdə tutulan sənədlərin, o cümlədən beynəlxalq təşkilatlar tərəfindən bu sahədə tövsiyə olunan sənədlərin nümunələrindən istifadə olunur.

12.7. Nəqliyyat-ekspedisiya müqaviləsinə əsasən ekspeditor bir yük-nəqliyyat sənədi (ekspeditorun qeydi və ya anbar qeydi) əsasında bir neçə müştərinin yüklərinin daşınmasını həmin müştərilərin hamısının adından yükgöndərən və ya yükalan qismində çıxış etməsi şərtilə təşkil edə bilər.

12.8. Əgər bir neçə müştərinin yükünün aralıq və son təyinat yerləri eynidirsə, ekspeditor bu əşyaları qruplaşdıraraq daşınmasını təşkil edə bilər.

12.9. Azərbaycan Respublikasının ərazisində daxili daşınan yüklər dövlət dilində, digər ölkələrə daşınan yüklər isə xarici dildə tərtib edilən yük-nəqliyyat sənədləri ilə müşayiət olunur.

12.10. Nəqliyyat-ekspedisiya müqaviləsi ilə başqa hal nəzərdətutulmadıqda, ekspeditor yükün təyinat yerində daşıyıcıdan təhvil alınması zamanı müvafiq rəsmiləşdirmələrinaparılmasında iştirak edir.

**Maddə 13. Ekspeditora tapşırığın verilməsi və icrasına başlanılması**

13.1. Müştəri nəqliyyat-ekspedisiya müqaviləsinə uyğun olaraq nəqliyyat-ekspedisiya xidmətlərinin təşkili və göstərilməsi üçün ekspeditora tapşırıq (müştəri, ekspeditor və tapşırığın məzmunu haqqında məlumatların qeyd edildiyi ekspeditora tapşırıq sənədi üzrə) verir. Müştəri ilə bağlanılmış nəqliyyat-ekspedisiya müqaviləsi əsasında verilmiş tapşırıq bu Qanunda və ya müqavilədə başqa hal nəzərdə tutulmadıqda, yaxud müqavilənin şərtlərinə zidd deyilsə ekspeditor tərəfindən dərhal icra edilmək üçün qəbul olunur.

13.2. Nəqliyyat-ekspedisiya müqaviləsinin şərtlərindən kənara çıxdığı hallarda müştəri tərəfindən verilən tapşırığın icra edilməsi üçün ekspeditorun yazılı razılığı (kağız daşıyıcıda və ya elektron sənəd formasında) tələb olunur. Müştəri tərəfindən ekspeditordan həmin razılıq alındıqda yeni nəqliyyat-ekspedisiya müqaviləsi bağlanılır.

13.3. Müştəri tərəfindən ekspeditora tapşırıq sənədi doldurulduqdan və imzalandıqdan (o cümlədən elektron qaydada doldurulduqdan və elektron imza ilə imzalandıqdan) sonra nəqliyyat-ekspedisiya müqaviləsində başqa hal nəzərdə tutulmadıqda, ekspeditora kağız daşıyıcıda və ya bu Qanunun 13.6-cı maddəsində göstərilən üsullarla təqdim edilir. Həmin sənəddə tapşırığın düzgün icrası üçün lazım olan bütün məlumatlar, o cümlədən yükün xüsusiyyətləri (xarakteri), markalanması, çəkisi, həcmi və yük yerləri barədə tam və etibarlı məlumatlar qeyd edilməlidir.

13.4. Ekspeditor ekspeditora tapşırıq sənədinə nəqliyyat-ekspedisiya müqaviləsi ilə müəyyən edilmiş müddətdə, müqavilədə müddət müəyyən edilmədikdə isə 3 (üç) iş günü ərzində baxdıqdan sonra həmin sənəd üzərində tapşırığı qəbul etməsi və ya imtina səbəbi əsaslandırılmaqla, tapşırığı rədd etməsi barədə qeydi müştəriyə təqdim edir.

13.5. Ekspeditora tapşırıq sənədinin icrasına həmin tapşırığın qəbul edilməsi barədə ekspeditorun yazılı razılığının (kağız daşıyıcıda və ya elektron sənəd formasında) müştəriyə çatdığı gündən başlanılır.

13.6. Faksimil və digər elektron vasitələrlə ekspeditora tapşırığın verilməsi və ya verilən tapşırığın dəyişdirilməsi və ya geri götürülməsi qaydası və şərtləri tərəflər arasında bağlanılmış nəqliyyat-ekspedisiya müqaviləsi ilə müəyyən edilir.

**Maddə 14. Nəqliyyat-ekspedisiya fəaliyyətinin həyata keçirilməsi ilə bağlı muzdun ödənilməsi**

14.1. Ekspeditora ödənilən muzda nəqliyyat-ekspedisiya müqaviləsinin icrasına cəlb edilən şəxslərə ödənilən xidmət haqları, habelə müqavilənin icrası üzrə ekspeditorun çəkdiyi xərclər, gömrük ödənişləri, vergilər və digər icbari ödənişlər daxil deyildir.

14.2. Ekspeditorun müqavilənin icrası üzrə çəkdiyi xərcləri nəqliyyat-ekspedisiya müqaviləsinin icrasına cəlb edilən şəxslər və aidiyyəti dövlət orqanları (qurumları) tərəfindən verilən sənədlər (faktura, hesab-faktura, qaimə və s.) əsasında təsdiq edilir.

**Maddə 15. Nəqliyyat-ekspedisiya müqaviləsinin birtərəfli qaydada ləğvi**

15.1. Hər bir tərəf 30 (otuz) iş günü əvvəldən digər tərəfə yazılı qaydada (kağız daşıyıcıda və ya elektron sənəd formasında) xəbərdarlıq etməklə nəqliyyat-ekspedisiya müqaviləsini ləğv etmək hüququna malikdir.

15.2. Bu Qanunun 15.3-cü və 15.4-cü maddələrində qeyd edilən hallar istisna olmaqla, nəqliyyat-ekspedisiya müqaviləsi birtərəfli qaydada ləğv edildiyi halda, müqavilənin ləğvi ilə bağlı müraciət edən tərəf digər tərəfə müqavilənin ləğv edilməsi ilə bağlı dəymiş zərəri və əldən çıxmış gəlirlərini ödəyir. Müqavilənin birtərəfli qaydada ləğv edilməsi ilə bağlı dəymiş zərər və əldən çıxmış gəlirlər üzrə ödənilən vəsait nəqliyyat-ekspedisiya müqaviləsinin icrası üzrə çəkdiyi xərclərin ödənilməsi üçün kifayət etmədikdə, hər bir tərəf ona vurulmuş zərərin əvəzinin tam ödənilməsini məhkəmə qaydasında tələb etmək hüququna malikdir.

15.3. Nəqliyyat-ekspedisiya müqaviləsi birtərəfli qaydada ləğv edildiyi halda, müştəri muzdun ekspeditor tərəfindən göstərilmiş nəqliyyat-ekspedisiya xidmətlərinin həcminə uyğun olan hissəsini və ekspeditorun müqavilənin icrası üzrə çəkdiyi xərcləri təsdiqedici sənədlər əsasında ödəyir. Müştəri qeyd edilən ödənişləri tam ödəmədikdə ekspeditor onların tam ödənilməsini məhkəmə qaydasında tələb etmək hüququna malikdir.

15.4. Nəqliyyat-ekspedisiya müqaviləsi ekspeditorun həmin müqaviləni düzgün yerinə yetirməməsi nəticəsində birtərəfli qaydada ləğv edildiyi halda müştərinin, əgər bu Qanunda və müqavilədə başqa qayda nəzərdə tutulmamışdırsa, müqavilənin ləğv edilməsi ilə bağlı dəymiş zərərin və əldən çıxmış gəlirlərinin əvəzinin ödənilməsini tələb etmək hüququ vardır.

### 5-ci fəsil
### MÜŞTƏRİNİN VƏ EKSPEDİTORUN HÜQUQ VƏ VƏZİFƏLƏRİ, EKSPEDİTORLARIN İCTİMAİ BİRLİKLƏRİ

**Maddə 16. Müştərinin hüquqları**

16.1. Müştərinin hüquqları aşağıdakılardır:

16.1.1. nəqliyyat-ekspedisiya xidmətlərini, yük alanı və ya təyinat yerini, nəqliyyat-ekspedisiya müqaviləsində başqa hal nəzərdə tutulmadıqda nəqliyyatın növünü, nəqliyyat vasitələrini, hərəkət sxemini (marşrutunu), yüklərin çatdırılma üsulunu, daşınma qaydasını (ardıcıllığını) və digər şərtlərini seçmək və dəyişdirmək;

16.1.2. yükün dəyərini elan etmək, eləcə də yük barəsində sərəncam vermək və ya sərəncam hüququnu digər şəxsə ötürmək;

16.1.3. ekspeditordan nəqliyyat-ekspedisiya xidmətlərinin gedişi, o cümlədən yükün daşınmasının təşkili və həyata keçirilməsi barədə məlumat verilməsini tələb etmək;

16.1.4. bu Qanun və nəqliyyat-ekspedisiya müqaviləsi ilə müəyyən edilmiş qaydada ekspeditora tapşırıqlar vermək;

16.1.5. ekspeditora əvvəlcədən yazılı formada (kağız daşıyıcıda və ya elektron sənəd formasında) və ya bu Qanunun 13.6-cı maddəsində göstərilən üsullarla tapşırığın dəyişdirilməsi və ya geri götürülməsi barədə məlumat vermək, nəqliyyat-ekspedisiya müqaviləsi ilə müəyyən edilmiş qaydada ekspeditorun razılığını almaq və yaranan xərcləri və ekspeditorla razılaşdırılmış əlavə muzdu ödəmək şərtilə ekspeditora verdiyi tapşırığı dəyişmək və ya geri götürmək;

16.1.6. daşıma şərtləri pozulduqda ekspeditordan təxirə salınmadan bu barədə məlumatı, eləcə də ekspeditorun bağladığı müqavilələri (müştərinin yüklərinin daşınması ilə bağlı) və yükə dair digər zəruri sənədləri almaq;

16.1.7. bu Qanunla müəyyən edilmiş qaydada nəqliyyat-ekspedisiya müqaviləsini birtərəfli qaydada ləğv etmək;

16.1.8. bu Qanunla müəyyən edilmiş digər hüquqlardan istifadə etmək.

**Maddə 17. Müştərinin vəzifələri**

17.1. Müştərinin vəzifələri aşağıdakılardır:

17.1.1. ekspeditor qarşısında nəqliyyat-ekspedisiya müqaviləsi üzrə müəyyən edilmiş öhdəlikləri yerinə yetirmək və müqavilədə razılaşdırılmış müddətlərə riayət etmək;

17.1.2. nəqliyyat-ekspedisiya müqaviləsində başqa hal nəzərdə tutulmadıqda yükü (habelə itirilmədən (məhv olmadan), əskik çıxmadan və ya zədələnmədən (xarab olmadan) qorunması tələb olunan yükləri onlar üçün müəyyən edilmiş tələblərə uyğun olaraq) daşınma üçün hazırlanmış, o cümlədən taralarda və (və ya) qablaşdırmada ekspeditora təhvil vermək;

17.1.3. nəqliyyat növünün, nəqliyyat vasitələrinin, hərəkət sxeminin (marşrutunun), yüklərin çatdırılma üsulunun, daşınma qaydasının (ardıcıllığının) və digər şərtlərinin, yük alanın və ya təyinat yerinin dəyişdirilməsi barədə ekspeditora ən geci 3 (üç) iş günü əvvəlcədən yazılı formada (kağız daşıyıcıda və ya elektron sənəd formasında) və ya bu Qanunun 13.6-cı maddəsində göstərilən üsullarla məlumat vermək və bununla əlaqədar yaranan xərcləri ödəmək;

Ardı 3-cü səh.

# Nəqliyyat-ekspedisiya fəaliyyəti haqqında

## Azərbaycan Respublikasının Qanunu

*Əvvəli 2-ci səh.*

17.1.4. ekspeditora tapşırığı rəsmiləşdirmək, eləcə də onun tamlığını və etibarlılığını təmin etmək;

17.1.5. nəqliyyat-ekspedisiya müqaviləsi üzrə öhdəliklərin düzgün icra edilməsi, yüklərin təhlükəsiz şəraitdə daşınması, gömrük, fitosanitar, karantin, qida təhlükəsizliyi, sərhəd təhlükəsizliyi, sanitar-gigiyena sahəsində normativ hüquqi aktların, o cümlədən müvafiq texniki reqlamentin tələblərinə riayət olunması üçün zəruri olan müşayiətedici sənədləri ekspeditora təqdim etmək;

17.1.6. nəqliyyat-ekspedisiya müqaviləsi üzrə öhdəliklərin yerinə yetirilməsi üçün zəruri olduqda ekspeditora etibarnamə vermək;

17.1.7. Azərbaycan Respublikası Mülki Məcəlləsinin 853.1-ci maddəsində nəzərdə tutulmuş məlumatları, habelə yükün adı, keyfiyyəti və digər xüsusiyyətləri (xarakteri), daşınma şərtləri, eləcə də üçüncü şəxslərə və ya onların əmlakına, digər yüklərə və ya ətraf mühitə zərər vura biləcək tez xarab olma xüsusiyyətləri (xarakteri) barədə ekspeditora tam, dəqiq və etibarlı məlumatları yazılı formada vermək;

17.1.8. ekspeditora verdiyi tapşırığı dəyişdirməsi və ya geri götürməsi barədə 2 (iki) iş günü ərzində məlumat vermək, bununla əlaqədar nəqliyyat-ekspedisiya müqaviləsi ilə müəyyən edilmiş qaydada ekspeditorun razılığını almaq və yaranan xərcləri və ekspeditorla razılaşdırılmış əlavə muzdu ödəmək;

17.1.9. ekspeditorun nəqliyyat-ekspedisiya müqaviləsinin icrası üzrə çəkdiyi xərcləri (təsdiqedici sənədlər əsasında) və muzdu ödəmək;

17.1.10. Azərbaycan Respublikasının normativ hüquqi aktlarında və ya nəqliyyat-ekspedisiya müqaviləsində başqa hal nəzərdə tutulmadıqda ekspeditora verdiyi qeyri-dəqiq və ya natamam məlumatlar və ya tapşırıqlar, həmçinin müqavilə üzrə müəyyən edilmiş öhdəliklərin yerinə yetirilməməsi və ya lazımi qaydada yerinə yetirilməməsi nəticəsində ətraf mühitə, əmlaka, ekspeditora və digər şəxslərə vurduğu zərəri ödəmək;

17.1.11. bu Qanunla müəyyən edilmiş digər vəzifələri yerinə yetirmək.

17.2. Müştəri ekspeditorun nəqliyyat-ekspedisiya müqaviləsinin icrası üzrə çəkdiyi xərcləri (təsdiqedici sənədlər əsasında) və muzdu ödəyənə və ya həmin ödənişlərin edilməsinə zəmanət verənə qədər ekspeditora yükün saxlanılmasına çəkdiyi xərclər üzrə ödənişləri həyata keçirməlidir.

17.3. Nəqliyyat-ekspedisiya müqaviləsinin şərtlərinə uyğun olaraq müşayiəti daşıyıcı və ya ekspeditor tərəfindən təşkil edilməli yüklər istisna olmaqla, aşağıdakı yüklərin müşayiət olunması onların daşınma təhlükəsizliyinə zəmanət verilməklə və yüklərin daşınması zamanı baş vermiş qəza hadisəsi barədə xəbərdarlıq etməklə, həmçinin qəzanın nəticələrini aradan qaldırmaq üçün lazımi vasitələrə və işçi qüvvəyə malik olmaqla müştəri tərəfindən təşkil edilir:

17.3.1. öz xüsusiyyətlərinə görə xüsusi daşıma şəraiti tələb edən yüklər (partlayıcı və pirotexniki materiallar, radioaktiv, sıxılmış və özüalışan maddələr, sıxılmış və mayeləşdirilmiş qazlar, tezalışan mayelər (maye yanacaqlardan başqa), güclü zəhərləyici təsiri olan maddələr, aşındırıcı maddələr və digər təhlükəli yüklər);

17.3.2. xüsusi mühafizə tələb edən yüklər (qiymətli daşlar və metallar, zərgərlik, incəsənət məmulatları və əntiq əşyalar, rəsm əsərləri, heykəllər və digər incəsənət əsərləri);

17.3.3. daşıma prosesində qulluq tələb edən yüklər (canlı heyvanlar, dərman vasitələri, tez xarab olan mallar, kövrək və qırıla bilən əşyalar, musiqi alətləri, elektron və optik alətlər və digər bu kimi yüklər).

**Maddə 18. Ekspeditorun hüquqları**

18.1. Ekspeditorun hüquqları aşağıdakılardır:

18.1.1. yükgöndərən və yükalan qismində çıxış etmək;

18.1.2. yükü təhvil aldığı (qəbul etdiyi) zaman müştəridən aşkar edilmiş çatışmazlıqların aradan qaldırmasını tələb etmək;

18.1.3. nəqliyyat-ekspedisiya müqaviləsində başqa hal nəzərdə tutulmadıqda müqavilə üzrə öhdəliklərini yerinə yetirmək üçün üçüncü şəxsləri cəlb etmək;

18.1.4. daşıma müqaviləsi əsasında yüklərin daşıyıcılar tərəfindən daşınmasına nəzarət etmək və ya sərəncamında olan nəqliyyat vasitələri ilə yüklərin daşınmasını həyata keçirmək;

18.1.5. nəqliyyat-ekspedisiya müqaviləsində nəzərdə tutulan qaydada nəqliyyatın növünü, nəqliyyat vasitələrini, hərəkət sxemini (marşrutunu), yüklərin çatdırılma üsulunu, daşınma qaydasını (ardıcıllığını) və digər şərtlərini seçmək və ya dəyişdirmək, bu məqsədlə müqavilələr bağlamaq;

18.1.6. müştəridən nəqliyyat-ekspedisiya müqaviləsi üzrə vəzifələrinin icrası üzrə çəkilən xərclərin (təsdiqedici sənədlər əsasında), habelə müqavilə ilə müəyyən edilmiş muzdun ödənilməsini tələb etmək;

18.1.7. müştəridən nəqliyyat-ekspedisiyası müqaviləsinin həmin müqavilədə qeyd edilən tələblərə uyğun yerinə yetirilməsi üçün yükə dair sənədlərin və məlumatların alınmasına qədər nəqliyyat-ekspedisiya müqaviləsi üzrə öhdəliklərin icrasına başlamamaq;

18.1.8. müştərinin nəqliyyat-ekspedisiya müqaviləsinin düzgün yerinə yetirilməsi üçün təqdim etdiyi sənədlərin və məlumatların həqiqiliyini yoxlamaq;

18.1.9. müştərinin tapşırıqlarından kənara çıxmaq zərurəti yarandıqda, xüsusən yükün zədələnməsinə, insanların həyat və sağlamlığına, əmlakın və ətraf mühitin təhlükəsizliyinə təhdidlər yarandığı hallarda bununla bağlı müştərinin əvvəlcədən razılığını almaq üçün bu cür zərurət yarandığı andan dərhal sonra sorğu vermək, eləcə də bu sorğuya 1 (bir) gün ərzində cavab almaq mümkün olmadıqda, müştərini mümkün olduğu ilk anda məlumatlandırmaq şərtilə öz mülahizəsi əsasında hərəkət etmək;

18.1.10. müştərinin bu Qanunun və nəqliyyat-ekspedisiya müqaviləsinin şərtlərinə uyğun olmayan tapşırıqlarının icrasından imtina etmək;

18.1.11. bu Qanunun 19-cu maddəsində qeyd olunan halda yükü saxlamaq və ya saxlanılması üçün üçüncü tərəfə təqdim etmək;

18.1.12. bu Qanunla müəyyən edilmiş qaydada nəqliyyat-ekspedisiya müqaviləsini birtərəfli qaydada ləğv etmək;

18.1.13. bu Qanunun 21.2-ci maddəsində qeyd edilən məqsədlərə nail olmaq üçün ekspeditorların ictimai birliklərini yaratmaq;

18.1.14. bu Qanunda müəyyən edilmiş digər hüquqlardan istifadə etmək.

18.2. Ekspeditor təhlükəli, tez xarab olan və xüsusi daşınma şərtləri (şəraiti) tələb edən yükləri müştəri tərəfindən onların daşınma şərtləri (şəraiti) barədə yazılı və ya elektron formadaməlumat verildiyi halda qəbul edir (təhvil alır).

**Maddə 19. Ekspeditorun yükü saxlamaq hüququ**

19.1. Ekspeditor müştəri tərəfindən nəqliyyat-ekspedisiya müqaviləsi ilə müəyyən edilən öhdəliklər icra olunmadıqda, eləcə də müqavilənin icrası üzrə çəkdiyi xərcləri və muzdu ödənilmədikdə müştərinin yükünü saxlamaq hüququna malikdir. Ekspeditor yükün saxlanılması barədə növbəti gündən gec olmayaraq müştəriyə yazılı məlumat (kağız daşıyıcıda və ya elektron sənəd formasında) verir.

19.2. Ekspeditor yükü müştəri tərəfindən nəqliyyat-ekspedisiya müqaviləsində göstərilən öhdəliklər icra olunana, eləcə də müqavilənin icrası üzrə çəkdiyi xərcləri, muzdu və yükün saxlanılma xərcləri ödənilənə və ya müştəri tərəfindən həmin ödənişlərin edilməsinə zəmanət verilənə və ya həmin ödənişlər üzrə müvafiq məbləğin məhkəmədə depozitə qoyulmasına qədər saxlaya bilər.

**Maddə 20. Ekspeditorun vəzifələri**

20.1. Ekspeditorun vəzifələri aşağıdakılardır:

20.1.1. müştəri qarşısında nəqliyyat-ekspedisiya müqaviləsi üzrə müəyyən edilmiş öhdəlikləri yerinə yetirmək;

20.1.2. yükü xarici xüsusiyyətlərinə (görünüşü, vəziyyəti, yerlərin sayı, qablaşdırmanın növü və vəziyyəti, tarası, markalanması), habelə ekspeditorun qeydi və anbar qeydi sənədlərinə əsasən təhvil almaq (qəbul etmək);

20.1.3. yükü təhvil aldıqda (qəbul etdikdə) yük-nəqliyyat sənədlərini rəsmiləşdirmək, eləcə də onların tamlığına və etibarlılığına nəzarət etmək;

20.1.4. yükü təhvil aldığı (qəbul etdiyi) zaman yükün nəqliyyat vasitəsinə düzgün yüklənməsini yoxlamaq;

20.1.5. nəqliyyat-ekspedisiya xidmətlərini Azərbaycan Respublikasının normativ hüquqi aktlarına, nəqliyyat-ekspedisiya müqaviləsinə, müştərinin bu Qanun və müqavilə ilə müəyyən edilmiş qaydada verilən tapşırıqlarına uyğun olaraq göstərmək;

20.1.6. bu Qanunun 18.1.10-cu maddəsində ekspeditorun müştərinin tapşırıqlarından kənara çıxmaq hüququnun müəyyən olunduğu hal istisna olmaqla, müştərinin tapşırıqlarını dəqiq icra etmək;

20.1.7. nəqliyyat-ekspedisiya müqaviləsində nəzərdə tutulan vəzifələrinin ondan asılı olmayan səbəblərdən tam və ya qismən icra edilməməsi, o cümlədən bu Qanunun 16.1.3-cü maddəsində qeyd edilən hallarla bağlı müştərini dərhal məlumatlandırmaq;

20.1.8. müştəri tərəfindən qeyri-dəqiq və ya natamam məlumatlar verildiyi təqdirdə nəqliyyat-ekspedisiya müqaviləsinin dəqiq icrasını təmin etmək məqsədilə ondan zəruri sənədləri və məlumatları sorğu əsasında yazılı və ya elektron formada almaq;

20.1.9. nəqliyyat-ekspedisiya müqaviləsi, eləcə də müştərinin verdiyi etibarnamə əsasında müştərinin adından nəqliyyat-ekspedisiya müqaviləsinə uyğun olaraq müqavilələr bağlamaq, həmçinin bağladığı müqavilələrin əslini 5 (beş) gün ərzində müştəriyə təqdim etmək;

20.1.10. nəqliyyat-ekspedisiya xidmətlərinin göstərilməsi və yüklərin daşınması zamanı yaranan çətinliklər barədə təxirəsalınmadan müştəriyə məlumat vermək, tariflərin və daşınma şərtlərini, habelə nəqliyyat növünü, nəqliyyat vasitələrini, hərəkət sxemini (marşrutunu), yükün çatdırılma üsulunu və daşınma qaydasını (ardıcıllığını) və digər şərtlərini müştəri ilə razılaşdırmaqla dəyişdirmək;

20.1.11. nəqliyyat-ekspedisiya müqaviləsinin icrası zamanı müştərinin maraqları çərçivəsində hərəkət etmək, o cümlədən müştərinin xərclərini azaltmaq və yükün təhlükəsizliyini təmin etmək;

20.1.12. nəqliyyat-ekspedisiya xidmətlərinin göstərilməsi zamanı yükün tamlığını, bütövlüyünü və zədələnməməsini (xarab olmamasını) təmin etmək, habelə nəqliyyat-ekspedisiya müqaviləsində razılaşdırılmış müddətlərə riayət etmək;

20.1.13. itirilmiş yükün (daşıyıcı kimi çıxış etdikdə isə daşıyıcıya verilənədək itirilmiş yükün) axtarılmasını təmin etmək, habelə yükün nəqliyyat-ekspedisiya müqaviləsinin icrasında iştirak edən üçüncü şəxsin hərəkəti və ya hərəkətsizliyi nəticəsində itirildiyi, məhv olduğu və ya zədələndiyi təqdirdə görülən tədbirlər barədə müştərini 5 (beş) gün ərzində məlumatlandırmaq;

20.1.14. nəqliyyat-ekspedisiya müqaviləsi üzrə vəzifələrinin icrası üzrə yaranan xərclərin, vergilərin və digər icbari ödənişlərin vaxtında və tam ödənilməsini təmin etmək;

20.1.15. nəqliyyat-ekspedisiya müqaviləsi ilə müəyyən edildiyi halda gömrük, fitosanitar, karantin, qida təhlükəsizliyi, sərhəd təhlükəsizliyi, sanitar-gigiyena sahəsində normativ hüquqi aktların, o cümlədən müvafiq texniki reqlamentlərin tələblərinin yerinə yetirilməsini təmin etmək;

20.1.16. nəqliyyat-ekspedisiya müqaviləsi üzrə müəyyən edilmiş öhdəliklərin yerinə yetirilməməsi və ya lazımi qaydada yerinə yetirilməməsi nəticəsində müştəriyə və digər şəxslərə vurduğu zərəri ödəmək;

20.1.17. bütün hallarda müştərinin mənafelərini qorumaq və onun maraqları çərçivəsində hərəkət etmək;

20.1.18. müşayiətedici sənədləri, habelə Azərbaycan Respublikası Mülki Məcəlləsinin 853.1-ci maddəsində qeyd edilən sənədləri və məlumatları daşıyıcıya təqdim etmək;

20.1.19. nəqliyyat-ekspedisiya xidmətlərini yükə, ətraf mühitə, əmlaka, insanların həyat və sağlamlığına zərər vurmadan və ya digər təhlükələr törətmədən həyata keçirmək;

20.1.20. müştərinin tapşırıqlarının qeyri-dəqiq və ya natamam olduğu, habelə bu Qanuna və nəqliyyat-ekspedisiya müqaviləsinə uyğun gəlmədiyi hallarda özündən asılı olmayan səbəblərdən müştərinin tapşırıqlarını 2 (iki) iş günü ərzində dəqiqləşdirə bilmədikdə, nəqliyyat-ekspedisiya xidmətlərini müştərinin maraqlarından çıxış edərək və mənafelərini qorumaq şərtilə göstərmək;

20.1.21. bu Qanunla müəyyən edilmiş digər vəzifələri yerinə yetirmək.

20.2. Bu Qanunun 18.1.10-cu maddəsinin tələbi nəzərə alınmaqla, müştərinin tapşırıqlarından kənara çıxmaq zərurəti yarandıqda, xüsusən yükə, ətraf mühitə, əmlaka, insanların həyat və sağlamlığına zərərvurma təhlükəsi və ya digər təhlükə yarandığı hallarda ekspeditor bununla bağlı müştərinin əvvəlcədən razılığını almağa borcludur.

20.3. Ekspeditor xidmətlərindən şəxsi, ailə, məişət və sahibkarlıq fəaliyyəti ilə bağlı olmayan digər tələbatların ödənilməsi üçün istifadə edən şəxslərə onların tələbi əsasında istehlakçıların hüquqlarının müdafiəsi ilə bağlı Azərbaycan Respublikasının normativ hüquqi aktları ilə müəyyən edilmiş hüquqları barədə məlumat verməlidir.

**Maddə 21. Ekspeditorların ictimai birlikləri**

21.1. Ekspeditorlar könüllü olaraq Azərbaycan Respublikasının Mülki Məcəlləsi,"Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" və "Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında" Azərbaycan Respublikasının qanunları ilə müəyyən edilmiş qaydada yaradılan ictimai birliklərdə birləşə bilərlər.

21.2. Ekspeditorların ictimai birlikləri aşağıdakı məqsədlər üçün yaradılır:

21.2.1. üzvlərin fəaliyyətini əlaqələndirmək;

21.2.2. nəqliyyat-ekspedisiya xidmətlərinin keyfiyyətinin və peşəkarlıq səviyyəsinin artırılması məqsədilə rəqabət səviyyəsinin yüksəldilməsinə yönəldilən tədbirlər planlaşdırmaq və həyata keçirmək;

21.2.3. müvafiq qurumlarda və məhkəmədə üzvlərinin qanuni hüquqlarını və mənafeyini müdafiə etmək, habelə maraqlarının qorunması üçün tədbirlər görmək;

21.2.4. nəqliyyat-ekspedisiya fəaliyyəti sahəsində normativ hüquqi aktların layihələrinin hazırlanmasında iştirak etmək, təkliflər hazırlamaq və aidiyyəti dövlət orqanlarına (qurumlarına) təqdim etmək;

21.2.5. nəqliyyat-ekspedisiya xidmətlərinin beynəlxalq iqtisadi məkana inteqrasiya olunmasında iştirak etmək;

21.2.6. nəqliyyat, nəqliyyat-ekspedisiya və digər logistika sahələri üzrə beynəlxalq təşkilatların fəaliyyətində iştirak etmək;

21.2.7. nəqliyyat, nəqliyyat-ekspedisiya və digər logistika sahələri üzrə beynəlxalq təşkilatların tövsiyələrinin ölkə üzrə yerinə yetirilməsinə dair aidiyyəti dövlət orqanlarına (qurumlarına) təkliflər vermək;

21.2.8. yaradılması zamanı qarşısına qoyulan və nizamnaməsində qeyd edilən digər məqsədlərə nail olmaq üçün tədbirlər görmək.

### 6-cı fəsil
### NƏQLİYYAT-EKSPEDİSİYA MÜQAVİLƏSİ ÜZRƏ MƏSULİYYƏT

**Maddə 22. Məsuliyyətin ümumi əsasları**

22.1. Nəqliyyat-ekspedisiya müqaviləsində nəzərdə tutulan öhdəliklərinin yerinə yetirilməməsinə, yaxud lazımi qaydada yerinə yetirilməməsinə görə müştəri və ekspeditor bu Qanuna və Azərbaycan Respublikasının digər qanunlarına, habelə müqaviləyə uyğun olaraq müəyyən edilmiş qaydada məsuliyyət daşıyırlar.

22.2. Azərbaycan Respublikasının qanunları ilə müəyyən edilmiş hallar istisna olmaqla, məsuliyyətin məhdudlaşdırılması və ya tətbiq olunmaması haqqında ekspeditorla müştəri arasındakı razılaşma etibarsızdır.

22.3. Bu Qanunun 23.4-cü, 25.2-ci, 26.2-ci və 26.3-cü maddələrində nəzərdə tutulmuş hallar istisna olmaqla, ekspeditor və ya müştəri nəqliyyat-ekspedisiya müqaviləsinin şərtlərini pozduqda həmin müqavilə üzrə öhdəliklərini icra etməli, habelə digər tərəfə vurduğu zərərin əvəzini ödəməlidir.

22.4. Nəqliyyat-ekspedisiya xidmətlərinin həyata keçirilməsində iştirak edən və ekspeditorun cəlb etdiyi üçüncü şəxs tərəfindən müştəriyə vurulan zərərə görə ekspeditor məsuliyyət daşıyır. Vurulan zərəri ödədikdən sonra ekspeditor həmin üçüncü şəxsə qarşı Azərbaycan Respublikasının Mülki Məcəlləsinə və Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsinə uyğun olaraq iddia qaldıra (reqres tələbi irəli sürə) bilər.

**Maddə 23. Yükün itirilməsinə (məhv olmasına), əskik çıxmasına və ya zədələnməsinə (xarab olmasına) görə ekspeditorun müştəri qarşısında məsuliyyətinin əsasları və dərəcəsi**

23.1. Ekspeditor özü və ya səlahiyyətli nümayəndəsi tərəfindən yükü qəbul etdikdən sonra nəqliyyat-ekspedisiya müqaviləsində göstərilən yükalana və ya onun səlahiyyətli nümayəndəsinə çatdıranadək həmin yükün itirilməsinə (məhv olmasına), əskik çıxmasına və ya zədələnməsinə (xarab olmasına) görə müştəri qarşısında Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 859-cu maddəsinə uyğun olaraq məsuliyyət daşıyır, bu şərtlə ki, yükün itirilməsinin (məhv olmasının), əskik çıxmasının və ya zədələnməsinin (xarab olmasının) ondan asılı olmayan hallar nəticəsində, eləcə də qarşısıalınmaz qüvvə səbəbindən baş verdiyini sübut etməsin.

23.2. Ekspeditor müştəri qarşısında aşağıdakı hədlərdə məsuliyyət daşıyır:

23.2.1. müştəri tərəfindən elan edilmiş dəyər əsasında ekspeditor tərəfindən daşınmaq üçün qəbul edilmiş yükün itirilməsinə, məhv olmasına və əskik çıxmasına görə - yükün və ya əskik çıxan hissəsinin elan edilmiş dəyəri nisbətində;

23.2.2. elan edilməmiş dəyər əsasında ekspeditor tərəfindən daşınmaq üçün qəbul edilmiş yükün itirilməsinə, məhv olmasına və əskik çıxmasına görə - yükün və ya əskik çıxan hissəsinin faktiki dəyəri nisbətində;

23.2.3. müştəri tərəfindən elan edilmiş dəyər əsasında ekspeditor tərəfindən daşınmaq üçün qəbul edilmiş yükün zədələnməsinə (xarab olmasına) görə - yükün elan edilmiş dəyərinin azaldığı məbləğdə və ya zədələnmiş (xarab olmuş) yükü bərpa etmək mümkün olmadıqda elan edilmiş dəyəri nisbətində;

23.2.4. elan edilməmiş dəyər əsasında ekspeditor tərəfindən daşınmaq üçün qəbul edilmiş yükün zədələnməsinə (xarab olmasına) görə - yükün faktiki dəyərinin azaldığı məbləğdə və ya zədələnmiş (xarab olmuş) yükü bərpa etmək mümkün olmadıqda faktiki dəyəri nisbətində.

23.3. Yükün elan edilmiş dəyəri nəqliyyat-ekspedisiya müqaviləsində və ya ekspeditorun qeydində göstərilən qiymətə əsasən müəyyən edilir. Yükün faktiki dəyəri isə onun bazar qiymətinə, bu mümkün olmadıqda isə analoji malların mövcud bazar qiymətinə əsasən müəyyən edilir.

23.4. Ekspeditor yükün itirilməsi (məhv olması), əskik çıxması və ya zədələnməsi (xarab olması) nəticəsində müştəriyə dəymiş zərərin və müştərinin əldən çıxmış gəlirlərinin əvəzini ödəməklə yanaşı, müştəri tərəfindən nəqliyyat-ekspedisiya müqaviləsinə əsasən ödənilən muzdu müştəriyə geri qaytarır.

23.5. Daşıyıcı tərəfindən yük daşımağa qəbul edildikdən sonra 3 (üç) ay ərzində çatdırılmadıqda və ya nəqliyyat-ekspedisiya müqaviləsi ilə müəyyən edilmiş çatdırılma müddətinin bitdiyi tarixdən 30 (otuz) gün sonra yükalana təhvil verilmədikdə əksi sübut edilənədək yük itirilmiş hesab olunur. Təyinat yerinə çatdırılan, lakin muzdun ödənilməməsi səbəbindən nəqliyyat-ekspedisiya müqaviləsində göstərilən yükalana və ya onun səlahiyyətli nümayəndəsinə təhvil verilməyən yük itirilmiş hesab olunmur, bu şərtlə ki, ekspeditor nəqliyyat-ekspedisiya xidmətlərinin göstərilməsi barədə müştəriyə dərhal yazılı və ya elektron formada məlumat versin.

23.6. Nəqliyyat-ekspedisiya müqaviləsində başqa hal nəzərdə tutulmadıqda ekspeditor yükü qəbul etdikdən sonra müştəri (yükalan) qarşısında yükün qablaşdırılmasının mövcud olmamasına, habelə yükün çəkisinin və sayının təkrar yoxlanılması nəticəsində əskik çıxmasına, yükün zahirən görünən qüsurlarının olmasına görə məsuliyyət daşıyır. Müştəri daşınma üçün hazırladığı və qablaşdırdığı yükün zahirən görünməyən qüsurları üçün, habelə qiymətli əşyaların, tez xarab olan və ya təhlükəli yüklərin, həmçinin xüsusi mühafizə tələb edən yüklərin bəyan edilməməsinə görə ekspeditor (yükalan) qarşısında cavabdehdir.

**Maddə 24. Yükün itirilməsi (məhv olması), əskik çıxması və ya zədələnməsi (xarab olması) barədə bildiriş**

24.1. Yükün təhvil verilməsi zamanı nəqliyyat-ekspedisiya müqaviləsində göstərilən yükalan və ya onun səlahiyyətli nümayəndəsi yükün itirilməsi (məhv olması), əskik çıxması və ya zədələnməsi (xarab olması) barədə ekspeditora yazılı şəkildə (kağız daşıyıcıda və ya elektron sənəd formasında) bildiriş təqdim etmədiyi və həmin bildirişdə yükün əskik çıxmasının və ya zədələnməsinin (xarab olmasının) ümumi səbəbini göstərmədiyi halda, bu Qanunun 24.2-ci maddəsində qeyd edilən hal istisna olmaqla, yük tam şəkildə və zədələnməmiş (xarab olmamış) formada qəbul edilmiş hesab olunur.

24.2. Yükün itirilməsi (məhv olması), əskik çıxması və ya zədələnməsi (xarab olması) nəqliyyat-ekspedisiya müqaviləsində göstərilən yükalan və ya onun səlahiyyətli nümayəndəsi tərəfindən qəbul edildikdən sonra aşkar edildikdə, bu Qanunun 24.1-ci maddəsində qeyd edilən bildiriş yük qəbul edildikdən sonra 30 (otuz) gün ərzində ekspeditora təqdim edilir. Bildirişin verilmə tarixi ekspeditorun bu bildirişi aldığı gün hesab olunur.

**Maddə 25. Nəqliyyat-ekspedisiya müqaviləsi üzrə öhdəliklərin yerinə yetirilmə müddətinin pozulmasına görə ekspeditorun məsuliyyətinin əsasları və dərəcəsi**

25.1. Ekspeditor müqavilənin pozulmasının qarşısıalınmaz qüvvənin, müştərinin və ya müştərinin cəlb etdiyi üçüncü şəxslərin, o cümlədən ekspeditorun müqavilənin icrasına cəlb etmədiyi şəxslərin təqsiri səbəbindən baş verdiyini sübut edə bilmədikdə müqavilə üzrə öhdəliklərin yerinə yetirilmə müddətinin pozulmasına görə müştəriyə dəymiş zərərin əvəzini ödəyir.

25.2. Bu Qanunun 25.1-ci maddəsində qeyd edilən halda ekspeditor hər gecikdirilmiş gün (başa çatmayan günlər tam gün hesab olunur) və ya saat (müddət saatlarla göstərilirsə) üçün ona ödəniləcək muzdun 3 (üç) faizi miqdarında, lakin muzdun 80 (səksən) faizindən çox olmamaq şərtilə dəbbə pulu (peniya) ödəyir.

25.3. Ekspeditor müştərinin yüklərinin mülkiyyət, icarə və ya istifadəsində olan nəqliyyat vasitələri ilə daşınmasını faktiki olaraq həyata keçirdikdə daşıyıcı kimi məsuliyyət daşıyır.

**Maddə 26. Müştərinin ekspeditor qarşısında məsuliyyətinin əsasları və dərəcəsi**

26.1. Müştərinin nəqliyyat-ekspedisiya müqaviləsi ilə müəyyən edilmiş öhdəliklərin yerinə yetirilməsi zamanı yaranan xərcləri ödəməkdən əsassız olaraq imtina etdiyi sübut edildikdə, müştəri ekspeditora qeyd edilən xərclərlə yanaşı, həmin xərclərin 10 (on) faizi həcmində dəbbə pulu (cərimə) ödəyir.

26.2. Müştəri ekspeditora nəqliyyat-ekspedisiya müqaviləsi ilə müəyyən edilmiş muzdun vaxtında ödənilməməsinə görə hər gecikdirilmiş gün (başa çatmayan günlər tam gün hesab olunur) və ya saat (müddət saatlarla göstərilirsə) üçün həmin muzdun 3 (üç) faizi həcmində, lakin muzdun 80 (səksən) faizindən çox olmamaq şərtilə dəbbə pulu (peniya) ödəyir.

26.3. Müqavilənin pozulması qarşısıalınmaz qüvvənin və ya ekspeditorun təqsiri səbəbindən baş verdiyi halda müştəri ekspeditora dəymiş zərərin ödənilməsindən azad olunur.

### 7-ci fəsil
### NƏQLİYYAT-EKSPEDİSİYA FƏALİYYƏTİ HƏYATA KEÇİRİLƏRKƏN TƏQDİM OLUNAN PRETENZİYA VƏ İDDİA MÜDDƏTİ

**Maddə 27. Pretenziyanın verilmə qaydası**

27.1. Ekspeditora qarşı iddia qaldırılmazdan əvvəl ona yazılı formada pretenziya verilməsi (ekspeditor xidmətlərinin şəxsi, ailə, məişət və sahibkarlıq fəaliyyəti ilə bağlı olmayan digər tələbatların ödənilməsi üçün göstərilməsi zamanı iddianın qaldırılması istisna olmaqla) məcburidir.

27.2. Müştəri, nəqliyyat-ekspedisiya müqaviləsində göstərilən yükalan, habelə subroqasiya hüququ əsasında sığortaçı və ya onların səlahiyyətli nümayəndələri ekspeditora qarşı pretenziya vermək hüququna malikdir.

27.3. Pretenziya yazılı formada (kağız daşıyıcıda və ya elektron sənəd formasında) pretenziya vermək hüququnu təsdiq edən sənədlərlə (müqavilə, etibarnamə, yük-nəqliyyat sənədləri, o cümlədən yükün miqdarını və dəyərini təsdiqləyən sənədlər) birlikdə təqdim edilir. Pretenziya bu Qanunun 28.1-ci maddəsində qeyd olunan iddia müddəti ərzində verilə bilər. Göstərilən müddət aşağıdakılara əsasən hesablanır:

27.3.1. yükün itirilməsi (məhv olması), əskik çıxması və ya zədələnməsi (xarab olması) nəticəsində müştəriyə dəymiş zərərin əvəzinin ödənilməsi ilə bağlı - yükün təhvil verildiyi gündən sonrakı gündən etibarən;

27.3.2. nəqliyyat-ekspedisiya müqaviləsi ilə müəyyən edilmiş öhdəliklərin icra edilməsi müddətinin pozulması nəticəsində müştəriyə dəymiş zərərin əvəzinin ödənilməsi ilə bağlı - müqavilənin müddətinin başa çatdığı gündən sonrakı gündən etibarən;

27.3.3. nəqliyyat-ekspedisiya müqaviləsi ilə müəyyən edilmiş digər öhdəliklərin icra edilməməsi ilə bağlı bu Qanunun 27.2-ci maddəsində göstərilən şəxslərin bu cür pozuntular barədə bildiyi və ya bilməli olduğu gündən etibarən.

27.4. Pretenziyaya bu Qanunun 27.3-cü maddəsində nəzərdə tutulmuş sənədlər əlavə olunmadıqda ekspeditorun pretenziyanı aldıqdan sonra 2 (iki) həftə ərzində onu baxılmadan geri qaytarmaq hüququ vardır. Bu zaman bu Qanunun 27.3-cü maddəsində nəzərdə tutulmuş sənədlər əlavə edilməklə, ekspeditora qarşı təkrar pretenziya verilə bilər. Ekspeditor göstərilən müddət ərzində pretenziyanı geri qaytarmadıqda, pretenziya baxılmaq üçün qəbul olunmuş hesab edilir.

27.5. Ekspeditor pretenziyaya daxil olduğu tarixdən 1 (bir) ay ərzində baxmalı və pretenziya verənə pretenziyanın qəbul və ya rədd edildiyi barədə yazılı formada (kağız daşıyıcıda və ya elektron sənəd formasında) məlumat verməlidir.

27.6. Ekspeditor ona qarşı olan pretenziyanı qismən qəbul və ya rədd etdikdə, pretenziya verənə qəbul olunmuş qərarın əsaslarını təqdim etməlidir. Bu halda pretenziya ilə birlikdə təqdim edilən sənədlər pretenziya verənə qaytarılır.

27.7. Pretenziya ekspeditor tərəfindən qismən qəbul edildikdə və ya rədd edildikdə, habelə pretenziyaya 1 (bir) ay ərzində cavab alınmadıqda ekspeditora qarşı məhkəmədə iddia qaldırıla bilər.

27.8. Ekspeditor pretenziyanın bu Qanunun 27.3-cü maddəsi ilə müəyyən edilən müddətin üzrlü səbəblərdən ötürülməsi qənaətinə gəldikdə həmin pretenziyanı baxılması üçün qəbul etmək hüququna malikdir.

27.9. Pretenziya vermək hüququnun müştəri tərəfindən yükalana və ya əksinə, habelə yükalan və ya müştəri tərəfindən ekspeditora, yaxud sığortaçıya verilmə halları istisna olmaqla, digər şəxslərə verilməsinə yol verilmir. Pretenziya vermək hüququnun başqasına verilməsi yol-nəqliyyat sənədlərində müvafiq qeydin olması ilə təsdiqlənir.

**Maddə 28. İddia müddəti**

28.1. Nəqliyyat-ekspedisiya müqaviləsindən irəli gələn tələblər üzrə iddia müddəti 1 (bir) il təşkil edir. İddia müddəti ekspeditora və ya müştəriyə qarşı iddia qaldırmaq hüququ yarandığı andan (müştərinin və ya ekspeditorun hüquqlarının pozulduğunu bildiyi və ya bilməli olduğu andan) hesablanır.

28.2. İddia müddətinin axımı Azərbaycan Respublikası Mülki Məcəlləsinin 379.4-2-ci maddəsində qeyd edilən hallarda və müddətdə dayandırılır.

### 8-ci fəsil
### YEKUN MÜDDƏALAR

**Maddə 29. Nəqliyyat-ekspedisiya sahəsində beynəlxalq əməkdaşlıq**

Nəqliyyat-ekspedisiya fəaliyyəti sahəsində beynəlxalq əməkdaşlıq Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr əsasında həyata keçirilir.

**Maddə 30. Nəqliyyat-ekspedisiya fəaliyyətinin sığortası**

Ekspeditor nəqliyyat-ekspedisiya müqaviləsi ilə müəyyən edilən yüklərin, nəqliyyat vasitələrinin, risklərin sığortalanmasını və vurulan zərərə görə mülki məsuliyyətin sığortalanmasını Azərbaycan Respublikasının normativ hüquqi aktları ilə müəyyən edilmiş qaydada həyata keçirir.

**Maddə 31. Bu Qanunun pozulmasına görə məsuliyyət**

Bu Qanunun tələblərini pozan şəxslər qanunla müəyyən edilmiş hallarda məsuliyyət daşıyırlar.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 16 dekabr 2025-ci il*

## "Nəqliyyat-ekspedisiya fəaliyyəti haqqında" Azərbaycan Respublikasının 2025-ci il 16 dekabr tarixli 311-VIIQ nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 24 iyun tarixli 609 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında idxal-ixrac əməliyyatlarının tənzimlənməsi Qaydaları"nda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Nəqliyyat-ekspedisiya fəaliyyəti haqqında" Azərbaycan Respublikasının 2025-ci il 16 dekabr tarixli 311-VIIQ nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 24 iyun tarixli 609 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 3, maddə 175 (Cild I);2024, № 6 (I kitab), maddə 647, № 9, maddə 1001) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında idxal-ixrac əməliyyatlarının tənzimlənməsi Qaydaları"nın 2 nömrəli əlavəsinin - "İxracı və idxalı müvafiq dövlət orqanlarının rəyi alınmaqla aparılan spesifik malların (xidmətlərin və əqli mülkiyyətin) Siyahısı"nın "İdxal" hissəsinin altıncı abzası ləğv edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti və Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi "Nəqliyyat-ekspedisiya fəaliyyəti haqqında" Azərbaycan Respublikasının 2025-ci il 16 dekabr tarixli 311-VIIQ nömrəli Qanunundan irəli gələn məsələləri həll etsinlər.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 15 yanvar 2026-cı il*

# "Məhkəmələr və hakimlər haqqında" və "Məhkəmə-Hüquq Şurası haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 5-ci bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, № 5, maddə 413 (Cild I); 2024, № 5 (I kitab), maddə 486, № 12 (II kitab), maddə 1329; 2025, № 6, maddə 529) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 90-cı maddənin ikinci hissəsi və 92-ci maddənin üçüncü hissəsi ləğv edilsin;

1.2. aşağıdakı məzmunda 92-1-ci maddə əlavə edilsin:

"Maddə 92-1. **Hakimin xidməti vəsiqəsi**

Hakimə nümunəsi Məhkəmə-Hüquq Şurası tərəfindən təsdiq edilən xidməti vəsiqə verilir. Hakimə xidməti vəsiqə Məhkəmə-Hüquq Şurasının sədri tərəfindən təqdim edilir. Hakimin xidməti vəsiqəsi onun statusunu və vəzifəsini təsdiq edən sənəddir.

Hakim səlahiyyət müddəti ərzində xidməti vəsiqədən istifadə edir. Hakimin soyadı, adı, atasının adı, vəzifəsi dəyişdikdə və ya xidməti vəsiqənin etibarlılıq müddəti qurtardıqda, habelə xidməti vəsiqə itirildikdə və ya yararsız hala düşdükdə ona yeni xidməti vəsiqə verilir.

Hakimin səlahiyyətlərinə xitam verildikdə xidməti vəsiqə Məhkəmə-Hüquq Şurasına qaytarılır.".

**Maddə 2.** "Məhkəmə-Hüquq Şurası haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 1, maddə 8 (Cild I); 2024, № 12 (II kitab), maddə 1329; 2025, № 4 (I kitab), maddə 308) 11.0.10-1-ci maddəsi aşağıdakı redaksiyada verilsin:

"11.0.10-1. hakimin xidməti vəsiqəsinin nümunəsini təsdiq edir;".

**Maddə 3.** Bu Qanun qüvvəyə mindiyi gündən "Hakimlərin xidməti vəsiqəsi haqqında" Azərbaycan Respublikasının Qanunu (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 7, maddə 403 (Cild I) ləğv edilir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 23 dekabr 2025-ci il*

# "Məhkəmələr və hakimlər haqqında" və "Məhkəmə-Hüquq Şurası haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 23 dekabr tarixli 323-VIIQD nömrəli Qanununun tətbiqi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Məhkəmələr və hakimlər haqqında" və "Məhkəmə-Hüquq Şurası haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 23 dekabr tarixli 323-VIIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. "Hakimlərin xidməti vəsiqəsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 27 iyul tarixli 167 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 7, maddə 429 (Cild I) ləğv edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti "Məhkəmələr və hakimlər haqqında" və "Məhkəmə-Hüquq Şurası haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 23 dekabr tarixli 323-VIIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

3. Məhkəmə-Hüquq Şurasına tövsiyə edilsin ki, "Məhkəmələr və hakimlər haqqında" və "Məhkəmə-Hüquq Şurası haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 23 dekabr tarixli 323-VIIQD nömrəli Qanunundan irəli gələn məsələlərin həlli üçün zəruri tədbirlər görsün.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 15 yanvar 2026-cı il*

# "Ümumi təhsil haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci bəndini rəhbər tutaraq **qərara alır:**

"Ümumi təhsil haqqında" Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 5, maddə 789 (Cild I); 2024, № 1, maddə 3) aşağıdakı məzmunda 27.4-cü maddə əlavə edilsin:

"27.4. Dövlət ümumi təhsil müəssisələrinə müəllimlərin işə qəbulu və yerdəyişməsi müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müəyyən etdiyi qaydada müsabiqə yolu ilə həyata keçirilir. Müəllimlərin işə qəbulu ilə bağlı müsabiqədə iştirak (ilk dəfə müsabiqədə iştirak edənlər, əlilliyi olan şəxslər, ünvanlı dövlət sosial yardımı alan ailələrin üzvləri, şəhid ailəsinin üzvləri və Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda döyüş əməliyyatlarında iştirak etdiyinə görə "Müharibə veteranı" adı almış şəxslər istisna olmaqla) ödənişlidir. Müəllimlərin işə qəbulu ilə bağlı müsabiqədə iştirak etmək üçün ödənişin məbləği müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 23 dekabr 2025-ci il*

# "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci bəndini rəhbər tutaraq **qərara alır:**

"İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 6, maddə 364 (Cild I); 2024, № 1, maddə 18, № 7, maddə 769; 2025, № 7, maddə 626) aşağıdakı məzmunda 13-2.3.6-1-ci maddə əlavə edilsin:

"13-2.3.6-1. kütləvi nümayiş etdirildiyi halda ictimai mənəviyyatı təhqir edən, cəmiyyətə açıqca hörmətsizlik ifadə edən hərəkətlərin edilməsinə, yəni əxlaqsız ifadələrin səsləndirilməsinə və ya belə məzmun təəssüratı yaradan jestlərin edilməsinə, yaxud insan bədəninin hissələrinin əxlaq normalarına və milli-mənəvi dəyərlərə zidd formada göstərilməsinə dair məlumatlar;".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 dekabr 2025-ci il*

# Azərbaycan Respublikasının Mülki Məcəlləsində, Azərbaycan Respublikasının Ticarət Gəmiçiliyi Məcəlləsində, "Nəqliyyat haqqında" və "Avtomobil nəqliyyatı haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci, 10-cu, 13-cü və 23-cü bəndlərini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikasının Mülki Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 4 (I kitab), maddə 250 (Cild I); 2024, № 2, maddə 138, № 4, maddə 365, № 5 (I kitab), maddə 493, № 7, maddə 744, № 12 (I kitab), maddə 1281; 2025, №1, maddə 17, № 3, maddə 216, № 4 (I kitab), maddələr 315, 318, № 6, maddələr 523, 524, 536, № 7, maddələr 610, 626, № 8, maddələr 738, 741, 743, 744; Azərbaycan Respublikasının 2025-ci il 10 oktyabr tarixli 265-VIIQD-nömrəli Qanunu) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 379-cu maddə üzrə:

1.1.1. 379.1.6-cı maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 379.1.7-ci maddə əlavə edilsin:

"379.1.7. ekspeditora qarşı nəqliyyat-ekspedisiya müqaviləsinin icrasından yaranan pretenziya verildikdə.";

1.1.2. aşağıdakı məzmunda 379.4-2-ci maddə əlavə edilsin:

"379.4-2. Ekspeditora qarşı nəqliyyat-ekspedisiya müqaviləsinin icrasından yaranan pretenziyanın verilməsi ilə əlaqədar iddia müddətinin axımı həmin pretenziyanın ekspeditora verildiyi gündən etibarən pretenziyaya cavab alınanadək və ya cavab üçün müəyyən edilmiş müddət bitənədək dayandırılır.";

1.2. 851-ci maddə aşağıdakı redaksiyada verilsin:

**"Maddə 851. Yük göndərən, yük alan və daşıyıcı**

851.1. Yük göndərən daşımanın təşəbbüsçüsü olan və adından yük göndərilməsi rəsmiləşdirilən fiziki və ya hüquqi şəxsdir. Yük göndərən həm yükün daşımadan əvvəl olduğu şəxs, həm də yükün göndərildiyi şəxs (yük alan) ola bilər. Yük alan əqd əsasında yüklərin alınmasına səlahiyyətli fiziki və ya hüquqi şəxsdir. Daşıyıcı yük daşınması müqaviləsi əsasında və haqq müqabilində baqaj, yük və ya poçt daşımalarını yerinə yetirən, mülkiyyət, icarə və ya istifadə hüququ ilə nəqliyyat vasitələrinə malik olan hüquqi şəxs və ya fərdi sahibkardır.

851.2. Daşıyıcılar yükün daşınması ilə bağlı sifarişlər daxil olduqda həmin sifarişlərin normativ hüquqi aktlara və daşıyıcıların müəyyən etdiyi tələblərə zidd olmaması şərtilə yük daşınması müqaviləsini bağlayırlar. Həmin müqavilənin imzalanmasına sifarişlərin daxil olduğu gündən etibarən ən geci 5 (beş) iş günü ərzində, tez xarab olan yüklərə münasibətdə isə 2 (iki) iş günü ərzində razılıq verilməli, eləcə də müqavilə imzalandıqdan sonra yük göndərənin müəyyən etdiyi yerdə və tarixdə daşınmanın həyata keçirilməsinə başlanılmalıdır.";

1.3. 852-ci maddə üzrə:

1.3.1. 852.1-ci maddə aşağıdakı redaksiyada verilsin:

"852.1. Ekspeditor nəqliyyat-ekspedisiya müqaviləsi əsasında müəyyənləşdirilən nəqliyyat-ekspedisiya xidmətlərini müştərinin tapşırığı və vəsaiti hesabına göstərən və ya üçüncü şəxslər vasitəsilə göstərilməsini təşkil edən hüquqi şəxs və ya fərdi sahibkardır.";

1.3.2. 852.2-ci maddəyə "göndərənin" sözündən sonra "və ya yük alanın" sözləri əlavə edilsin;

1.3.3. 852.3-cü maddənin birinci və beşinci cümlələrində "göstərişlərinə" sözü "tapşırıqlarına" sözü ilə əvəz edilsin;

1.3.4. 852.4-cü maddə aşağıdakı redaksiyada verilsin:

"852.4. Ekspeditorun öz xidmətləri üçün muzd almaq və yük göndərən üçün çəkdiyi xərclərin əvəzinin ödənilməsini tələb etmək hüququ vardır.";

1.3.5. 852.5-ci maddənin birinci cümləsi aşağıdakı redaksiyada verilsin:

"Nəqliyyat-ekspedisiya fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun 18.1.10-cu maddəsində qeyd edilən hal istisna olmaqla, ekspeditor yük göndərənin tapşırıqlarından bütün kənaraçıxmalar üçün onun qarşısında məsuliyyət daşıyır.";

1.3.6. aşağıdakı məzmunda 852.6-cı maddə əlavə edilsin:

"852.6. Nəqliyyat-ekspedisiya xidmətlərinin göstərilməsi ilə bağlı münasibətlər bu Məcəllənin, Azərbaycan Respublikası Ticarət Gəmiçiliyi Məcəlləsinin, "Nəqliyyat haqqında", "Nəqliyyat-ekspedisiya fəaliyyəti haqqında" Azərbaycan Respublikası qanunlarının və bu sahədə Azərbaycan Respublikasının digər normativ hüquqi aktlarının tələblərinə uyğun olaraq tənzimlənir.";

1.4. 859-cu maddə üzrə:

1.4.1. 859.1-ci maddə aşağıdakı redaksiyada verilsin:

"859.1. Yükün itirildiyi, məhv olduğu, əskik çıxdığı və ya zədələndiyi (xarab olduğu), eləcə də bu Məcəllənin 851.2-ci maddəsinin tələblərini pozduğu halda daşıyıcı dəymiş zərərin və müştərinin əldən çıxmış gəlirlərinin tam dəyərini ödəyir, eləcə də daşıma haqqını qaytarır. Əgər yükdaşıyıcı tərəfindən daşımaya qəbul edildikdən sonra üç ay ərzində çatdırılmazsa, eləcə də müqavilə ilə müəyyən edilmiş çatdırılma müddətinin bitdiyi tarixdən 30 (otuz) gün sonra yük alana təhvil verilməzsə, əksi sübut edilənədək yük itirilmiş sayılır.";

1.4.2.859.3-cü maddənin birinci abzası aşağıdakı redaksiyada verilsin:

"859.3. Əgər daşıyıcı yükün itirilməsinin, məhvinin,əskik çıxmasının və ya zədələnməsinin (xarab olmasının), habelə bu Məcəllənin 851.2-ci maddəsinin tələblərinin pozulmasının aşağıdakılar nəticəsində baş verdiyini sübuta yetirərsə, bu Məcəllənin 859.1-859.2-ci maddələrində nəzərdə tutulan məsuliyyət tətbiq edilmir:";

1.5. 861-ci maddə üzrə:

1.5.1.861.1-ci maddənin birinci cümləsinə birinci halda "gündən" sözündən sonra ", bu Məcəllənin 851.2-ci maddəsində qeyd edilən yük daşınması müqaviləsi bağlanılmadığı halda həmin müqavilənin bağlanılmalı olduğu sonuncu gündən" sözləri əlavə edilsin;

1.5.2.861.2-ci maddə aşağıdakı redaksiyada verilsin:

"861.2. Nəqliyyat-ekspedisiya xidmətləri ilə əlaqədar ekspeditora qarşı yaranan tələblər üzrə pretenziya verilməsi və iddia qaldırılması "Nəqliyyat-ekspedisiya fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun 27-ci və 28-ci maddələrinə uyğun həyata keçirilir.".

**Maddə 2.** Azərbaycan Respublikasının Ticarət Gəmiçiliyi Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 7, maddə 444 (Cild I); 2024, № 2, maddə 134, № 4, maddə 365; 2025, № 1, maddə 1)aşağıdakı dəyişikliklər edilsin:

2.1. aşağıdakı məzmunda 3-1-ci maddə əlavə edilsin:

**"Maddə 3-1. Ticarət gəmiçiliyi sahəsində nəqliyyat-ekspedisiya xidmətləri**

Ticarət gəmiçiliyi sahəsində nəqliyyat-ekspedisiya xidmətlərinin göstərilməsi ilə bağlı münasibətlər bu Məcəllənin, Azərbaycan Respublikası Mülki Məcəlləsinin, "Nəqliyyat haqqında" və "Nəqliyyat-ekspedisiya fəaliyyəti haqqında" Azərbaycan Respublikası qanunlarının tələblərinə uyğun olaraq tənzimlənir.";

2.2. 87.6-1-ci maddə aşağıdakı redaksiyada verilsin:

"87.6-1. Ekspeditor nəqliyyat-ekspedisiya müqaviləsi əsasında müəyyənləşdirilən nəqliyyat-ekspedisiya xidmətlərini müştərinin tapşırığı və vəsaiti hesabına göstərən və ya üçüncü şəxslər vasitəsilə göstərilməsini təşkil edən hüquqi şəxs və ya fərdi sahibkardır.";

2.3. 313.4-cü maddə aşağıdakı redaksiyada verilsin:

"313.4. Ekspeditora qarşı iddia qaldırılmazdan əvvəl ona yazılı formada pretenziya verilməsi (ekspeditor xidmətlərinin şəxsi, ailə, məişət və sahibkarlıq fəaliyyəti ilə bağlı olmayan digər tələbatların ödənilməsi üçün göstərilməsi zamanı iddianın qaldırılması istisna olmaqla) məcburidir.";

2.4. 314.2-ci maddəyə "verilməsi" sözündən sonra "yük-nəqliyyat sənədində," sözləri əlavə edilsin;

2.5. 317.1-ci maddəyə "yazılı" sözündən sonra "(kağız daşıyıcıda və ya elektron sənəd formasında)" sözləri əlavə edilsin.

**Maddə 3.** "Nəqliyyat haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 7, maddə 399 (Cild I); 2025, № 4 (I kitab), maddə 319, № 6, maddə 524) aşağıdakı dəyişikliklər edilsin:

3.1. 9-cu maddəyə aşağıdakı məzmunda 4-cü hissə əlavə edilsin:

"4. Nəqliyyat sahəsində nəqliyyat-ekspedisiya xidmətlərinin göstərilməsi ilə bağlı münasibətlər bu Qanunun, Azərbaycan Respublikası Mülki Məcəlləsinin, Azərbaycan Respublikası Ticarət Gəmiçiliyi Məcəlləsinin və "Nəqliyyat-ekspedisiya fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq tənzimlənir.";

3.2. 19-cu maddənin 3-cü hissəsində "iddia qaldırılması Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 861.2-ci maddəsinə" sözləri "pretenziya və iddia qaldırılması "Nəqliyyat-ekspedisiya fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun 27-ci və 28-ci maddələrinə" sözləri ilə əvəz edilsin.

**Maddə 4.** "Avtomobil nəqliyyatı haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 7, maddə 599 (Cild I); 2024, № 8, maddə 932; Azərbaycan Respublikasının 2025-ci il 31 oktyabr tarixli 280-VIIQD nömrəli Qanunu) 2-ci maddəsinin mətni 2.1-ci maddə hesab edilsin və aşağıdakı məzmunda 2.2-ci maddə əlavə edilsin:

"2.2. Avtomobil nəqliyyatı sahəsində nəqliyyat-ekspedisiya xidmətlərinin göstərilməsi ilə bağlı münasibətlər Azərbaycan Respublikası Mülki Məcəlləsinin, "Nəqliyyat haqqında" və "Nəqliyyat-ekspedisiya fəaliyyəti haqqında" Azərbaycan Respublikası qanunlarının tələblərinə uyğun olaraq tənzimlənir.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 16 dekabr 2025-ci il*

# "Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin strukturunun təkmilləşdirilməsi və Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 13 oktyabr tarixli 1465 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin tabeliyində olan qurumların siyahısı"nda dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 11 iyul tarixli 435 nömrəli Fərmanının icrası ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin strukturunun təkmilləşdirilməsi və Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 13 oktyabr tarixli 1465 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin tabeliyində olan qurumların siyahısı"nda dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 11 iyul tarixli 435 nömrəli Fərmanının icrası ilə əlaqədar **qərara alıram:**

1. "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 12 fevral tarixli 29 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 2, maddə 67 (Cild I) 2-ci hissəsinin ikinci abzasından "Respublika" və "qəzeti" sözləri çıxarılsın.

2. "Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 16 fevral tarixli 384 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 2, maddə 88 (Cild I) 6.1-ci və 6.3-cü bəndlərindən "qəzeti" sözü çıxarılsın.

3. "Valyuta tənzimi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2017-ci il 25 aprel tarixli 649-VQD nömrəli Qanununun tətbiqi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 18 may tarixli 1415 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 5, maddə 819 (Cild I) 2.4-cü bəndindən "qəzeti" sözü çıxarılsın.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 15 yanvar 2026-cı il*

# "Yeni növ koronavirus (COVID-19) infeksiyası ilə mübarizə tədbirlərində iştirak edən tibb işçilərinin əməkhaqlarına müddətli əlavənin müəyyən edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 25 mart tarixli 112 nömrəli Qərarında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 13** **Bakı şəhəri, 14 yanvar 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti qərara alır:

"Yeni növ koronavirus (COVID-19) infeksiyası ilə mübarizə tədbirlərində iştirak edən tibb işçilərinin əməkhaqlarına müddətli əlavənin müəyyən edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 25 mart tarixli 112 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 3, maddə 373 (Cild I); 2024, № 4, maddə 451, № 7, maddə 900, № 10, maddə 1169; 2025, № 2, maddə 182, № 4 (II kitab), maddə 412, № 7, maddə 721, № 10, maddə 983) 2-ci hissəsində "yanvarın" sözü "aprelin" sözü ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# İLHAM ƏLİYEVİN YARATDIĞI YENİ REALLIQLAR



Reallıq hamının gördüyü, bildiyi, yaşadığı gerçəkliyə deyilir.

Reallığı qəbul etməmək də mümkündür!

Amma bununla vəziyyət dəyişmir!

**Reallığın özünü dəyişmək isə müşkül məsələdir və hamıya nəsib olmur!**

**Reallığı yalnız qeyri-adi şəxsiyyətlər, qeyri-adi güclər dəyişə bilirlər!**

Bunu, əslində, "inqilabi dəyişiklik" kimi də qiymətləndirmək olar!

*Yeni reallığı, başqa sözlə, "dəyişdirilmiş reallığ"ı da hamı qəbul etməyə bilər!*

*Yeni, mövcud reallığı hər kəsə, üstəlik, "ziyan çəkən tərəf"ə qəbul etdirmək isə bir özgə bacarıq, bir özgə hünərdir!*

**Müzəffər Ali Baş Komandan İlham Əliyevin Azərbaycanda yaratdığı yeni reallıqlar məhz bu qəbildən olan, dəyişdirilən və hamının qəbul etdiyi reallıqlardır!**

❖ ❖ ❖

*"İkinci Qarabağ müharibəsindən beş il keçdiyini nəzərə alsaq, aydın şəkildə görürük ki, bütün dünya, beynəlxalq ictimaiyyət, o cümlədən aparıcı ölkələr və nüfuzlu beynəlxalq təşkilatlar yeni reallıqları qəbul edib. Beləliklə, biz yerindəcə reallıq yaratdıq".*

**Bu iqtibas Azərbaycan Prezidenti cənab İlham Əliyevin yaxınlarda yerli televiziya kanallarına verdiyi müsahibədəndir.**

Çox geniş spektivləri olan bu müsahibədə ölkəmizin dünəni, bu günü və sabahı ilə bağlı çoxsaylı məsələlərə toxunulmuş, ötən dövrdə görülən işlər, habelə qarşıda duran vəzifələr barədə geniş və maraqlı açıqlamalar verilmişdir.

Biz yalnız onların az bir qisminə toxunacağıq.

❖ ❖ ❖

Azərbaycan qədim tarixə malik olsa da, müstəqil dövlət kimi hələ gəncdir.

Tale bizə əsrlər boyu müstəmləkəçilik şəraitində yaşamağı qismət etmişdir.

Gözəl təbiətimiz, zəngin yeraltı və yerüstü sərvətlərimiz, geosiyasi mövqeyimiz daim çoxlarının ağzını sulandırmışdır.

İstər qədim dövrlərdə, istər Rusiya imperiyası və fars imperiyası dövründə, istərsə də Sovetlər İttifaqı dövründə mahiyyətcə müstəmləkə şəraitində olmuşuq.

Doğrudur, müstəqil olmaq, müstəqil fəaliyyət göstərmək istəyi heç zaman bizi tərk etməyib və imkan düşən kimi bu istiqamətdə addımlar atmışıq...

**28 may 1918-ci ildə bu istəyimizi ilk dəfə gerçəkləşdirə bildik.**

LAKİN...

*Cəmi 23 ay azad dövlət kimi yaşadıq!*

Şimaldan əsən qırmızı taun müstəqilliyimizə son qoydu, bundan sonra yetmiş il ərzində kommunizm xülyası altında, qırmızı imperiyanın tərkibində yaşamalı olduq.

Yeni bir imkan yaranan kimi, SSRİ-nin süqutundan istifadə edərək yenidən müstəqillik arzumuzu gerçəkləşdirməyə can atdıq.

*1991-ci ildə Dövlət Müstəqilliyi Haqqında Konstitusiya Aktını qəbul etdik!*

HEYHAT!

Tarix burada da bizə ciddi sınaqlar hazırlamışdı.

**Ulu Öndər Heydər Əliyev böyük siyasətdən müvəqqəti uzaqlaşdığından xalqımız əsl rəhbərsiz qalmışdı...**

Azərbaycana maymaqlar, qorxaqlar başçılıq etdiklərindən vaxtında gərəkli və qətiyyətli addımlar atılmırdı...

*Özlərini "demokrat", "azadlıq aşiqləri" adlandıran AXC-Müsavat cütlüyü isə naşılığı, səriştəsizliyi, bacarıqsızlığı, şəxsi mənafelərini xalqın maraqlarından üstün tutmalarına görə vəziyyəti daha da qəlizləşdirdilər, ölkəni xaos, anarxiya, qanunsuzluq və özbaşınalıq bataqlıqlarına sürüyərək məhvolma həddinə çatdırdılar.*

## BU REALLIQLARI BÜTÜN DÜNYA, ELƏCƏ DƏ ERMƏNİSTAN QƏBUL EDİR

"Köhnə məsələ"nin qabardılması, Qarabağ münaqişəsinə yenidən rəvac verilməsi nəticəsində vəziyyətdən yararlanan Ermənistan Rusiyaya arxalanaraq torpaqlarımızın işğalına başladı.

**Xalqın arzu və tələbi ilə Ulu Öndər Heydər Əliyev yenidən ölkə rəhbərliyinə qayıtmasaydı, Azərbaycan nəinki müstəqil dövlət olacaqdı, əksinə, keçmişdəki kimi xırda xanlıqlara parçalanacaqdı.**

*Ulu Öndər Heydər Əliyev müdrikliyi və uzaqgörənliyi sayəsində Azərbaycan dövlətini, onun müstəqilliyini də qoruyub saxlaya, yeni inkişaf yoluna çıxara bildi.*

Ömür bundan artığına imkan vermədi.

Xilaskarlıq missiyasını isə onun ən layiqli siyasi davamçısı cənab İlham Əliyev yerinə yetirməli oldu.

**Azərbaycan tarixinin İlham Əliyev dövrünün də özünəməxsus çətinlik və problemləri vardı.**

❖ ❖ ❖

*Azərbaycan Prezidenti İlham Əliyevin xarizmasından irəli gələn bir sıra xüsusiyyətlər hadisələrin sonrakı gedişatında Azərbaycanın öz üstünlüyünü qoruyub saxlamasına, daim diktə edən tərəf kimi çıxış etməsinə imkan yaradır.*

**Ulu Öndər Heydər Əliyev o dövrdə "Əsrin müqaviləsi"nin imzalanmasına nail olsa da, hələ ölkəyə neft gəlirləri daxil olmurdu.**

Həllini gözləyən problemlər isə çox idi...

Onların uğurla çözülməsi üçün ardıcıl və məqsədyönlü səylər göstərilməsi tələb edilirdi.

**İlham Əliyevin rəhbərliyi ilə regionların sosial-iqtisadi inkişafına dair dörd dövlət proqramı qəbul edilərək icrasına nail olundu:**

* Ölkəyə elektrik enerjisi verilməsində yaranan fasilələrə son qoyuldu;
* Regionların təbii qazla təmin olunması qaydaya salındı;
* 48-50 faiz səviyyəsində olan işsizlik və yoxsulluq 5-6 faizə endirildi;
* Məcburi köçkünlər üçün 116 müasir tipli qəsəbə salınaraq onların həyat şəraiti xeyli yaxşılaşdırıldı;
* Sahibkarlığın inkişafına münbit şərait yaradıldı;
* Ölkədə idman sürətlə inkişaf etdirilərək yeni vətənpərvər gənc nəsil tərbiyə edildi və onlardan müasir ordu quruculuğunda geniş istifadə olundu;
* Hücum diplomatiyasına keçirilərək beynəlxalq təşkilatlarda iş gücləndirildi;
* Azərbaycanın balanslı və müstəqil xarici siyasəti sayəsində dostlarının sayı xeyli artdı, beynəlxalq siyasi nüfuzu əhəmiyyətli dərəcədə yüksəldi.

Lakin baş problemimiz - Qarabağ münaqişəsi həll olunmamış qalırdı...

Bunun əsas səbəbkarı isə ATƏT-in Minsk qrupu idi.

❖ ❖ ❖

**Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli məqsədilə yaradılan ATƏT-in Minsk qrupu, əslində, boş və mənasız danışıqlarla vaxtı uzatmaqla məşğul olurdu.**

*Nə BMT, nə Avropa qurumları, nə də həmsədr dövlətlər məsələyə ciddi yanaşmır, əslində, ermənipərəst mövqe sərgiləməklə bizi işğala boyun əyməyə, onların təbirincə desək, "mövcud reallıqla barışmağa" sövq etməyə çalışırdılar.*

**İlham Əliyevin ən böyük uzaqgörənliyi onda oldu ki, sülh danışıqlarından geri çəkilmədi, ATƏT-in Minsk qrupunun "missiyası"ndan imtina etmədi!**

"Opponentlərindən" fərqli olaraq münaqişənin yalnız hərbi vasitələrlə həll olunacağını bilərək buna məxfi və ciddi hazırlıqlar görməyə başladı.

*Nəticədə XXI əsrin ən yeni müharibəsini aparacaq, yeni taktika və strategiya tətbiq edəcək, ən müasir silahlardan istifadə edərək ən qısa müddətdə qarşıya qoyulan vəzifəni yerinə yetirə biləcək möhtəşəm ordu yaratdı!*

Bu ordu dördgünlük Aprel müharibəsində uğurla sınaqdan çıxdı!

**Nəyi necə və nə vaxt etməyi yaxşı bilən Azərbaycan Prezidenti nə vaxt harada dayanmağı və hərbdən sülh danışıqlarına nə zaman keçməyi də müəyyənləşdirmək bacarığını nümayiş etdirdi:**

*"Biz həm 2020-ci ildə, həm 2023-cü ildə, həm də bu illər arasındakı olan hadisələr zamanı güc tətbiq edərək Ermənistana, yəni onlara layiq olan cavabı verə bilərdik. Necə ki bizim xalqımız əzab-əziyyət içində yaşayıb, necə ki bizim ərazilərimiz viran olunub, necə ki bizə qarşı hərbi cinayətlər törədilib, biz də onların şəhərlərini Ağdamın vəziyyətinə qoya bilərdik. Tam rahatlıqla və əminliklə deyə bilərəm ki, heç kim bizi dayandıra bilməzdi. Biz bunu etmədik. Çünki birincisi, bu, nahaq iş olardı. İkincisi, mən tam əmin idim və bilirdim ki, gec-tez müharibə, hərbi qarşıdurma dayanmalıdır və bunu biz dayandırmasaq, bu dayanmayacaq. Bunu güclü tərəf dayandırmalıydı".*

❖ ❖ ❖

**Ölkənin baş probleminin həlli - torpaqların işğaldan azad edilərək ərazi bütövlüyünün bərpası, dövlət suverenliyinin və konstitusiya əsaslarının təmini yeni reallıqların yaranması ilə nəticələndi.**

**Həm də bu reallığı bütün dünya, eləcə də Ermənistan qəbul etdi!**

*"Dəmir yumruğ"un, düşünülmüş, müdrik və uzaqgörən siyasətin nəticəsində yaranan yeni reallıqlar hansılardır?*

*Onların bir qismini birlikdə nəzərdən keçirək.*

Bu gün Azərbaycan-ABŞ münasibətləri ən yüksək səviyyəyə çatmışdır.

Ancaq Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi başlayarkən bizə qarşı ən böyük ədalətsizliyi və pisliyi də ABŞ etmişdir.

**Təcavüzə məruz qalan, torpaqları işğal edilən də Azərbaycan idi, ABŞ tərəfindən 907-ci düzəlişin hədəfinə çevrilən də.**

*ABŞ-dəki erməni diasporu tərəfindən ələ alınan, onun ianələrinin təsiri altında obyektivliyini və ədalət hissini itirənlər 907-ci düzəlişi təcavüzkara deyil, təcavüzə məruz qalana tətbiq etdilər.*

**Yerli televiziya kanallarına müsahibəsində İlham Əliyev həmin dövrdə baş verənlərə bir daha aydınlıq gətirdi:**

*"907-ci düzəliş 1992-ci ilin oktyabrında qəbul edildi. O vaxt bizim torpaqlarımız artıq işğal altında idi, Şuşa, Laçın işğal altında idi. Ermənistan dövləti tərəfindən Xocalı soyqırımı törədilmişdi, xalqımıza qarşı hərbi cinayət törədilmişdi və Azərbaycanın torpaqlarının işğal altında olması təbii ki, Ermənistanı blokadaya almaq imkanlarını da sıfra endirirdi. Yəni ki, hansı blokadadan söhbət gedə bilərdi?! Nəzərə alsaq ki, Ermənistanın Gürcüstanla, İranla sərhədləri açıq idi, hətta Türkiyə-Ermənistan sərhədi 1993-cü ildə bağlanmışdır. Ona görə hər hansı bir blokadadan söhbət gedə bilməzdi. Ancaq erməni lobbisi və onun əhatə dairəsində olan senator və konqresmenlər belə bir ədalətsiz düzəlişi qəbul etdilər.*

*Onu da deməliyəm ki, onların bir çoxu artıq həyatda deyil, amma həyatda olanlar arasında çox maraqlı adlar da var. Onları siz tapa bilərsiniz, amma bir ad çəkməklə kifayətlənəcəyəm, o da ovaxtkı keçmiş senator, ondan sonra vitse-prezident, ondan sonra Prezident Co Bayden. Co Bayden 907-ci düzəlişin qəbul edilməsində çox böyük fəallıq göstərmişdir. Təkcə bu fakt kifayətdir ki, hər kəs anlasın, nə üçün bizim həm Obama-Bayden, həm Bayden-Blinken administrasiyası ilə münasibətlərimiz istənilən səviyyədə deyildi".*

ABŞ 11 sentyabr 2001-ci il hadisələrində çətin duruma düşdüyündən, Əfqanıstanda hərbi əməliyyatlar apardığından və buna görə Azərbaycana möhtac olduğundan Amerika Prezidenti bu düzəlişi öz imzası ilə aradan qaldırdı.

**Bayden-Blinken administrasiyası Əfqanıstandan xaotik şəkildə qaçdıqdan sonra Azərbaycanın bu yaxşılıqlarını unutdular, yenidən 907-ci düzəlişi qüvvəyə mindirdilər.**

Hazırda Ermənistan-Azərbaycan münaqişəsinə son qoyulub, Ermənistana Azərbaycan vasitəsilə buğda və yanacaq daşınır, Zəngəzur dəhlizinin (TRIPP) işə salınmasına ciddi hazırlıqlar görülür.

*Belə bir vəziyyətdə 907-ci düzəlişin mövcudluğu yalnız gülüş doğurur və yəqin ki, Tramp administrasiyası onun tamamilə ləğv edilməsinə Konqres üzvlərini, xüsusilə Respublikaçılar Partiyasının üzvlərini inandıra biləcək.*

❖ ❖ ❖

**Hazırda dünyada gedən müharibələr, baş verən hadisə və proseslər göstərir ki, artıq beynəlxalq hüququn yox, yalnız güclülərin sözü keçir!**

**Cənab İlham Əliyev öz müsahibəsində bu reallığa da məxsusi diqqət yetirdi:**

*"Öz təhlilimi apararaq görürəm ki, bugünkü dünyada beynəlxalq hüquq deyilən məsələ yoxdur. Bunu hər kəs gərək unutsun. Güc var, əməkdaşlıq var, müttəfiqlik var, qarşılıqlı dəstək var. Təbii ki, sən gərək özün əmin olasan ki, haqq yolundasan".*

**Belə bir vəziyyətdə nə etmək lazımdır?**

**İlham Əliyev bu sualın da cavabını verir:**

*"Bilirəm və görürəm, dünyadakı proseslər o istiqamətdə gedir ki, hər bir ölkə ilk növbədə öz hərbi potensialını gücləndirməlidir, təhlükəsizliyini gücləndirməlidir. Hətta Yeni il bayramı ilə əlaqədar Azərbaycan xalqına təbrikimdə də demişdim, bugünkü dünya belədir: kim güclüdür, o da haqlıdır".*

❖ ❖ ❖

**Dünyada gedən mühüm proseslərdən biri də süni zəkanın yaradılması və onun həyatımızın bütün sferalarına daxil olmasıdır.**

Azərbaycan bu mühüm məqamı da nəzərə alır.

Dövlət başçısının qeyd etdiyi kimi, bu məsələ ilə bağlı güclü siyasi iradə və potensial mövcuddur.

Azərbaycanı regional süni zəka qovşağına, İT mərkəzinə çevirmək üçün müvafiq addımlar atılmaqdadır.

Maraqlı məqamlardan biri budur ki, məlumat mərkəzinin yaradılması çoxlu elektrik enerjisi tələb edir. Belə enerji ehtiyatına malik olan az qisim ölkələrdən biri də Azərbaycandır.

Cənab İlham Əliyevin açıqlamasına görə, artıq bu istiqamətdə müəyyən işlər də görülmüşdür:

*"Kibertəhlükəsizlik mərkəzinin yaradılması, mütəxəssislərimizin təlimi ilə bağlı planlarımız və artıq icra olunmuş layihələrimiz var - biz bir çox mütəxəssislərimizi xaricə təlimlərə göndəririk və eyni zamanda Azərbaycanda təlimlər təşkil edirik - hədəfimiz bağlılıqla yanaşı, süni zəka və İT üçün bir haba çevrilməkdir".*

❖ ❖ ❖

Azərbaycan dünyanın bir sıra ölkələrinə neft və təbii qaz ixrac edir. Eyni zamanda neft, neft-kimya məhsulları, təbii qaz gübrələri də bu sıradadır.

Qaz nəqlinin coğrafi əhatə dairəsi 14 ölkədən ibarətdir.

Bu il bu siyahıya daha iki Avropa ölkəsi əlavə olunacaqdır.

**Qürurverici haldır ki, dünyada heç bir ölkə Azərbaycan kimi bu qədər ölkəni boru kəmərləri vasitəsilə təbii qazla təchiz etmir!**

Ötən il qaz ixracı 25 milyard kubmetr olmuşdur.

**Yeni, ən mühüm istiqamətlərdən biri bərpaolunan enerji istehsalı ilə bağlıdır.**

Bizim təkcə külək enerji potensialımız 150 giqavatdan çoxdur, xüsusilə Xəzər dənizinin külək enerjisi potensialı kifayət qədər böyükdür.

Xarici dostlarımız bu sahəyə böyük investisiyalar yatırırlar, əsas investorumuz isə Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" şirkətidir.

Səudiyyə Ərəbistanının "ACWA Power" şirkəti də sərmayədarlar sırasındadır.

*Qısamüddətli planımız 8 giqavat gücündə enerji əldə etməkdir.*

*Mövcud planlara görə, 2030-cu ilə qədər 6000 meqavat, 2032-ci ilə qədər isə 8000 meqavat Günəş, külək və su enerjisi sistemə daxil olunacaq.*

Bununla paralel olaraq batareya saxlanc sistemləri də qurulmalıdır.

Hazırda dövlət xətti ilə təxminən 250 meqavat gücündə birinci batareyalar qurulur.

Yaxın gələcəkdə "yaşıl enerji"nin Qara dənizin dibi ilə çəkiləcək kabel vasitəsilə Avropaya ixracı nəzərdə tutulur.

❖ ❖ ❖

**30 ilədək Azərbaycanda davam edən reallıq 44 gündə darmadağın edildi.**

Azərbaycan torpaqlarının Ermənistan tərəfindən işğalına "dəmir yumruq"la son qoyuldu!

Lakin bu, hələ hamısı deyildi.

2023-cü il aprelin 23-də ölkəmiz üçün şər və xəyanət girişinə çevrilən "Laçın qapısı" bağlanaraq ölkənin ərazi bütövlüyü təmin olundu!

Həmin il sentyabrın 19-20-də isə daha bir qeyri-adi antiterror əməliyyatı keçirilərək konstitusiya əsasları və dövlət suverenliyi bərpa edildi!

Bu da hamısı deyildi.

2024-cü il iyunun 12-də ermənipərəst fəaliyyəti ilə məşhurlaşan Rusiya sülhməramlıları xoşluqla, musiqi sədaları altında Azərbaycan ərazisini tərk etdilər.

**Beləliklə, daim Azərbaycana müstəmləkə nəzəri ilə baxan, ərazimizdə sərbəst şəkildə, istədiyi qədər hərbçi saxlayan Rusiyanın Azərbaycanda hərbi mövcudluğuna son qoyuldu.**

*Daha bir reallıq isə ondan ibarət oldu ki, ərazimizdə bir nəfər də olsun separatçı qalmadı!*

**Həsrətlə, çoxdan gözlədiyimiz bu reallıqların baş müəllifi və baş icraçısı Müzəffər Ali Baş Komandan İlham Əliyev oldu!**

*Cənab İlham Əliyev Azərbaycan xalqını, Azərbaycan dövlətini bu xoşbəxtliyə, bu reallıqlara ölkəyə rəhbərliyinin iyirmi ili ərzində addım-addım, cəsarət və qətiyyətlə, siyasət və diplomatiya ilə, özünəməxsus gedişlər və hesablamalarla, ən nəhayət, "dəmir yumruğ"u ilə qovuşdurdu!*

**Azərbaycan Prezidenti İlham Əliyevin yaratdığı və qəbul etdirdiyi yeni, möhtəşəm reallıqlar 8 avqust 2025-ci ildə ABŞ-də - dünyanın birnömrəli ofisində dünyanın ən güclü Prezidenti D.Trampın iştirakı ilə keçirilən görüşdə möhürlənərək təsdiqini tapdı!**

*ABŞ Prezidenti D.Tramp Zəngəzur dəhlizinə öz adını verməklə onu da real gerçəkliyə çevirmiş oldu!*

* Bəli, kim güclüdürsə, o haqlıdır!

* Kim güclüdürsə, o qalibdir!

* Yalnız güclülər reallıqları dəyişərək ədaləti bərpa edə bilir, yeni reallıqların müəllifinə çevrilərək onları hamıya qəbul etdirə bilirlər!

**Azərbaycan Prezidenti cənab İlham Əliyev kimi!**

**Bəxtiyar SADIQOV**

# İslam İnkişaf Bankı Qrupunun Bakıda keçiriləcək İllik Toplantısına hazırlıq məsələləri müzakirə edilib

Yanvarın 15-də Nazirlər Kabinetində "İslam İnkişaf Bankı Qrupunun 2026-cı il üzrə İllik Toplantılarının Bakı şəhərində keçirilməsi" ilə əlaqədar yaradılmış Təşkilat Komitəsinin iclası keçirilib.

Nazirlər Kabinetindən AZƏRTAC-a bildiriblər ki, Baş nazirin müavini, Təşkilat Komitəsinin sədri Samir Şərifov iclası açaraq, Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 8 sentyabr tarixli 711 nömrəli sərəncamı ilə yaradılmış İslam İnkişaf Bankı Qrupunun 2026-cı il üzrə İllik Toplantılarının təşkili ilə bağlı Təşkilat Komitəsinin qarşısında duran əsas vəzifələri qeyd edib, İslam İnkişaf Bankı Qrupunun 2026-cı il üzrə İllik Toplantılarının iyunun 16-19-da Bakı şəhərində keçirilməsinin ölkəmizin beynəlxalq nüfuzu baxımından mühüm əhəmiyyət daşıdığını vurğulayıb.

İclasda İslam İnkişaf Bankı Qrupunun İllik Toplantısının təşkili üzrə görülmüş işlər və cari hazırlıq vəziyyəti ilk növbədə görülməli işlər, onların icra qrafiki və xüsusi diqqət tələb edən məsələlər, İllik Toplantıların keçirilməsinə dair Tədbirlər Planının layihəsi və gündəlikdə duran digər məsələlər müzakirə edilib, müvafiq qərarlar qəbul olunub.

Qeyd edək ki, 57 ölkənin üzv olduğu İslam İnkişaf Bankı 1973-cü ildə yaradılıb. Bankın baş qərargahı Səudiyyə Ərəbistanı Krallığının Ciddə şəhərində yerləşir. Azərbaycan Respublikası 1992-ci ildən bankın üzvüdür.

# Avropa İttifaqının nümayəndəsi Azərbaycan-Ermənistan sülh prosesi barədə məlumatlandırılıb



Yanvarın 15-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Avropa İttifaqının Cənubi Qafqaz və Gürcüstan böhranı üzrə xüsusi nümayəndəsi Maqdalena Qrono ilə görüşüb.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a verilən məlumata görə, görüş zamanı Azərbaycan-Avropa İttifaqı (Aİ) əməkdaşlığının cari vəziyyəti və perspektivləri, Azərbaycan-Ermənistan normallaşma prosesi, habelə regional və beynəlxalq məsələlər müzakirə olunub.

Azərbaycan və Aİ arasında siyasi, iqtisadi, nəqliyyat, enerji təhlükəsizliyi və sair istiqamətlər üzrə əməkdaşlıq məsələləri, əməkdaşlıq platformaları və alətləri üzrə əldə edilmiş razılıqlar, habelə növbəti addımlar nəzərdən keçirilib.

Ceyhun Bayramov öz növbəsində Azərbaycan-Ermənistan normallaşma və sülh prosesi üzrə əldə olunan irəliləyişlər və perspektivlər barədə məlumat verib, ölkəmizin mövqeyini qarşı tərəfin diqqətinə çatdırıb. Azərbaycanla Ermənistan arasında normallaşma prosesi çərçivəsində atılan addımlar, etimad quruculuğu tədbirləri təqdir olunub. Görüşdə həmçinin qarşılıqlı maraq doğuran digər ikitərəfli və regional məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Azərbaycan və Pakistan parlamentarilərinin videokonfrans formatında görüşü keçirilib




Yanvarın 15-də Milli Məclisin Pakistanla parlamentlərarası əlaqələr üzrə İşçi qrupunun rəhbəri Kəmaləddin Qafarov və Pakistan Milli Assambleyasının Azərbaycanla dostluq qrupunun rəhbəri Syed Raza Əli Gillani arasında videokonfrans formatında görüş keçirilib.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Kəmaləddin Qafarov dövlətlərimiz arasındakı qarşılıqlı əlaqələrin yüksələn xətt üzrə inkişaf etdiyini, Prezident İlham Əliyevin ölkələrimiz arasında strateji əlaqələrin genişləndirilməsinə xüsusi əhəmiyyət verdiyini vurğulayıb. Qeyd olunub ki, 2025-ci il noyabrın 8-də Vətən müharibəsində Qələbənin beşinci ildönümünə həsr olunmuş Hərbi paradda Pakistanın Baş nazirinin iştirakı ölkələrimiz arasında mövcud olan qardaşlıq münasibətlərinin bariz nümunəsi olub. Azərbaycan və Pakistan arasında parlamentlərarası, siyasi və iqtisadi sahələrlə yanaşı, dövlət xidmətləri istiqamətində də səmərəli əməkdaşlıq mövcuddur. Pakistanda "ASAN xidmət" mərkəzinin fəaliyyətə başlaması bu sahədə uğurlu tərəfdaşlığın göstəricisi kimi dəyərləndirilib.

Pakistanlı parlamentari Syed Raza Əli Gillani Azərbaycan Respublikası Konstitusiyasının qəbul edilməsinin 30 illiyinə həsr olunmuş beynəlxalq konfransda Pakistan nümayəndə heyətinin iştirakını xüsusi vurğulayıb. Bildirilib ki, dövlətlərimiz arasında münasibətlərin inkişafında parlamentlərarası əlaqələr mühüm rol oynayır və bu istiqamətdə əməkdaşlığın daha da dərinləşdirilməsi üçün geniş imkanlar mövcuddur.

Onlayn görüşdə iştirak edən Pakistanla parlamentlərarası əlaqələr üzrə İşçi qrupunun üzvləri Elşən Musayev, Ceyhun Məmmədov, Arzu Nağıyev, Azərbaycanla dostluq qrupunun üzvləri Sehar Kamran, Syeda Amnah Batool, Muhammad Moin Aamer Pirzada, eləcə də hər iki ölkənin səfirləri Qasım Mohiuddin və Xəzər Fərhadov ikitərəfli əməkdaşlığın mövcud vəziyyəti və perspektivləri barədə fikirlərini bölüşüblər.

*"Azərbaycan"*

**Qanun layihələri və onların şərhi**

# Elektron siqaretlərin satışı və istifadəsi qadağan edilir

## Bununla bağlı qanun aprelin 1-dən qüvvəyə minəcək

Dünyada geniş yayılmağa başlayan elektron siqaretlər və digər alternativ tütün məhsulları ictimai sağlamlıq baxımından ciddi narahatlıq doğurur. "Zərərsiz" kimi təqdim edilən bu məhsullar əslində insan sağlamlığına təhlükə yaradır, asılılıq formalaşdırır və müxtəlif xəstəliklərin inkişafına səbəb olur. Bu, elmi araşdırmalarla təsdiqlənib. Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) elektron siqaretlərin, xüsusilə yeniyetmələr və gənclər arasında istifadəsinin sürətlə artmasını qlobal problem kimi qiymətləndirir və ölkələrə bu məhsulların dövriyyəsinin məhdudlaşdırılması ilə bağlı tövsiyələr verir.

Elektron siqaretlərin tərkibində nikotin və digər kimyəvi maddələr daşıyan mayelər var. Bu maddələr tənəffüs yollarına, ürək-damar sisteminə və sinir sisteminə mənfi təsir göstərir. Birdəfəlik istifadə üçün nəzərdə tutulan elektron siqaretlər gənclər arasında asan əldə olunduğuna görə ciddi risk faktorudur.

Azərbaycanda da tütün və tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması istiqamətində ardıcıl addımlar atılır. Ölkəmizdə tütün məhsullarının reklamı qadağan edilib, ictimai yerlərdə siqaret çəkməyə məhdudiyyətlər tətbiq olunub, aksiz və vergi mexanizmləri vasitəsilə bu məhsulların dövriyyəsinə nəzarət gücləndirilib. Bununla yanaşı, elektron siqaretlərin yayılması və xüsusilə gənclər arasında populyarlaşması yeni tənzimləmə ehtiyacını aktuallaşdırıb.

Ötən ilin dekabr ayında Milli Məclisdə üç oxunuşdan sonra qəbul edilən Azərbaycan Respublikasının Vergi Məcəlləsində, "Tütün və tütün məmulatı haqqında", "Reklam haqqında" və "Tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması haqqında" qanun layihəsində nəzərdə tutulan dəyişikliklər elektron siqaretlərin və onların komponentlərinin dövriyyəsinin, idxalının, ixracının, istehsalının, saxlanılmasının, topdan və pərakəndə satışının, eləcə də istifadəsinin qadağan edilməsini nəzərdə tutur. Sənəddə həmçinin elektron siqaretlərin aksizli mallar siyahısından çıxarılması və bununla bağlı vergi dərəcələrinin ləğvi də öz əksini tapıb.

Qanun layihəsi hazırlanarkən beynəlxalq təcrübə və Ümumdünya Səhiyyə Təşkilatının tövsiyələri əsas götürülüb. Təqdim olunan dəyişikliklər cəmiyyətin sağlam həyat tərzinə istiqamətləndirilməsi, əhalinin, xüsusilə gənc nəslin zərərli vərdişlərdən qorunması məqsədi daşıyır.

Bu qanun layihəsini Milli Məclisdə təqdim edən parlamentin Aqrar siyasət komitəsinin sədri Tahir Rzayev "Azərbaycan" qəzetinə bildirib ki, elektron siqaretlər və tütün məmulatları insan sağlamlığına ciddi zərər verir və buna görə də onların dövriyyəsinin məhdudlaşdırılması vacibdir: "Azərbaycan vətəndaşının sağlamlığı, təhlükəsizliyi və rifahı dövlətin əsas vəzifələrindən biridir. Buna görə də dövlətimiz insanların



gələcəyi və xoşbəxt həyatı baxımından zərərli vərdişlərin qarşısının alınması üçün tədbirlər görür".

T.Rzayev qeyd edib ki, dünyada 40-dan çox ölkədə elektron siqaretlərin idxal, ixrac və satışına qadağalar tətbiq olunur. Həmçinin Azərbaycan da qanunlara edilmiş dəyişikliklərlə elektron siqaretlərin istifadəsinə, idxalına, ixracına, satışına və topdan satışına qadağa tətbiq edib. Belə qadağalar insanların sağlamlığını qorumaq baxımından çox vacibdir və ölkəmizdə sağlamlığın güclənməsinə xidmət edir.

Komitə sədri qeyd edib ki, son illərdə gənclər və qadınlar arasında elektron siqaret istifadəsi artıb. Mütəxəssislər bildirirlər ki, elektron siqaret çəkənlər arasında ağciyər xəstəlikləri və baş-beyin pozuntuları daha çox müşahidə olunur. Bu ümidvericidir ki, qanun bu tendensiyanı dayandırmağa yönəlib və gənclərin sağlam gələcəyini qorumaq üçün imkanlar yaradır.

T.Rzayev bildirib ki, fevralın əvvəlindən qüvvəyə minməsi nəzərdə tutulan qaydaların tətbiqi sahibkarlar üçün əlavə vaxt verilməsi səbəbindən aprelin 1-dək uzadılıb. Bu, sahibkarların mövcud müqavilələrə və bazarda olan məhsullara uyğun hərəkət etməsi, ziyan çəkməməsi üçün edilib. O diqqətə çatdırıb ki, ölkəyə elektron siqaretlərin müəyyən miqdarda daxil olması, həm anbarlarda, həm də satışda mövcudluğu və bəzi hallarda xarici ölkələrlə bağlanmış müqavilələr səbəbindən sahibkarların ziyan görməməsi üçün vaxtın uzadılması vacib hesab edilirdi.

Ölkəmizdə elektron siqaretlərin reklamı tamamilə dayandırılıb, onların istifadəsi, alınması və satışı ilə bağlı informasiya vasitələrində təbliğatın aparılması da qadağandır.

Komitə sədri diqqətə çatdırıb ki, dünya ölkələri bu məsələyə ciddi yanaşırlar və Ümumdünya Səhiyyə Təşkilatı elektron siqaretə qarşı mübarizəni vacib proses kimi qiymətləndirir: "Həmin qanuna edilən dəyişikliklər ictimaiyyət və ekspertlər tərəfindən müsbət qarşılanıb. Ümumiyyətlə, gəncləri zərərli vərdişlərdən çəkindirmək hər bir vətəndaşın vəzifəsidir. Buna görə də maarifləndirmə tədbirləri davam etdirilməli, məktəblərdə və gənclər arasında elektron siqaretin zərərləri ilə bağlı geniş məlumatlandırma proqramları həyata keçirilməlidir. Maarifləndirmə proqramları gənclərin sağlam vərdişlər qazanmasına yardım edir və qadağaların effektivliyini artırır".

*Təhminə VERDİYEVA, "Azərbaycan"*

# Yeni dövlət proqramı çərçivəsində su təsərrüfatı ilə bağlı problemlər həllini tapacaq

Prezident İlham Əliyevin təşəbbüsü və rəhbərliyi ilə son illər ölkəmizdə böyük infrastruktur layihələri həyata keçirilib. Görülən işlər ölkəmizin inkişafına, xalqımızın rifahının yaxşılaşdırılmasına xidmət edir. Son 20 ildə qəbul edilən dövlət proqramları bütün regionlarımızı əhatə edib. Dövlət proqramlarının hamısı uğurla icra edilib.



Bakı Dövlət Universitetinin kafedra müdiri, professor Kamilə Əliyeva qəzetimizə açıqlamasında bildirib ki, Prezident İlham Əliyevin sədrliyi ilə yanvarın 12-də "Bakı şəhərində və Abşeron yarımadasında su təchizatı, yağış və tullantı suları sistemlərinin təkmilləşdirilməsinə dair 2026-2035-ci illər üçün Dövlət Proqramı"na həsr olunmuş müşavirədə bu barədə geniş bəhs olunub: "Prezident çıxışında Azərbaycanda enerji sahəsində həyata keçirilmiş böyük layihələr, eləcə də Bakı və Abşeron yarımadası ilə yanaşı, bölgələrimizin su təchizatının yaxşılaşdırılması üçün görülən tədbirlər və 10 il ərzində həyata keçiriləcək genişmiqyaslı layihələr barədə məlumat verdi. Enerji təchizatı ilə bağlı ölkəmiz yeni mərhələyə qədəm qoyub. Vaxtilə Azərbaycan digər ölkələrdən elektrik enerjisi idxal edirdi. Məhz cənab İlham Əliyevin uzaqgörən və düşünülmüş siyasəti sayəsində enerji istehsalı sahəsində misli görünməmiş layihələr reallaşdırıldı. Azərbaycanda inşa edilmiş günəş və külək-elektrik stansiyalarının tikilib istifadəyə verilməsi nəticəsində generasiya gücümüz tələbatımızdan artıq oldu. Artıq neçə ildir ki, Azərbaycandan Avropa ölkələrinə ixrac edilən neft və qaz bu dövlətlərin enerji təhlükəsizliyinə böyük töhfələr verir. Yaxın vaxtlarda Azərbaycan bir sıra Avropa dövlətlərinə elektrik enerjisi də ixrac edəcək".

Kamilə Əliyeva qeyd edib ki, Prezident İlham Əliyev çıxışında Azərbaycanda içməli su və suvarma layihələrinin icra olunduğu və bu işlərin daha da genişləndiriləcəyi barədə də məlumat verib. Son 20 ildə ölkəmizdə 4 böyük su anbarı inşa edilib. "Taxtakörpü" və "Şəmkirçay" su anbarlarının tikilməsi Bakının su təchizatındakı problemlərin aradan qaldırılmasında əhəmiyyətli rol oynayıb. Bakı və Abşeron yarımadasının içməli su ilə təchiz olunmasında "Ceyranbatan" su anbarı xüsusi əhəmiyyət kəsb edir. Bu su anbarı müasir təmizləyici qurğularla təchiz olunub. Ölkə rəhbərinin tapşırığına əsasən işğaldan azad edilmiş ərazilərdə də içməli su və suvarma layihələri icra edilir: "Ölkəmizin ən böyük su anbarlarından olan "Sərsəng" və "Suqovuşan" su anbarları yenidən qurulub. Ermənilərin torpaqlarımızı işğalda saxladığı zaman bu su anbarlarından ölkəmizə qarşı silah kimi istifadə edilirdi. Qışda ermənilər su anbarlarının suyunu açıb buraxır, yayda isə qarşısını kəsirdilər. "Sərsəng" və "Suqovuşan" su anbarları ilə yanaşı, Füzuli rayonunda "Köndələnçay", Ağdam rayonunda "Xaçınçay" su anbarları da yenidən istifadəyə verilib".

Ekspert Prezident İlham Əliyevin Bakı şəhəri və qəsəbələrində, Abşeron və Sumqayıt şəhərində içməli su təchizatı ilə bağlı görüləcək işlər barədə məlumat və müvafiq qurumlara tapşırıqlar verdiyini də xatırladıb. Qeyd edib ki, görülən işlər, həyata keçirilən bir çox layihənin icrası nəticəsində Bakı və Abşeron yarımadasında su problemi öz həllini tapmaqdadır. Lakin dövlət başçımızın da vurğuladığı kimi, bəzi problemlər hələ də qalır. "Dövlət proqramı bu problemlərin tamamilə həll olunması üçün hazırlanıb. On il müddətində icra olunması nəzərdə tutulan bu proqram icra edildikdən sonra vətəndaşlarımızın 95 faizi içməli su ilə təmin olunacaq. Bundan başqa, 30-a yaxın yeni su anbarının tikilməsi nəzərdə tutulub və sayğaclaşdırma 100 faizə çatdırılacaq", - deyə o əlavə edib.

Kamilə Əliyeva bildirib ki, yağış sularının idarə olunması üçün də Bakının 30 küçəsində yeni kollektor şəbəkəsinin quraşdırılması nəzərdə tutulub: "Son zamanlar güclü yağışlar zamanı Bakıda nəqliyyat iflic vəziyyətə düşür və bir sıra xoşagəlməz hadisələr yaşanır. Yeni kollektorların inşası Bakı şəhərində bu problemi tamamilə aradan qaldıracaq. Xəzər dənizinin çirkləndirilməsinin qarşısının alınması istiqamətində də tədbirlər həyata keçiriləcək. Hövsanla yanaşı bir neçə qəsəbədə inşa ediləcək sutəmizləyici qurğuların modelləşdirilməsi nəticəsində dənizə təmizlənmiş su axıdılacaq".

Ekspert vurğulayıb ki, dövlət proqramının ən önəmli hissələrindən biri ölkəmizdə duzsuzlaşdırma zavodunun inşa edilməsi layihəsidir. Xəzər dənizinin suyu duzsuzlaşdırıldıqdan sonra içməli su halına gətiriləcək. Bu zavodun tikilməsində dünyanın ən müasir texnoloji avadanlıqlarından istifadə ediləcək və əhalimiz keyfiyyətli, təmiz su ilə təmin olunacaq. Qeyd olunan dövlət proqramının qəbulu və həyata keçiriləcək işlər ondan xəbər verir ki, dövlət tərəfindən hər zaman vətəndaşın problemsiz, firavan həyat yaşaması üçün bütün lazımi tədbirlər görülür.

*Əsmər QARDAŞXANOVA, "Azərbaycan"*

# *Türk ekspert:* "Azərbaycan-Türkiyə əlaqələri tarixi yaddaş, ortaq kimlik və qarşılıqlı etimad üzərində qurulub"

"Türkiyə ilə Azərbaycan arasında diplomatik münasibətlərin qurulmasından 34 il ötür və bu müddət ərzində formalaşan münasibətlər diplomatik yaxınlıqdan daha geniş və dərin xarakter alıb".

Bu fikirləri AZƏRTAC-a açıqlamasında beynəlxalq münasibətlər üzrə ekspert Mehmet Emir Aksoy bildirib.

Onun sözlərinə görə, Türkiyə-Azərbaycan əlaqələri tarixi yaddaş, ortaq kimlik və qarşılıqlı etimad üzərində qurulub və klassik müttəfiqlik modellərini aşan özünəməxsus dövlətlərarası münasibət forması yaradıb: "Bu modelin əsasını Azərbaycan dövlətçiliyinin memarı Heydər Əliyevin müəyyən etdiyi strateji baxış təşkil edir. Heydər Əliyev Türkiyə ilə münasibətləri qısamüddətli maraqlar deyil, uzunmüddətli geosiyasi düşüncə kontekstində qiymətləndirib və bu yanaşma Azərbaycanın xarici siyasətində davamlılığın əsas sütununa çevrilib. Prezident İlham Əliyevin rəhbərliyi dövründə bu xəttin qorunması və inkişaf etdirilməsi Türkiyə-Azərbaycan münasibətlərinin fərdi faktorlarla məhdudlaşmayan, institusional dərinliyə malik olduğunu göstərir".

Ekspert bildirib ki, iqtisadi əlaqələr bu strateji davamlılığın ən real göstəricilərindən biridir. Bakı-Tbilisi-Ceyhan neft kəməri yalnız enerji layihəsi deyil, Xəzər hövzəsindən Aralıq dənizinə uzanan yeni geosiyasi balans xəttinin formalaşması deməkdir. Daha sonra TANAP və qaz ixracı layihələri Türkiyəni enerji keçidində mühüm mərkəzə, Azərbaycanı isə etibarlı təchizatçıya çevirib.



"Türkiyə-Azərbaycan enerji əməkdaşlığı təkcə iqtisadi gəlirlərlə ölçülməməlidir. Bu əməkdaşlıq eyni zamanda strateji qarşılıqlı asılılıq, ortaq təhlükəsizlik baxışı və böhranlara davamlılıq yaradır. Qlobal enerji bazarlarında dalğalanmalara baxmayaraq, bu layihələrin sabit fəaliyyəti qurulan modelin möhkəm təməllərə söykəndiyini sübut edir", - deyə ekspert vurğulayıb.

M.Emir Aksoy ticarət dövriyyəsində artımı müsbət qiymətləndirsə də, mövcud potensialın hələ tam reallaşmadığını bildirib. Onun fikrincə, yüksək əlavə dəyərli sənaye, müdafiə sənayesi, rəqəmsal iqtisadiyyat və maliyyə inteqrasiyası sahələrində daha cəsarətli addımlar atılmalıdır. Xüsusilə müdafiə sənayesində birgə layihələr iqtisadi əməkdaşlığın strateji müstəviyə keçdiyini nümayiş etdirir.

Ekspert Qarabağın işğaldan azad edilməsindən sonra başlayan bərpa və yenidənqurma prosesinin də münasibətlərə yeni ölçü verdiyini deyib: "Türkiyə şirkətlərinin bu ərazilərdə fəaliyyəti iqtisadi əməkdaşlıqdan daha çox, tarixi həmrəyliyin və ortaq taleyin təzahürüdür. Zəngəzur xətti və Orta dəhliz layihələri Türkiyə-Azərbaycan əlaqələrini ikitərəfli çərçivədən çıxararaq regional və qlobal səviyyəyə daşıyır. Bu marşrutlar Asiya ilə Avropa arasında ticarət zəncirlərində iki ölkənin rolunu gücləndirir və türk dünyasının inteqrasiyası baxımından tarixi imkan yaradır".

M.Emir Aksoy sonda qeyd edib ki, bu gün Türkiyə-Azərbaycan münasibətləri regional sabitlik yaradan və qlobal proseslərə təsir göstərən strateji ox kimi formalaşıb. 34 illik diplomatik tarix göstərir ki, bu tərəfdaşlıq təsadüfi deyil, şüurlu strateji seçimin nəticəsidir. Qarşıdakı onillikdə "yaşıl enerji", rəqəmsal transformasiya, müdafiə sənayesi və logistika sahələrində atılacaq birgə addımlar bu münasibətlərin gələcəyini müəyyən edəcək. Güclü liderlik, möhkəm dövlət ağlı və ortaq taleyə əsaslanan bu əlaqələr davamlı şəkildə inkişaf edəcək.



# "Böyük qayıdış" proqramı sürətlə icra olunur



# Tam və mütləq qələbə

**"Son 80 il ərzində Azərbaycan kimi tam və mütləq Qələbə qazanan ikinci ölkə olmayıb. Müharibələr olub, münaqişələr olub, bu gün də davam edir. Amma heç biri tam və mütləq Qələbə ilə nəticələnməyib. Ancaq biz böyük xalq olaraq buna nail olduq, özü də cəmi 44 gün ərzində. Ondan sonra da bir gün ərzində".**




Yanvarın 13-də Ağdərə rayonunun Aşağı Oratağ kəndində Aşağı Oratağ, Çıldıran, Heyvalı və Çapar kəndlərinin sakinləri ilə görüşü zamanı Prezident İlham Əliyevin söylədiyi kimi, Azərbaycanın Vətən müharibəsində 44 günə və antiterror tədbirləri zamanı cəmi bir günə qazandığı parlaq zəfərlər təkcə ölkəmizin, regionun yox, ümumiyyətlə, dünya tarixində təkrarolunmazlığı ilə seçilir. Elə bir ölkə tapılmaz ki, son onilliklər ərzində Azərbaycanın Qarabağ zəfərinə bərabər hansısa bir qələbə qazanmış olsun.

Bu gün dünyanın yenidən bölüşdürülməsi və Yer üzündə daha çox torpaq, siyasi, iqtisadi üstünlüklər uğrunda gedən güc savaşları səngimək bilmir, hər gün təzə münaqişə ocaqları alovlanır. Bir sözlə, dünya qaynar qazan kimi qaynayır. Çox az halda münaqişələrə son qoyulmasının şahidi oluruq. Amma bu zaman da parçalanan, ərazi bütövlüyü, daxili sabitliyi sual altında qalan neçə-neçə ölkənin timsalında nəticələrin ürəkaçan olmadığı üzə çıxır.

Ərazilərinin işğalına son qoyması, suverenliyini bərpa etməsi, torpaqlarında separatizmə son qoyması, bir sözlə, bütün milli prioritetlərini qətiyyətlə təmin etməsi isə Azərbaycana dünyada şəriksiz qalib adı qazandırıb.

## İradəmizi göstərdik

Dünyada beynəlxalq hüququn heçə sayılması, onun tapdanması da təəssüf ki, ən geniş yayılmış haldır. 1993-cü ildə - Kəlbəcərin işğalından sonra Beynəlxalq Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının qəbul etdiyi 4 qətnaməsinin onilliklər boyu kağız parçasından fərqli olmaması da məlum faktdır.

Müstəqilliyini yenicə qazandığı, hələ Milli Ordusunun formalaşmadığı, bütün sahələrdə böhran yaşadığı bir dövrdə Azərbaycan işğal faktı ilə üz-üzə qaldı, on minlərlə şəhid verdi, bir milyondan çox qaçqın və məcburi köçkün axınına məruz qaldı, beynəlxalq ədalətsizliklə üzləşdi. Erməni lobbisi, dünya erməniliyi o dövrdə Azərbaycana qarşı beynəlxalq cəbhə açmağa çalışırdı və müəyyən mənada buna nail olurdu. ABŞ-də ədalətsiz 907-ci düzəlişin qəbulu, ATƏT-in Minsk qrupunun yarıtmaz fəaliyyəti, ölkəmizə işğalla barışması üçün edilən təzyiqlər də elə bu qəbildən idi.

Lakin Ulu Öndər Heydər Əliyevin qurtuluş missiyası və 2003-cü ildən etibarən Prezident İlham Əliyevin hərtərəfli inkişafa hesablanmış milli strategiyası ölkəmizi həm bugünkü qalibiyyət zirvəsinə ucaltdı, həm də Azərbaycanın xarici düşmənlərini darmadağın etdi.



Yanvarın 13-də Ağdərədə Azərbaycan xalqının qəhrəmanlıqlarla dolu milli mübarizəsindən qürurla bəhs edən qalib lider İlham Əliyev söylədi ki, torpaqların itirilməsi, böyük sayda şəhidlərin şəhadətə ucalması - bütün bu ədalətsizliklər bizi xalq olaraq çox incidirdi, ancaq bizi sarsıtmadı: "Biz əyilmədik, iradəmizi göstərdik və döyüş meydanında həm şəhidlərimizin qisasını aldıq, həm də torpaqlarımızı qaytardıq".

Azərbaycan İkinci Qarabağ savaşında qazandığı qələbə nəticəsində BMT TŞ-nin qətnamələrini yerinə yetirərək beynəlxalq hüququ öz gücünə təmin etdi. Həmçinin ATƏT-in keçmiş Minsk qrupunun üzərinə götürdüyü və onilliklər ərzində həll edə bilmədiyi (əslində, həllində maraqlı olmadığı) Qarabağ münaqişəsini kökündən həll edərək Cənubi Qafqazda dayanıqlı sülhün əsasını qoydu. Ölkəmizi dünyada qalib edən əsas məqamlardan biri də elə məhz pozulan beynəlxalq hüququ öz gücünə həll etməsi oldu.



Müharibələrin qan-qadasız, itkisiz olmadığı təəssüfləndirici gerçəklikdir. Bu mənada Qarabağ qələbəsinin mühüm fərqləndirici xüsusiyyətlərindən biri də yürüdülən mükəmməl hərbi taktika və diplomatik siyasət sayəsində itkilərimizin minimuma endirilməsi oldu.

Ağdərənin kəndlərinə köçən sakinlərlə görüşü zamanı bu müstəsna strategiyadan söz açan ölkəmizin rəhbəri vurğuladı ki, şanlı Zəfərimizi, Zəfər yürüşümüzü iki mərhələyə bölərək həm də cavanlarımızı qoruduq: "Çünki əgər 2020-ci il noyabrın 10-da müharibə dayanmasaydı, bəlkə də minlərlə şəhid verməli olacaqdıq. O cümlədən bax, burada, bu dağlarda, Ağdərə dağlarında, Kəlbəcər dağlarında, Laçın dağlarında, Ağdamın minalanmış zolaqlarında minlərlə şəhid verə bilərdik. Biz onları qoruduq, onları qurban vermədik".

## Həyat bərpa edilir

44 günlük müharibədə əldə olunan zəfərin müvəffəqiyyətli nəticələrindən biri isə işğaldan azad edilmiş ərazilərin quruculuq və bərpasına başlanılması, bu yerlərə qayıdışın həyata keçirilməsidir. Bu ərazilərin dirçəlişini ümummilli məsələyə, milli çağırışa çevirən Azərbaycan dövləti Qarabağ və Şərqi Zəngəzurda dünyamiqyaslı layihələr gerçəkləşdirir. Sözügedən iqtisadi rayonlarda müasir standartlara uyğun quruculuq işləri görülür, yollar, körpülər, tunellər, beynəlxalq hava limanları, elektrik stansiyaları tikilərək istifadəyə verilir. "Ağıllı şəhər" və "ağıllı kənd"lər salınır.

Bu gün ölkəmizdə əsas investisiya layihələrinin icrası da məhz Qarabağ və Şərqi Zəngəzurla bağlıdır. Görülən yüksəksəviyyəli kompleks işlərin nəticəsidir ki, bu ərazilər sürətlə dirçəlir. Keçmiş məcburi köçkünlər qayıdış köçləri ilə mərhələli şəkildə yurdlarına dönürlər.

"Son iki il ərzində, - antiterror əməliyyatından sonra, - 2023-cü ildən bu yana bütün bu bölgələrdə - Ağdərədə, Xocalıda, Xankəndidə, Xocavənddə həyat bərpa edilir. Beş il bundan əvvəl isə vaxtilə işğal altında olmuş digər ərazilərə köçkünlər qayıtmağa başlayıblar. Bu gün artıq 73 min insan - həm keçmiş köçkün, həm də ki, köçkün olmayan, amma azad edilmiş ərazilərdə işləyənlər, çalışanlar, oxuyanlar yerləşiblər və hər ay Qarabağa qayıdan vətəndaşların sayı artır" deyə dövlətimizin başçısı Aşağı Oratağ kəndində sakinlərlə keçirilən görüşdə məlumat verdi.

Qurucu lider azad ərazilərdən bəyan etdi: "Bu torpaqların sahibləri bizik, biz gəlmişik və biz qurub-yaradırıq...

...Bundan sonra ancaq müzəffər xalq kimi, qürurlu xalq kimi yaşayacağıq".

Bütün bu nümunələrdən və Prezident İlham Əliyevin Ağdərədən verdiyi mesajlardan da göründüyü kimi, milli maraqlarını tam təmin edən Azərbaycan xalqı tarixindəki ən qürurlu günlərini yaşayır və tükənməz gücü, sarsılmaz əzmi ilə qarşısında duran növbəti milli hədəflərə, çağırışlara doğru qətiyyətlə irəliləyir.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

# Doğma torpaqlara qayıdış davam edir

Xalqımızın yaddaşında dərin iz buraxmış məcburi köçkünlük dövrü mərhələli şəkildə başa çatıb, doğma yurd yerlərinə qayıdış reallığa çevrilib. Qarabağ və Şərqi Zəngəzurda aparılan genişmiqyaslı bərpa və quruculuq işləri təkcə dağıdılmış şəhər və kəndlərin yenidən qurulması deyil, eyni zamanda tarixi ədalətin bərpasıdır.

"Uzun illərin həsrəti arxada qaldı, haqq-ədalət Zəfər çaldı. Azərbaycan öz ərazi bütövlüyünü, suverenliyini bərpa etdi. Azərbaycanlılar öz dədə-baba torpaqlarına qayıdıblar və burada qürurla yaşayacaqlar, xoşbəxt yaşayacaqlar, rahat yaşayacaqlar. Əminəm ki, bundan sonra müharibə olmayacaq. Azərbaycan dövləti güclü dövlətdir". Bu fikirləri Prezident İlham Əliyev yanvarın 13-də Ağdərə rayonunun Aşağı Oratağ kəndində Aşağı Oratağ, Çıldıran, Heyvalı və Çapar kəndlərinin sakinləri ilə görüşü zamanı söyləyib. Dövlət başçısının bu sözləri Böyük qayıdışın fəlsəfəsini, mahiyyətini və gələcək perspektivlərini özündə aydın şəkildə ehtiva edir.

Böyük qayıdış prosesi isə sürətlə davam edir. Yeni ilin ilk günlərində də bu proses davam etdirilib. Yanvarın 9-da Ağdərə rayonunun Aşağı Oratağ, Heyvalı, Çapar və Çıldıran kəndləri ilk sakinlərinə qovuşub. İlkin mərhələdə Aşağı Oratağ kəndinə 31 ailə - 119 nəfər, Çapar kəndinə 26 ailə - 96 nəfər, Heyvalı kəndinə 19 ailə - 74 nəfər, Çıldıran kəndinə isə 13 ailə - 48 nəfər qayıdıb. Yanvarın 13-də Prezident İlham Əliyev bu kəndlərə köçən sakinlərlə görüşüb, onların evlərində olub, yaşayış şəraiti və məşğulluq imkanları ilə maraqlanıb.

Dağətəyi ərazidə yerləşən Aşağı Oratağ kəndində ümumilikdə 308 fərdi ev mövcuddur. Onlardan 148-i yararsız, 160-ı isə qismən yararlıdır. Hazırda 100 ev aparılan bərpa işlərindən sonra istismara tam hazır vəziyyətə gətirilib. İl ərzində daha 60 evin əsaslı təmir və bərpası nəzərdə tutulur. Kənddə sosial infrastrukturun qurulması istiqamətində də mühüm işlər görülüb. Yeni elektrik, qaz və rabitə xətləri çəkilib, su nasosu istifadəyə verilib, ümumi həcmi 560 kubmetr olan su anbarları təmizlənib, subartezian quyusu təmir edilib. Uzunluğu 7 kilometrə yaxın olan kənddaxili yollar bərpa olunub, sakinlərin istirahəti üçün park salınıb, futbol meydançası yaradılıb.

Tarixi abidələrlə zəngin olan Çıldıran kəndinin ərazisində XII əsrə aid Alban məbədi və XIII əsrə aid "Qırmızı məbəd" yerləşir. Azərbaycan Silahlı Qüvvələrinin 2023-cü ilin sentyabrında həyata keçirdiyi antiterror əməliyyatı nəticəsində kənd işğaldan azad edilib. Kənddə 177 fərdi ev mövcuddur. Onlardan 69-u yararsız, 108-i isə qismən yararlıdır. İndiyədək 28 ev istismara hazır vəziyyətə gətirilib, bu il isə daha 30 evin bərpası planlaşdırılır. Çıldıran kəndində mövcud transformatorlar, elektrik və qaz xətləri bərpa olunub, yeni kommunikasiya xətləri çəkilib, su nasosu istifadəyə verilib, 190 kubmetrlik su anbarları təmizlənib, subartezian quyusu təmir edilib, 8,4 kilometr uzunluğunda kənddaxili yollar yenidən qurulub, park salınıb.

Ağdərə rayonunun Heyvalı kəndi Qarabağ silsiləsinin ətəyində yerləşir. İşğaldan əvvəl kənd əhalisi əsasən taxılçılıq, tütünçülük və heyvandarlıqla məşğul olub, burada məktəb, klub və poçt fəaliyyət göstərib. Mövcud 126 fərdi evdən 45-i artıq tam bərpa olunub. Bu il ərzində daha 50 evin bərpası nəzərdə tutulur. Sosial infrastrukturun bərpası çərçivəsində enerji, qaz və rabitə xətləri yenilənib, 60 kubmetrlik içməli su çəni quraşdırılıb, su şəbəkəsinin inşasına başlanılıb, 4,5 kilometr uzunluğunda kənddaxili yollar əsaslı şəkildə bərpa edilib və istirahət parkı salınıb.



Qarabağ silsiləsinin cənub-şərq yamacında yerləşən Çapar kəndində 104 fərdi ev mövcuddur. Onlardan 41-i yararsız, 63-ü isə qismən yararlıdır. Hazırda 40 ev istismara hazırdır, il ərzində isə daha 23 evin bərpası planlaşdırılır. Kənddə 3 transformator, elektrik xətləri bərpa olunub, yeni qaz və rabitə xətləri çəkilib, su şəbəkəsi yaradılıb, su anbarları yenilənib, 6 kilometrə yaxın kənddaxili yollar yenidən qurulub.

Bu günədək Qarabağ və Şərqi Zəngəzurda 6554 ailə, 25754 nəfər məskunlaşıb. Ümumilikdə 7 şəhər, 3 qəsəbə və 26 kənd artıq sakinlərini qarşılayıb. Prezident İlham Əliyevin qeyd etdiyi kimi: "Bu gün artıq 73 min insan - həm keçmiş köçkün, həm də ki, köçkün olmayan, amma azad edilmiş ərazilərdə işləyənlər, çalışanlar, oxuyanlar yerləşiblər və hər ay Qarabağa qayıdan vətəndaşların sayı artır". 2027-ci ilədək 91 yaşayış məntəqəsinə 96 minə yaxın şəxsin qayıdışı planlaşdırılır, Böyük qayıdışın birinci mərhələsi tamamlanana qədər isə 140 min nəfərin - 34 min 500 ailənin köçürülməsi nəzərdə tutulur.

İndiyədək Ağdərə rayonunun 9 kəndinə qayıdış reallaşdırılıb. Tezliklə Ağdərə şəhəri də sakinlərinə qovuşacaq. Baş plana əsasən, şəhərin məskunlaşma ərazisi genişləndiriləcək, 444 hektardan 522 hektara çatdırılacaq, sənaye, logistika, aqroturizm zonaları yaradılacaq, müasir sosial infrastruktur qurulacaq. Ümumiyyətlə, qarşıdakı illərdə şəhər əhalisinin sayının 14 min nəfər olması proqnozlaşdırılır.

Baş planla yanaşı, Ağdərə şəhərinin birinci mərhələdə yenidən qurulacaq ərazisi üzrə qarşıda duran vəzifələr də müəyyən edilib. Şəhərin mənzil fondunun 420 min kvadratmetr olması, həmçinin 80 çarpayılıq xəstəxananın, 2520 şagird yerlik 5 məktəbin, 840 yerlik 5 uşaq bağçasının və peşə məktəbinin inşası planlaşdırılır. Birinci mərhələdə sahəsi 104 hektar olan şəhər mərkəzinin inkişaf etdirilməsi nəzərdə tutulur. 2030-cu ilədək şəhərdə 3590 nəfərin məskunlaşması mümkün olacaq. Burada yol və küçələrin uzunluğu 46,8 kilometr, velosiped zolaqlarının uzunluğu isə 10 kilometr təşkil edəcək.

Layihə çərçivəsində ictimai və yaşayış binalarının memarlıq həlləri də işlənilib. Prezident İlham Əliyevin "Ağdərə şəhərini də biz yenidən quracağıq, necə ki artıq doqquz kəndi abadlaşdırmışıq. Şəhəri də quracağıq. Bura çox gözəl bir sənaye və turizm mərkəzi olacaq. Bu səfalı yerlər göz oxşayır. Hər tərəf dağ, meşə, gözəl hava, bulaqlar, çaylar. Ona görə Ağdərənin gələcək inkişafı çox parlaq olacaq" sözləri tezliklə gerçəkləşəcək. Qarabağ və Şərqi Zəngəzurun uzun illərdir sakinlərinə həsrət digər əraziləri də sakinlərinə qovuşacaq.

***Ülkər XASPOLADOVA,***
***"Azərbaycan"***

# Ağdərə şəhərinin məskunlaşma ərazisi 522 hektara çatdırılacaq

Ağdərənin Baş planına əsasən, şəhərin məskunlaşma ərazisi 444 hektardan 522 hektara çatdırılacaq. 20 illik perspektiv dövr üçün şəhər əhalisinin sayının 14 min nəfər olması proqnozlaşdırılır.

AZƏRTAC xəbər verir ki, Baş planın konseptual sxeminə şəhər mərkəzi, fərdi və azsıxlıqlı yaşayış sahələri, çoxfunksiyalı və ictimai-işgüzar zonalar daxildir. Bundan başqa, şəhərdə terras parkı, çayətrafı bulvar, aqroturizm, sənaye və logistika zonalarının yaradılması planlaşdırılır.

Baş planla yanaşı, Ağdərə şəhərinin birinci mərhələdə yenidən qurulacaq ərazisi üzrə müfəssəl həllər də hazırlanıb. Şəhərin mənzil fondunun 420 min kvadratmetr olması, həmçinin 80 çarpayılıq xəstəxananın, 2520 şagird yerlik 5 məktəbin, 840 yerlik 5 uşaq bağçasının və peşə məktəbinin inşası planlaşdırılır. Birinci mərhələdə sahəsi 104




hektar olan şəhər mərkəzinin inkişaf etdirilməsi nəzərdə tutulur. 2030-cu ilədək şəhərdə 3590 nəfərin məskunlaşması mümkün olacaq. Burada yol və küçələrin uzunluğu 46,8 kilometr, velosiped zolaqlarının uzunluğu isə 10 kilometr təşkil edəcək. Layihə çərçivəsində ictimai və yaşayış binalarının memarlıq həlləri də işlənilib.

# *"Suqovuşan" su anbarı:* 96 min hektar sahənin su təminatı yaxşılaşıb

Qlobal iqlim dəyişikliyinin yaratdığı su qıtlığı fonunda Azərbaycan dövləti su ehtiyatlarının idarə olunmasını milli təhlükəsizliyin prioriteti elan edib. Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkədə su itkilərinin qarşısının alınması və alternativ su mənbələrindən istifadə üzrə mühüm strateji proqramlar icra olunur. Xüsusilə işğaldan azad edilmiş ərazilərin zəngin su potensialının ölkənin ümumi su sisteminə inteqrasiyası iqlim dəyişikliyi ilə mübarizədə mühüm əhəmiyyət daşıyır.

1976-cı ildə istismara verilən "Suqovuşan" su anbarı və magistral kanallar regionda su təminatında mühüm rol oynayır. Su anbarının ümumi su tutumu 5,86 milyon kubmetr, bəndin üstdən uzunluğu 630 metr, hündürlüyü 28 metr, eni isə 10 metrdir.

Su anbarının yerləşdiyi ərazi 28 il işğal altında olduğundan Tərtər, Ağdərə, Goranboy, Yevlax, Bərdə, Ağdam, Ağcabədi rayonlarında ümumilikdə, 96 min hektardan çox torpaq sahəsinin su təminatında ciddi çətinliklər yaranmışdı. İşğaldan azad olunduqdan sonra su anbarında təmir-bərpa işləri aparılıb ki, nəticədə əkinlərin suvarılması işi yaxşılaşıb.



Tərtərçay Hidroqovşağının İstismarı İdarəsinin baş mühəndisi Hafiz Səfərov AZƏRTAC-ın bölgə müxbirinə bildirib ki, işğal dövründə su anbarı bərbad vəziyyətə salınmışdı. İşğaldan azad olunduqdan sonra su anbarında bərpa işləri aparılıb. Anbar bütün hidrotexniki qurğuları ilə bərabər təmir edilib. Ərazidə inzibati bina və emalatxana da tikilib. "Suqovuşan" su anbarından ayrılan kanallarda da əsaslı təmir işləri aparılıb, hidrotexniki qurğular yenilənib.

Beləliklə, "Suqovuşan" su anbarından götürülən su kanallar vasitəsilə əkin sahələrinə çatdırılır, illərlə susuz qalan torpaqlara yeni həyat verilir.

Suqovuşan kimi mühüm su qovşaqlarının bərpası Azərbaycanın su ehtiyatlarından səmərəli istifadə yolunda atdığı addımlara nümunədir. Dövlətin həyata keçirdiyi bu layihələr kənd təsərrüfatında suyun səmərəli istifadəsini təmin edərək ərzaq təhlükəsizliyini möhkəmləndirir. Müasir su idarəetmə metodlarının tətbiqi həm də regionun ekoloji tarazlığının qorunmasına və iqlim dəyişikliyinin mənfi təsirlərinin minimuma endirilməsinə birbaşa töhfədir.

# İqtisadiyyat və sosial həyat

## Vyetnam şirkəti ilə sənaye və avtomobil istehsalı sahəsində əməkdaşlıq imkanları müzakirə olunub

**İqtisadiyyat Nazirliyində Vyetnamın "VinFast" şirkəti ilə sənaye və avtomobil istehsalı sahəsində əməkdaşlıq imkanları müzakirə olunub.**



İqtisadiyyat naziri Mikayıl Cabbarov Vyetnamın "VinFast" şirkətinin İdarə Heyətinin sədri Le Thi Thu Thuyun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Görüşdə ölkəmizin əlverişli işgüzar mühiti barədə məlumat verilib, investorlar üçün yaradılmış hüquqi və institusional mexanizmlər, vergi və gömrük güzəştləri, sənaye zonaları və investisiya təşviqi alətləri, eləcə də sabit makroiqtisadi mühit diqqətə çatdırılıb. Tərəflər Vyetnamla iqtisadi əlaqələrin şaxələndirilməsi istiqamətində biznes dairələri ilə əməkdaşlıq, dayanıqlı inkişaf prioritetlərinə dair fikir mübadiləsi aparıblar.

Görüşdə yerli istehsalın təşviqi, elektrik avtomobillərinin istehsalı sahəsində birgə fəaliyyət imkanları, bu sahədə texnologiya və təcrübə mübadiləsinin əhəmiyyəti müzakirə olunub.

## Ötən il 567 min şəxs aktiv məşğulluq tədbirləri ilə əhatə edilib

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyi 2025-ci ildə 567 min şəxsi aktiv məşğulluq tədbirləri ilə əhatə edib.**

Onlardan 189 min şəxs münasib işlərlə təmin olunub, 16,8 min şəxs isə kiçik ailə təsərrüfatlarını yaratmaları üçün özünüməşğulluq proqramına cəlb olunub.

2025-ci ildə 18,4 min işsiz şəxs üçün isə peşə hazırlığı kursları təşkil olunub, 343 min şəxsə peşəyönümü xidmətlər göstərilib.

## Azərbaycan nefti cüzi ucuzlaşıb

**AZƏRTAC xəbər verir ki, dünya bazarında Azərbaycan nefti ucuzlaşıb.**

"Azeri Light" markalı neftin bir barelinin qiyməti 0,04 dollar və ya 0,06 faiz azalaraq 71,71 dollar olub.

Xatırladaq ki, "Azeri Light" neftinin ən aşağı qiyməti 2020-ci il aprelin 21-də (15,81 ABŞ dolları), maksimal qiyməti isə 2008-ci ilin iyulunda (149,66 ABŞ dolları) qeydə alınıb.

# Su təhlükəsizliyinin qarantı

**Azərbaycan təbii-coğrafi mövqeyinə və iqlim müxtəlifliyinə görə su ehtiyatlarının idarə olunması baxımından xüsusi əhəmiyyətə malikdir. Ölkə ərazisində yağıntıların qeyri-bərabər paylanması, çay axınlarının mövsümi dəyişkənliyi və əhalinin, kənd təsərrüfatının suya artan tələbatı su ehtiyatlarının səmərəli istifadəsini zəruri edir. Bu baxımdan su anbarları Azərbaycanın su təsərrüfatı sistemində mühüm rol oynayır.**

Su anbarları çay sularının tənzimlənməsi, suvarma əkinçiliyinin inkişafı, içməli və suvarma suyu ilə təminatı, hidroenergetika, daşqınların qarşısının alınması və ekoloji tarazlığın qorunması kimi çoxşaxəli funksiyaları yerinə yetirir. Dünyanın hər yerində su anbarlarının enerji istehsalında payı çoxdur. Bu səbəbdən də onların strateji əhəmiyyəti böyükdür və ölkənin enerji istehsalında ən təbii və ən ucuz mənbələrdir.

Hazırda Azərbaycanın ərazisində irili-xırdalı 153 su anbarı var və onların ümumi su həcmi 21,9 milyard kubmetr təşkil edir. Su anbarları həm çayın məcrasında (məcra su anbarları), həm də ondan kənarda (məcradan kənar su anbarları) yaradılır. Onların əksəriyyəti fəsillər üzrə nizamlanır və istifadə etmək üçün ərazilərə açılan kanallarla su daşınır.

Qeyd edək ki, Azərbaycan Qarabağ və Şərqi Zəngəzurda su ehtiyatlarından maksimum səmərəli istifadə etmək niyyətindədir. 44 günlük Vətən müharibəsi bitəndən sonra çox qısa müddətdə "Suqovuşan" su anbarından ətraf rayonlara su verilişi bərpa edildi. Rəsmi məlumata görə, işğaldan azad edilmiş ərazilərdə 14 çay, 9 su anbarı, 7 sututar mövcuddur. Araz, Bərgüşad, Tərtər, Həkəri, Oxçu, Lev, Zabux, Tutqun, Turağay, Bəsit, Qarqar, Quru, Xaçın və Kondələn çaylarının bəzilərinin üzərində "Xudafərin", "Sərsəng", "Qız Qalası", "Xaçınçay", "Aşağı Köndələnçay", "Suqovuşan", "Köndələnçay-1", "Köndələnçay-2" və "Ağdamkənd" su anbarları yerləşir. Bu anbarlardan ən böyüyü "Xudafərin" (1 milyard 612 milyon kubmetr) su anbarıdır. Çaylardan ən böyüyü isə Araz çayıdır. Onun uzunluğu 1072 kilometrdir.

Ona görə də işğaldan azad edilmiş ərazilərdə su ehtiyatlarının düzgün planlaşdırılması və istifadəsi təkcə regional deyil, ümumilikdə ölkənin su təhlükəsizliyi baxımından mühüm əhəmiyyət daşıyır. Prezident İlham Əliyev dəfələrlə vurğulayıb ki, Qarabağ və Şərqi Zəngəzurda su ehtiyatlarının bərpası və səmərəli idarə olunması bölgənin yenidən qurulmasının əsas dayaqlarından biridir. Məhz bu kontekstdə dövlət başçısı bir neçə gün əvvəl "Bakı şəhəri və Abşeron yarımadasında su təchizatı, tullantı və yağış suları sistemlərinin təkmilləşdirilməsinə dair 2025-2035-ci illər üçün Dövlət Proqramı"na həsr olunan müşavirədə işğaldan azad olunmuş ərazilərdə su təsərrüfatının, xüsusilə də su anbarlarının strateji roluna xüsusi diqqət çəkdi: "Biz son 20 il ərzində dörd böyük su anbarı inşa etmişik və bu su anbarlarının potensialı 500 milyon kubmetrdən çoxdur. Onların arasında xüsusilə "Taxtakörpü", "Şəmkirçay" su anbarlarını qeyd etməliyəm. Əgər bu su anbarları tikilməsəydi, bu gün həm Bakının su təchizatı, həm də qərb zonasının su təchizatı böyük problemlərlə üzləşə bilərdi. "Taxtakörpü" su anbarı bizə imkan verdi ki, Samur çayının sularını "Ceyranbatan" su anbarına yığaq və orada ehtiyat yaransın. O cümlədən "Ceyranbatan" su anbarı tamamilə yenidən qurulmuşdur, yeni, müasir təmizləyici qurğular kompleksi inşa edilmişdir".



Qarabağ və Şərqi Zəngəzurda su anbarları regionun sosial-iqtisadi dirçəlişində və dayanıqlı inkişafında mühüm rol oynayır. Bu ərazilərin relyef və iqlim xüsusiyyətləri su ehtiyatlarının tənzimlənməsini zəruri etdiyindən mövcud su anbarları suvarma, içməli su təminatı və enerji istehsalı baxımından strateji əhəmiyyət daşıyır. Xüsusilə kənd təsərrüfatının bərpası və genişləndirilməsi su anbarları hesabına mümkün olur ki, bu da ərzaq təhlükəsizliyinin möhkəmləndirilməsinə mühüm töhfə verir. Azad olunmuş ərazilərdəki mövcud su anbarları həm də keçmiş köçkünlərin qayıdış və yaşayış məntəqələrinin yenidən qurulması prosesində əsas infrastruktur elementlərindən biridir. İçməli suya çıxışın təmin edilməsi, sənaye və sosial obyektlərin fasiləsiz su ilə təchizatı regionda həyatın canlanmasını sürətləndirir.

Onu da əlavə etsək ki, su anbarları "yaşıl enerji" konsepsiyası çərçivəsində elektrik enerjisinin istehsalına da imkan yaradır, mənzərə daha aydın görünür. Digər mühüm məqam isə su anbarlarının ekoloji funksiyasıdır. Onlar çay axınlarını tənzimləməklə daşqın və sel risklərini azaldır, torpaqların şoranlaşmasının qarşısını alır və ekosistemin bərpasına şərait yaradır. Bu səbəbdən də Qarabağ və Şərqi Zəngəzurda içməli su və suvarma layihələrinin icrası dövlət siyasətinin prioritet istiqamətlərindən biri kimi müəyyənləşdirilib.

Məlum müşavirədə Prezident İlham Əliyev son beş ildə bu məqsədlə görülən işlərə aydınlıq gətirib: "Vaxtilə torpaqlarımız işğal altında olanda Ermənistan dövləti bizə qarşı su terroru da həyata keçirirdi. "Sərsəng" və "Suqovuşan" su anbarlarının sularının bağlanması və sudan bir silah kimi istifadə edilməsi bizə böyük problemlər yaradırdı. Su lazım olan aylarda kəsilirdi, ondan sonra buraxılırdı və bu, böyük daşqınlara səbəb olurdu. Yəni, əslində, Ermənistan dövləti su terroru həyata keçirirdi. Bu gün isə "Suqovuşan" su anbarı, "Sərsəng" su anbarı tamamilə yenidən qurulub. Azad edilmiş digər torpaqlarda - Füzuli rayonunda "Köndələnçay" - üç su anbarı yenidən qurulub, Ağdam rayonunda "Xaçınçay" su anbarı yenidən qurulub. Laçın rayonunda tamamilə yenidən qurulmuş "Zabuxçay" su anbarı bu gün artıq istismardadır. Azad edilmiş ərazilərdə daha iki böyük su anbarının - "Həkəriçay", "Bərgüşadçay" su anbarlarının tikintisi də nəzərdə tutulur və artıq hazırlıq işləri gedir. Yəqin ki, biz bu il artıq praktik işlərə başlayacağıq".

Müasir dövrdə iqlim dəyişmələri, su qıtlığı riski və əhalinin artması fonunda su anbarlarının rolu gündəngünə aktuallaşır. Gələcək perspektivlər su ehtiyatlarının inteqrasiyalı idarə olunması, mövcud anbarların modernləşdirilməsi, yeni su anbarlarının inşası və su itkilərinin azaldılması istiqamətində tədbirlərin həyata keçirilməsini zəruri edir. Bu baxımdan su anbarları Azərbaycanın su təhlükəsizliyinin təmin edilməsində və davamlı inkişaf strategiyasında əsas dayaqlardan biri hesab olunur.

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*

# Qadın sahibkarlara dəstək davam edir

**Bu gün Azərbaycan iqtisadiyyatında qadın sahibkarlığı kiçik və orta biznesin dinamik inkişafda olan hissəsini təşkil edir. Qadın sahibkarlığının fəaliyyəti getdikcə artır.**



Statistika göstərir ki, kiçik və orta sahibkarlıq subyektləri sırasında qadınların sayı daha çoxdur. İri sahibkarlıq sahələrində onların təmsilçiliyi hələ ki, bir qədər məhdud xarakter daşıyır. Buna görə də əsas məsələlərdən biri qadınların iri biznes strukturlarında iştirakının genişləndirilməsi, eləcə də sahibkarlığın müxtəlif seqmentlərində onların rolunun artırılmasıdır. Bu istiqamətdə həm iqtisadi təşviq mexanizmlərinin, həm də sosial dəstək tədbirlərinin tətbiqi mühüm əhəmiyyət kəsb edir.

Hazırda qadın sahibkarlar üçün xüsusi proqramlar mövcuddur. Həmin proqramlar çərçivəsində güzəştli kreditlərin verilməsi, aşağı faizli maliyyə resurslarına çıxış imkanlarının yaradılması əsas dəstək alətləri kimi çıxış edir. Bu maliyyə mexanizmləri qadın sahibkarların biznes fəaliyyətinin genişləndirilməsinə, yeni təşəbbüslərin reallaşdırılmasına və rəqabət qabiliyyətinin artırılmasına şərait yaradır.

Milli Məclisin deputatı Vüqar Bayramov qadınların iqtisadi fəallığının artırılmasında və onların sahibkarlıq mühitinə daha fəal şəkildə cəlb olunmasında bu təşəbbüslərin xüsusi əhəmiyyətə malik olduğunu vurğulayır: "Görülən tədbirlər nəticəsində qadın sahibkarlığının institusional bazasının möhkəmləndirilməsi istiqamətində mühüm addımlar atılmışdır. Gözləntilər ondan ibarətdir ki, növbəti mərhələlərdə mikro, kiçik və orta sahibkarlıq sahələrində qadınların payı daha da artacaq, eyni zamanda iri biznes strukturlarında da qadınların təmsilçiliyi genişlənəcək. Bu proses ümumilikdə ölkənin iqtisadi inkişafına, sosial bərabərliyin təmin olunmasına və inklüziv iqtisadi mühitin formalaşmasına töhfə verəcək".

Ölkəmizdə fərdi sahibkarların 23 faizindən çoxunu qadınlar təşkil edir. Bu rəqəmlə biz dünyada həmin sahədəki göstəriciyə yaxınlaşmışıq. Ümumilikdə, o nəticəyə gəlinir ki, Azərbaycan qadınlarının sahibkarlıq potensialı yüksəkdir, lakin bu potensialın tam gerçəkləşməsi üçün institusional dəstək, maliyyə imkanları və sosial şəraitin daha da yaxşılaşdırılması tələb olunur. Və bu dəstək göstərilir də! "Uğurlu tərəfdaşlıqda xanım sahibkarlar" layihəsi bu dəstək çərçivəsində gerçəkləşən tədbirlərdən biridir. Layihə 2024-cü ildən start götürüb. Burada əsas məqsəd qadın sahibkarlar arasında işgüzar əlaqələrin genişləndirilməsidir. Layihədə müxtəlif sektorların nümayəndələri olan qadın sahibkar iştirak edirlər. Layihə çərçivəsində müxtəlif mövzularda təlimlər və tədbirlər, işgüzar səhər yeməkləri, ofis-istehsalat ziyarətləri və sosial fəaliyyətlər təşkil olunur.

Keçən ilin yanvarında Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA), "Marsol Group" və İş Adamları Cəmiyyətinin Milli Assosiasiyasının (İCMA) birgə təşkilatçılığı, Kapital Bankın rəsmi tərəfdaşlığı ilə "Uğurlu tərəfdaşlıqda xanım sahibkarlar" layihəsi ikinci dəfə başlanıb və mart ayında yekunlaşıb.

Yekunda "Uğurlu tərəfdaşlıqda xanım sahibkarlar" layihəsinin məqsədi bir daha vurğulanıb. Layihədə müxtəlif sektorlardan olan 70-dən çox qadın sahibkarın iştirak etdiyi bildirilib. Layihə çərçivəsində onların biznes bacarıqlarının artırılması üçün idarəetmə, satış, netvörkinq kimi mövzularda təlimlər keçirilib. Ofis və istehsalat ziyarətləri layihə iştirakçılarına yeni biznes əlaqələri qurmağa, istehsal müəssisələrinin fəaliyyəti ilə yaxından tanış olmaqda imkan yaradıb. Sahibkarlara dəstək göstərən müxtəlif qurumların nümayəndələri ilə təşkil olunmuş işgüzar görüşlərdə qadın sahibkarlar biznes üçün imkanlar, dövlət dəstəyi tədbirləri barədə ətraflı məlumat əldə ediblər. Layihə çərçivəsində də müxtəlif növ sosial fəaliyyətlər də təşkil olunub. İşgüzar görüş və təlimlərdə fərqlənən qadın sahibkarlara sertifikatlar və hədiyyələr təqdim edilib.

Budur, KOBİA, "Marsol Group"un və İCMA-nın birgə təşkilatçılığı ilə "Uğurlu tərəfdaşlıqda xanım sahibkarlar" layihəsinə yenidən start verildi. "Bakı KOB evi"ndə keçirilən tədbirdə iştirakçılara ölkəmizdə qadın sahibkarlığının inkişafına dəstək tədbirləri, bu sahədə özəl sektorun təşəbbüsləri və layihə barədə ətraflı məlumat verildi. Bir daha qeyd edildi ki, artıq üçüncü ildir keçirilən layihənin məqsədi qadın sahibkarların iqtisadi və sosial həyatda fəallığının artırılması və onlar arasında işgüzar əlaqələrin genişləndirilməsidir.

Builki layihəyə müxtəlif sektorları təmsil edən 100-dən çox qadın sahibkar qatılacaq. Layihə çərçivəsində müxtəlif mövzularda təlim, seminar və master-klaslar, işgüzar görüşlər, ofis-istehsalat ziyarətləri və sosial fəaliyyətlər təşkil olunacaq.

Layihə bu dəfə də mart ayında yekunlaşacaq. "Kapital Bank", "Məlhəm Beynəlxalq Hospital", "Corian Baku", "Ətirşah Parfüm", "Gizli Bahçe" restoranı və "Moon Group" layihə ilə tərəfdaşlıq edir və ona dəstək göstərirlər.

*Flora SADIQLI,*
*"Azərbaycan"*

**İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin "Azexport" portalı 2026-cı il üçün ilk ixrac sifarişini Amerika Birləşmiş Ştatlarının Kaliforniya ştatından qəbul edib. "Azexport" portalının rəhbəri Ayxan Qədəşov və Kaliforniyada yerləşən ticarət şəbəkəsinin rəhbəri Aleks Alşvenq arasında keçirilən onlayn təqdimat və müzakirələr nəticəsində bu barədə razılıq əldə olunub.**

# Yeni ildə ilk sifariş Amerikadan gəldi

Mərkəzdən bildirilir ki, sifarişlər əsasən Azərbaycanda istehsal edilən emal olunmuş məhsulları, şirniyyat və qənnadı məmulatlarını, eləcə də bəzi milli kulinariya məhsullarını əhatə edir. Hazırda qəbul olunmuş sifarişlər üzrə beynəlxalq sertifikatlaşdırma, ABŞ tələblərinə uyğun etiketləmə, logistika və gömrük prosedurlarının təşkili istiqamətində zəruri işlər həyata keçirilir. Bu proseslərin məqsədi Azərbaycan məhsullarının Kaliforniya bazarına sistemli və davamlı çıxışını daha da möhkəmləndirməkdir.

Qeyd edək ki, "Azexport" portalı yerli istehsalçıların məhsullarının beynəlxalq alıcılara təqdim olunması, eləcə də onlayn platformalar vasitəsilə rəqəmsal reklam və marketinq kampaniyalarının həyata keçirilməsi üzrə fəaliyyət göstərir. Portalda qeydiyyat və təqdim olunan xidmətlər istehsalçılar üçün ödənişsizdir.

Məlum olduğu kimi, dünya bazarında məhsul satışı üzrə rəqabət getdikcə güclənir. Bu prosesdən qazanclı çıxmağın iki əsas şərti var - keyfiyyətli məhsul istehsal etmək və məhsulun alıcıya doğru-dürüst tanıdılması. Ölkəmizdə qeyri-neft sektorunda fəaliyyət göstərən sahibkarların buna daha çox ehtiyacı var. Çünki dünya bazarına məhsul çıxarmaq üçün onlar bir çox hüquqi və gömrük peosedurunu öyrənməli və onlara əməl etməlidirlər. Amma bu da reallıqdır ki, həmin sahədə fəaliyyət göstərən kiçik və orta sahibkarların belə bir imkanı yoxdur. "Azexport" portalının yaradılması da məhz buna xidmət edir. İqtisadi İslahataların Təhlili və Kommunikasiya Mərkəzinin operatoru olduğu "Azexport" portalı yerli istehsalçılara bu sahədə yardım göstərir. Portalın fəaliyyət göstərdiyi ötən dövrə diqqət yetirdikdə görürük ki, onun dəstəyi ilə qeyri-neft məhsulları ixracında mühüm addımlar atılıb. "Azexport" portalının nümayəndələri yerli sahibkarlara dəstək olmaq məqsədilə dünyanın müxtəlif yerlərində keçirilən mötəbər tədbirlərdə iştirak edərək ölkəmizdə istehsal olunan qeyri-neft məhsullarının ixracının tanıdılmasında önəmli rol oynayırlar. Bu günlər "Azexport" portalının rəhbəri Ayxan Qədəşov Polşanın Krakov şəhərində Milli Luis Universitetində "Yeni üfüqlər: Rəqəmsal iqtisadiyyat və dəyişən dünyaya cavablar" mövzusunda keçiriləcək konfransda təqdimatla çıxış edəcək. O, konfransda həmçinin 7 ölkənin nüfuzlu universitetlərinin nümayəndələrinə portal barədə məlumatlar verəcək.

Qeyd edək ki, İİTKM-in icraçı direktorunun müavini Ramil Hüseynli və "Azexport" portalının rəhbəri Ayxan Qədəşovun həmmüəllif olduqları və portalın fəaliyyətindən bəhs edən "Digital Trade, Government Policy, and Economic Growth: The Case of Azerbaijan" ("Rəqəmsal ticarət, hökumət siyasəti və iqtisadi artım: Azərbaycan nümunəsi") adlı məqalə konfransa təqdim edilib və uğurlu nümunə kimi qəbul olunub. Konfransın təşkilat komitəsi "Süni intellekt əsrində yeni iqtisadiyyat: imkanlar, risklər və cəmiyyətin transformasiyası" adlı panel müzakirəsində "Azexport" təcrübəsinin iştirakçılara təqdim edilməsinə qərar verib və müəlliflərə dəvət məktubu göndərib. Məlumat üçün bildirək ki, əsas təşkilatçıları Polşa, Bosniya və Herseqovina, Portuqaliya, Ukrayna, Bolqarıstan, Monteneqro, Sloveniya və Serbiyanın nüfuzlu universitet və elmi tədqiqat mərkəzləri olan konfransa təqdim edilən məqalədə "Azexport" portalının təqdim etdiyi imkanlardan, ölkəmizdə rəqəmsal ticarətin inkişafı istiqamətində fəaliyyətdən, xüsusən də yerli məhsulların ixracının asanlaşdırılmasında sözügedən portalın oynadığı roldan bəhs olunur.

*Rüstəm KAMAL,*
*"Azərbaycan"*

## *Hakan FİDAN:* "Zəngəzur dəhlizinin Azərbaycanın istədiyi kimi həyata keçəcəyinə inanırıq"

"Zəngəzur dəhlizinin Azərbaycanın istədiyi kimi həyata keçəcəyinə inanırıq. Azərbaycanı Naxçıvana quru yolu ilə bağlayacaq bu dəhliz həm Orta dəhliz, həm də Türkiyənin türk dünyasına açılması baxımından olduqca mühümdür".



AZƏRTAC xəbər verir ki, bu fikirləri Türkiyənin xarici işlər naziri Hakan Fidan İstanbulda ilin yekunlarına dair mətbuat nümayəndələri ilə görüşü zamanı ifadə edib.

Azərbaycan ilə Ermənistan arasında paraflanan sülh sazişinin imzalanaraq həyata keçirilməsini gözlədiklərini vurğulayan nazir deyib: "Dünən də Vaşinqtonda Tramp Beynəlxalq Sülh və Rifah Marşrutunun (TRIPP) fəaliyyətə başlaması üçün Ermənistanla bəzi razılıqlar əldə edilib. Bu sənəd, onun bəndləri ətrafında Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov ilə iki saata yaxın müzakirəmiz oldu. Çərçivə barədə dövlət başçımıza da məruzə etdim. Lakin sülh sazişinin tam təmin olunması üçün Ermənistanın həyata keçirməsi lazım olan öhdəliklər var. Ermənistanın Baş naziri Nikol Paşinyanın bu istiqamətdə göstərdiyi müsbət iradəni dəstəkləyirik".

## *"Yeni Asır" qəzeti:* "Zəngəzur dəhlizi Türkiyə üçün geoiqtisadi riskləri azaldacaq"

"Orta dəhlizin mühüm tərkib hissəsi olacaq Zəngəzur dəhlizi İraqın Bəsrə şəhərindən gələn "İnkişaf Yolu" layihəsi ilə birlikdə qlobal ticarət yollarında baş verə biləcək böhranların səbəb olacağı geoiqtisadi risklərin qarşısını almaqda Türkiyəyə mühüm təsir göstərəcək. Bu, Ankaranın geosiyasi arenadakı mövqeyini də əhəmiyyətli dərəcədə gücləndirəcək".

AZƏRTAC xəbər verir ki, türkiyəli ekspert Bülent Erandaç bu barədə "Yeni Asır" qəzetində yazıb.




Ekspert Avropa ilə Asiya arasında yükdaşıma müddətini əhəmiyyətli dərəcədə azaldan Orta dəhlizin üstünlüklərinə diqqət çəkib. "Zəngəzur dəhlizi və "İnkişaf Yolu"nun açılması ilə Türkiyə dəmir yolu şəbəkəsi vasitəsilə 21 ölkəyə çıxış əldə edəcək. Analitiklər Çin və Avropa ölkələri arasında yük daşımalarının ən azı 30 faizinin tezliklə dəmir yolu ilə həyata keçiriləcəyini proqnozlaşdırırlar. Məqalənin müəllifi Zəngəzur dəhlizini "Türkiyə üçün xüsusi əhəmiyyətli meqalayihə" adlandıraraq bildirib: "Zəngəzur dəhlizi ilə birbaşa daşınan yüklərin həcmi 75 milyard dollara çatacaq".

Bülent Erandaç Orta dəhlizin və "İnkişaf Yolu" layihəsinin qlobal ticarətdə gələcəyin dəhlizlərinə çevriləcəyinə əminliyini ifadə edib.

Ekspert dövlət başçıları İlham Əliyev və Rəcəb Tayyib Ərdoğanın Azərbaycanın qərb bölgələri ilə Naxçıvan Muxtar Respublikası arasında marşrutun inkişaf etdirilməsi səylərini də vurğulayıb.

B.Erandaç Azərbaycan və Türkiyə prezidentlərinin regionun inkişaf perspektivləri ilə bağlı sitatlarına istinadla yazır: "Zəngəzur dəhlizi növbəti 50 ildə qlobal logistikada yüksələn bir trend olacaq".

## "Zəngəzur dəhlizi yalnız iqtisadi deyil, geosiyasi amil kimi qiymətləndirilməlidir"

"Zəngəzur dəhlizi Türkiyə üçün geosiyasi xarakter daşıyaraq Cənubi Qafqaz və Mərkəzi Asiya ölkələri ilə iqtisadi-ticarət əlaqələrini genişləndirir, qarşılıqlı münasibətlərin daha da möhkəmlənməsini təmin edir. Eyni zamanda Azərbaycandan ayrı düşmüş Naxçıvan Muxtar Respublikasının da Türkiyə ilə nəqliyyat və tranzit sahəsində dərin əməkdaşlıq əlaqələrinin inkişafına təkan verəcək".

Bu sözləri AZƏRTAC-a açıqlaması zamanı türkiyəli iqtisadçı-ekspert Hakan Topkurulu deyib.

O bildirib ki, bu dəhlizin iqtisadi mahiyyəti ilə yanaşı, siyasi xarakteri də var.

"Dəhliz Türkiyə ilə Azərbaycanı, eləcə də Mərkəzi Asiyadakı türk dövlətlərini birləşdirir, onların daha yaxın əməkdaşlığını, bir-birini beynəlxalq arenada əsaslı dəstəkləməsini təmin edir, iqtisadi, siyasi, sosial və mədəni birliyin yaranaraq qlobal siyasi proseslərdə layiqli mövqe tutmasına imkan verir. 6 müstəqil türk dövləti birlikdə 4,7 milyon kvadratkilometr ərazini əhatə edir. Müqayisə üçün qeyd edək ki, Avropa İttifaqı ölkələrinin ərazisi ümumilikdə 4 milyon kvadratkilometrdir. Həmçinin 6 müstəqil türk dövləti birlikdə ümumi dünya əhalisinin 2 faizindən çoxunu təşkil edir. Bu gün müstəqil türk dövlətlərinin toplam göstəricilərinə baxdıqda, ərazilərinə görə dünya ölkələri arasında 7-ci, əhali sayına görə 9-cu, ümumi daxili məhsul (ÜDM) istehsalına görə 16-cı, təbii qaz ehtiyatlarına görə Rusiya, İran və Qətərdən sonra 4-cü, neft istehsalına görə 9-cu, qızıl və bor ehtiyatlarına görə 1-ci, uran ehtiyatına görə isə 2-ci yerdə dayanır. Qeyd edək ki, 1,1 trilyon dollar milli gəliri və 560 milyard dollarlıq xarici ticarət dövriyyəsi ilə türk dövlətləri böyük iqtisadi potensiala malikdirlər", - deyə ekspert nəzərə çatdırıb.

H.Topkurulu vurğulayıb ki, Zəngəzur dəhlizi bu potensialı dünya bazarına çıxaracaq, nəqliyyat və tranzit yükdaşımanı təmin edərək hər bir dövlətin iqtisadi inkişafına töhfə verəcək: "Orta dəhlizin davamı olaraq Zəngəzur dəhlizi ABŞ və Avropanı maraqlandırdığı üçün onun beynəlxalq əhəmiyyəti böyükdür. Zəngəzur dəhlizi yalnız iqtisadi deyil, həmçinin geosiyasi bir amil kimi qiymətləndirilməli və gələcəkdə türk birliyinin yaranaraq vahid gücə çevrilməsi üçün həyata keçirilən layihə kimi dəyərləndirilməlidir".

# 2026-cı il sülh ili ola bilər

## Bu, Ermənistanın daxili siyasi iradəsindən asılıdır

"Son 6-7 ay ərzində, xüsusilə Əbu-Dabi görüşü və onun məntiqi davamı kimi 8 avqustda ABŞ-də əldə olunan razılaşmadan sonra formalaşan yeni reallıqlar göstərir ki, sülh artıq abstrakt bir çağırış deyil, konkret siyasi və hüquqi addımlar vasitəsilə əldə oluna biləcək reallığa çevrilib. Bununla belə sülhün zaman çərçivəsi yalnız diplomatik niyyətlərlə məhdudlaşmayıb, prosesin taleyi, təbii ki, Ermənistan hakimiyyətinin daxili siyasi iradəsinin mövcudluğundan və mövcud hüquqi maneələrin aradan qaldırılmasından birbaşa asılıdır".

Bu fikirləri "Azərbaycan" qəzetinə Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin aparıcı məsləhətçisi Fuad Abdullayev deyib. O bildirib ki, hazırda mövcud proseslərdə müsbət dinamikanı müşahidə etmək mümkündür. Prezident İlham Əliyevin müvafiq tapşırığı əsasında Azərbaycan Gürcüstan ərazisindən keçməklə Ermənistana yanacaq tədarükünə başlayıb. Eyni zamanda Azərbaycan ərazisi üzərindən və Gürcüstan marşrutu ilə Qazaxıstan və Rusiyadan taxıl və digər yüklərin daşınması həyata keçirilir ki, bu da regionda nəqliyyat və humanitar kommunikasiyaların tədricən bərpasına xidmət edir. "Bununla yanaşı, ötən günlərdə Azərbaycan növbəti dəfə humanizm və sülhə sadiqliyinə əsasən təqsirləndirilən 4 erməniəsilli şəxsi Ermənistana təhvil verib. Bu addım rəsmi Bakının sülhə sadiqliyinin və etimad quruculuğu tədbirlərini real, praktik



müstəvidə dəstəklədiyini göstərir", - deyə o əlavə edib.

Siyasi şərhçi müharibədən sonra Azərbaycan tərəfindən irəli sürülən 5 prinsip əsasında aparılan danışıqların tərəflər arasında sülh gündəliyinin konturlarını formalaşdırdığını qeyd edib. Onun sözlərinə görə, sərhədlərin delimitasiya və demarkasiyası üzrə təmasların davam etdirilməsi, kommunikasiyanın açılması mövzusunun gündəmdə qalması, eləcə də sülh sazişinin mətni ətrafında aparılan texniki müzakirələr prosesin geridönməzliyinə dair müəyyən ümidlər yaradır: "Lakin 2026-cı ildə real və dayanıqlı şəkildə sülhün bərqərar olması üçün həlledici məqam, əlbəttə ki, Ermənistanın daxilində baş verəcək siyasi proseslərlə bağlıdır. Bu ölkədə qarşıdan gələn parlament seçkiləri yalnız hakimiyyət dəyişikliyi ehtimalı baxımından deyil, həm də Ermənistanın gələcək strateji kursunun müəyyənləşdirilməsi nəzərindən əhəmiyyət daşıyır. Seçkilərdən sonra gündəmə gələ biləcək referendum isə sülh prosesinin taleyində əsas açar rolunu oynaya bilər. Məlum olduğu kimi, Ermənistan konstitusiyasının preambulasında istinad edilən müstəqillik bəyannaməsində Azərbaycana qarşı ərazi iddialarının mövcudluğu sülh müqaviləsinin bağlanması üçün əsas hüquqi maneələrdən biridir".

F.Abdullayev vurğulayıb ki, bu iddialar aradan qaldırılmadığı təqdirdə uzunmüddətli sülh üçün sənəd imzalamaq mümkün deyil. Məhz buna görə də Ermənistanda konstitusiyanın dəyişdirilməsi, ərazi iddialarından rəsmi və hüquqi şəkildə imtina olunması sülhün yalnız kağız üzərində deyil, real siyasi və hüquqi müstəvidə təmin olunmasının əsas şərtidir.

Ekspert qeyd edib ki, nəticə etibarilə 2026-cı ilin sülh ili olması ehtimalı yüksəkdir, lakin seçkilərdə fors-major halların yaranması da istisna edilmir: "Buna görə də biz öz sayıqlığımızı qoruyub saxlamalıyıq. Sülh Ermənistanın daxili siyasi iradəsindən, seçkilərdən sonra verilən strateji qərarlardan və ən əsası Ermənistan cəmiyyətinin Azərbaycana qarşı konstitusiya səviyyəsində ərazi iddialarının aradan qaldırılmasından asılı olacaq. Azərbaycan tərəfi üçün sülh yalnız beynəlxalq hüquqa əsaslanan qarşılıqlı ərazi bütövlüyünün tanındığı və geridönməz mexanizmlərlə təmin edilmiş formatda qəbul edilə bilər. Bu şərtlər yerinə yetirildiyi halda 2026-cı il həqiqətən Cənubi Qafqaz üçün yeni və daha sabit mərhələnin başlanğıcı ola bilər".

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

# *Ermənistanda seçki gərginliyi:* sülh və müharibə partiyalarının qarşıdurması güclənir

Ermənistanda növbəti parlament seçkilərinin 2026-cı il iyunun 7-də keçirilməsi planlaşdırılır. İqtidarla müxalifət arasında seçki gərginliyi isə indidən başlayıb. "Hraparak" nəşrinin yazdığına görə, "Daşnaksütyun" partiyası yaxın günlərdə seçkilərdə iştirak formatı ilə bağlı açıqlama verəcək. İddialara əsasən, "Daşnaksütyun" sabiq prezident Robert Koçaryanla ittifaq şəklində seçkilərdə iştirak edəcək. İstisna edilmir ki, ittifaqa digər siyasi qüvvələr də qoşulacaq.

"Daşnaksütyun"un yenidən Robert Koçaryanla ittifaqa girmə ehtimalı 2021-ci il seçkilərində sınaqdan keçmiş "Hayastan" blokunun bərpası anlamına gəlir. Həmin ilin iyun ayında keçirilmiş seçkilərdə Paşinyanın partiyası 53.91 faiz, Robert Koçaryanın "Hayastan" bloku isə 21.09 faiz səs qazanmışdı. İttifaqın əsas ideyası "tarixi Ermənistan" ideologiyası və revanşizm idi. Müxalifət seçkiyə əvvəlki şüarlarla gedir. "Daşnaksütyun"un xaricdəki diaspora gücü və Koçaryanın daxildəki maliyyə-inzibati resursları Nikol Paşinyanın "Real Ermənistan" konsepsiyasına qarşı əsas alternativ kimi təqdim olunur. Müxalifət sülh prosesi istiqamətində atılan addımları, o cümlədən regional layihələri "suverenliyin itirilməsi" və "türk ekspansiyası" kimi qələmə verərək seçicilərdə çaşqınlıq yaradır.



Seçkiöncəsi üç əsas blok formalaşmaqdadır. Mövcud situasiyada əliqanlı Robert Koçaryan və Serj Sarkisyanın, yəni "Hayastan" alyansı ilə "Şərəfim var" blokunun rəhbərlik etdiyi qüvvələr ciddi reytinq kasadlığına rəğmən hələ də əsas müxalifət hesab olunurlar. Bu qüvvələr daha çox revanşist və Rusiyayönümlü ritorika ilə seçicini cəlb etməyə çalışırlar. Digər düşərgə isə köhnə rəhbərləri qəbul etməyən, lakin Baş nazir Nikol Paşinyandan da narazı olan kütlənin təmsilçiləridir. Onlar cəmiyyət üçün nisbətən yeni simalar sayılan keçmiş ombudsman Arman Tatoyan və ya İrəvanın sabiq meri Ayk Marutyan ətrafında birləşməyə cəhd edənlərdir. Keşiş Baqrat Qalstanyanın rəhbərlik etdiyi "Vətən naminə Tavuş" hərəkatı müxalifəti dini-mənəvi dəyərlər ətrafında birləşdirməyə çalışsa da, siyasi proqramın zəifliyi səbəbindən geniş dəstək ala bilmir.

Ermənistan müxalifəti seçkiöncəsi media resursları üzərindən Paşinyana qarşı kampaniya aparır. "Hayastan" fraksiyasının deputatı Qarnik Danielyan Baş nazirin Azərbaycana yeni ərazi güzəştləri edəcəyini deyir. O iddia edir ki, Ermənistan Azərbaycana dəhliz verərsə, bu, İrəvanın sonu olacaq: "Paşinyan artıq Azərbaycana yeni ərazi güzəştləri ediləcəyini bəyan edib. Söhbət Tavuş vilayətindən və Kərki kəndindən gedir". Erməni deputat əlavə edib ki, əgər Azərbaycan Ermənistanda iqtisadi köklərini dərinləşdirərsə, bir neçə ildən sonra Ermənistan artıq mövcud olmayacaq.

Paşinyan seçki kampaniyasını "Real Ermənistan" və "Tarixi Ermənistan" qarşıdurması üzərində qurur. O, müxalifəti uydurma "xəyali Ermənistan" arxasınca getməkdə və ölkəni yenidən müharibəyə sürükləməkdə ittiham edir. Müxalifət isə Paşinyanı "satqın", "xain" və "məğlub lider" kimi qələmə verməklə, Azərbaycan və Türkiyənin tələblərini qeyd-şərtsiz yerinə yetirməkdə, milli maraqları satmaqda günahlandırmaqla onun dəstəyini azaltmağa çalışır. Müxalifətin əsas etiraz mövzusu Azərbaycanın sülh müqaviləsi üçün şərt qoyduğu konstitusiya dəyişikliyidir. Rusiya ilə münasibətlərin gərginləşməsi fonunda revanşist dairələr Moskvanın dəstəyi ilə Paşinyanı devirməyə, ən azından seçkidə məğlub etməyə ümid bəsləyirlər.

Ermənistan hökumətinin xarici dezinformasiya və hibrid təhdidlərə qarşı Avropa İttifaqından dəstək istəyi isə ona dəlalət edir ki, Paşinyan hakimiyyəti Moldovadakı ssenarinin Ermənistanda təkrarlanacağından ehtiyat edir. Baş nazirin "Moldova ssenarisi" qorxusu əsaslıdır. Rusiyanın seçkilərdə Paşinyanı məğlub etmək üçün bütün hibrid alətlərdən, yəni dezinformasiya, kilsənin təzyiqləri və iqtisadi rıçaqlardan istifadə edəcəyi şübhə doğurmur.

Qərbin 2026-cı il seçkilərində Nikol Paşinyana dəstəyi açıq siyasi-iqtisadi müstəviyə keçib. Avropa İttifaqı (Aİ) və ABŞ üçün Paşinyan sadəcə rəhbər deyil, həm də Ermənistanın Rusiya orbitindən kənarlaşdırılması prosesində real tərəfdaşdır. ABŞ-nin vasitəçiliyi ilə Azərbaycanla sülh sazişi layihəsinin paraflanması Paşinyanın daxili auditoriyaya "müharibə təhlükəsini bitirən lider" kimi təqdim olunmasına kömək etdi. Həmçinin 2026-cı ilin iyunundakı seçkilərdən cəmi bir neçə həftə əvvəl İrəvanda keçirilməsi planlaşdırılan Avropa Siyasi Birliyi (EPC) Sammiti də Qərbin Paşinyana "seçki hədiyyəsi" hesab oluna bilər. Avropa QHT-ləri və fondları Ermənistanda "vətəndaş cəmiyyətinin gücləndirilməsi" adı altında dolayı yolla Paşinyanı təbliğ edən layihələri maliyyələşdirirlər. Qərb gözəl bilir ki, müxalifətin hakimiyyətə gəlməsi Rusiyanın regiona tam qayıdışı deməkdir.

Müxalifətin revanşist ritorikası Paşinyanı daha ehtiyatlı davranmağa vadar edir. Paşinyan sülh müqaviləsini "Real Ermənistan" konsepsiyası çərçivəsində imzalamağa hazır olduğunu bəyan edən yeganə ağlı başında erməni rəhbəridir. Gedişat göstərir ki, Azərbaycanın əsas şərti olan Ermənistan Konstitusiyasından Azərbaycana qarşı ərazi iddialarının çıxarılması yalnız Paşinyan hakimiyyətdə qalarsa və referendum keçirərsə mümkündür. Revanşist müxalifətin hakimiyyətə gəlməsi ilə sülh prosesi tamamilə dondurula və ya ləğv edilə bilər. Düzdür, Paşinyanın zəif reytinqlə imzalayacağı hər hansı sənədin daxildə ciddi legitimlik probleminə yol açması ehtimalı da güclüdür. Lakin alternativin müharibə vəd edən revanşistlər olduğunu nəzərə alsaq, Paşinyan ermənilər arasında "ən az pis variant"dır.

Paşinyanın ideoloji xətti seçicilərə çox sadə bir seçim təklif edir. Ya "real Ermənistan"da normal, rifah halında yaşamaq, ya da utopik "böyük Ermənistan" nağılı uğrunda boş yerə ölmək. Əgər erməni toplumu Ağrı dağı (Ararat) xülyasından və Qarabağ iddiasından tamamilə əl çəkməsə, Türkiyə və Azərbaycanla münasibətləri düzəltməsə, Ermənistan bir dövlət kimi yox olacaq.

***İsmayıl QOCAYEV,***
***"Azərbaycan"***

## ABŞ-nin özəl sektorunun Azərbaycan bazarına marağının artması strateji tərəfdaşlığın iqtisadi dayaqlarını gücləndirir

"ABŞ Ticarət və İnkişaf Agentliyinin (USTDA) regional direktoru Karl Kressin rəhbərlik etdiyi nümayəndə heyətinin Azərbaycana səfəri Bakı-Vaşinqton münasibətlərində yeni mərhələnin konturlarını aydın şəkildə ortaya qoyur. Bu səfər təkcə texniki əməkdaşlıq çərçivəsində keçirilən görüşlər toplusu deyil, həm də ABŞ-Azərbaycan strateji tərəfdaşlığının dərinləşdirilməsi baxımından mühüm siyasi və iqtisadi mesajlar ehtiva edir".



Bu sözləri AZƏRTAC-a açıqlamasında beynəlxalq münasibətlər üzrə amerikalı ekspert Peter Tase söyləyib.

O bildirib ki, səfər zamanı aparılan müzakirələrin mərkəzində ticarət, sənaye və regional iqtisadi layihələrin olması tərəflərin münasibətləri daha praktik və nəticəyönümlü müstəviyə keçirmək niyyətindən xəbər verir. Xüsusilə dəmir yolu infrastrukturu, telekommunikasiya, kosmik texnologiyalar və süni intellekt tətbiqləri üçün məlumat mərkəzlərinin inşası ilə bağlı müzakirələr Azərbaycanın gələcək inkişaf prioritetlərinin ABŞ-nin texnoloji və maliyyə imkanları ilə uzlaşdırıldığını göstərir. Bu, əməkdaşlığın artıq klassik enerji tərəfdaşlığı çərçivəsindən çıxaraq rəqəmsal və innovativ sahələrə keçdiyini təsdiqləyir.

"Diqqətçəkən məqamlardan biri də bu əməkdaşlığın siyasi əsaslarının möhkəm institusional baza üzərində qurulmasıdır. Belə ki, 2025-ci il avqustun 8-də Azərbaycan və ABŞ prezidentlərinin Ağ Evdə keçirilən görüşü iki ölkə arasında strateji tərəfdaşlığın yeni sütunlarını formalaşdırıb. ABŞ nümayəndə heyətinin Bakıdakı görüşləri də həmin razılaşmaların praktik müstəvidə icrasına yönəlmiş addım kimi dəyərləndirilə bilər. Görüşlərdə TRIPP marşrutunun xüsusi vurğulanması ABŞ-nin regional bağlantılara və alternativ nəqliyyat dəhlizlərinə artan marağının göstəricisidir. Orta dəhlizin genişlənməsi, enerji və logistika marşrutlarının şaxələndirilməsi fonunda Azərbaycan Avrasiyanın əsas tranzit və enerji mərkəzlərindən biri kimi ön plana çıxır. Bu reallıq Bakının regional diplomatiyasını və iqtisadi siyasətini daha da əhəmiyyətli edir", - deyə P.Tase vurğulayıb.

Ekspert əlavə edib ki, ABŞ-nin özəl sektorunun Azərbaycan bazarına marağının artması strateji tərəfdaşlığın iqtisadi dayaqlarını gücləndirir. İnfrastruktur, logistika və bərpaolunan enerji sahələrinə mümkün investisiyalar təkcə iqtisadi fayda deyil, həm də uzunmüddətli siyasi etimadın göstəricisi kimi qiymətləndirilə bilər. Azərbaycanın geosiyasi mövqeyi, enerji təhlükəsizliyindəki rolu və regional iqtisadi təşəbbüslərdə artan çəkisi fonunda Vaşinqton üçün etibarlı tərəfdaş kimi çıxış etməsi bu əməkdaşlığın gələcəkdə daha da dərinləşəcəyinə əsas verir.

## *Gürcü politoloq:* "TRIPP Cənubi Qafqaz üçün strateji yolun başlanğıcıdır"

"TRIPP layihəsindən danışarkən onu yalnız ayrıca bir nəqliyyat təşəbbüsü kimi deyil, Cənubi Qafqaz ölkələri qarşısında dayanan daha genişmiqyaslı strateji vəzifənin tərkib hissəsi kimi qiymətləndirmək lazımdır".



Bu fikirləri AZƏRTAC-a açıqlamasında Gürcüstan Strateji Analiz Mərkəzinin regional proqramlar üzrə direktoru politoloq Gela Vasadze bildirib.

Onun sözlərinə görə, söhbət Cənubi Qafqazın vahid geoiqtisadi, perspektivdə isə geosiyasi məkan kimi formalaşmasından gedir: "Bu məkan elə qurulmalıdır ki, region ölkələri qlobal müsbət çağırışlara cavab verə bilsin və eyni zamanda mənfi ssenarilərin, yəni Cənubi Qafqaz dövlətlərinin dünya və regional güc mərkəzlərinin qarşıdurmasında "proksi" alətinə çevrilməsi cəhdlərinin qarşısını ala bilsin".

Gela Vasadzenin sözlərinə görə, bu məqsəd qısa müddətdə əldə edilə biləcək nəticə deyil, lakin istənilən strateji proses ilk addımdan başlayır ki, məhz TRIPP layihəsi bu baxımdan ilk və prinsipial addımdır.

O qeyd edib ki, simvolik çəkisinə görə TRIPP bu gün Bakı-Tbilisi-Ceyhan layihəsi ilə müqayisə oluna bilər. Məhz BTC boru kəməri vaxtilə Gürcüstanın və Azərbaycanın müstəqilliyinin möhkəmlənməsində, dayanıqlı inkişafında təməl rol oynamışdı.

Politoloqun fikrincə, TRIPP yalnız Qərbi Zəngəzurla Naxçıvan arasında nəqliyyat bağlantısı demək deyil. Bu layihənin icrası Ermənistanın Azərbaycan və Türkiyə ilə nəqliyyat kommunikasiyalarının açılması üçün əsas şərtdir. Eyni zamanda Ermənistanın İranla dəmir yolu əlaqələrinin bərpası baxımından da mühüm əhəmiyyət daşıyır. TRIPP-ın həyata keçirilməsi Gürcüstan üçün də yeni strateji imkanlar yaradır: "Bu, Gürcüstanın Cənub-Qərb nəqliyyat marşrutuna qoşulması ilə İranın "Bəndər-Abbas", "Çabahar" limanlarından Azərbaycan və Ermənistan ərazilərindən keçməklə Gürcüstan limanlarına, oradan isə Avropaya çıxış əldə etmək deməkdir. Burada əsas mühüm məqam isə regionda bütün nəqliyyat kommunikasiyalarının açılmasıdır. Bu proses Cənubi Qafqazın hər üç ölkəsinin inkişafına güclü təkan verəcək və regionda davamlı, möhkəm sülhün formalaşması üçün real zəmin yaradacaq".

Gela Vasadze deyib ki, qarşıda böyük işlər dayanır, lakin əsas məsələ prosesə başlanılmasıdır. İstənilən yol ilk addımla başlayır. Bu baxımdan TRIPP layihəsi Cənubi Qafqaz üçün strateji yolun başlanğıcıdır və bu yolu gedən mütləq nəticəyə çatacaq.

# Tarixi zənginlik və strateji perspektivlər



Azərbaycan qədim tarixə, zəngin mədəniyyətə və mənəvi irsə malik ölkədir. Bu torpaq minilliklər boyu müxtəlif sivilizasiyaların qovuşduğu nadir məkanlardan biri olub. Məhz bu səbəbdən Azərbaycanın mədəni irsi yalnız bir xalqın deyil, ümumbəşəri dəyərlərin ayrılmaz tərkib hissəsi kimi dəyərləndirilir.

Qayaüstü rəsmlərdən tutmuş möhtəşəm memarlıq abidələrinə, şifahi xalq ədəbiyyatından muğam sənətinə qədər uzanan bu irs xalqımızın milli kimliyini, tarixi yaddaşını və mənəvi varlığını ifadə edir. Mədəni irs təkcə keçmişin izi deyil. Maddi və qeyri-maddi mədəniyyət nümunələri xalqımızın tarixi yaddaşını, dünyagörüşünü, estetik zövqünü və milli kimliyini yaşadan əsas amillərdəndir.

Mədəni irs anlayışı təkcə tarixi abidələr, memarlıq nümunələri və arxeoloji tapıntılarla məhdudlaşmır. Bura folklor, musiqi, ədəbiyyat, dil, adət-ənənələr, mərasimlər, sənətkarlıq növləri, yaşam tərzi və mənəvi dəyərlər də daxildir. Qobustan qayaüstü rəsmləri, Azıx mağarası, İçərişəhər memarlıq kompleksi, Şəki Xan Sarayı, Qarabağ xalçaçılıq məktəbi, muğam və aşıq sənəti bu zəngin irsin parlaq nümunələridir.

Mədəni irs xalqın keçmişini bu günə, bu gününü isə gələcəyə bağlayan möhkəm körpüdür. Bu irsi qoruyan xalq öz tarixini, kimliyini və suverenliyini qorumuş olur. Məhz buna görə də mədəni irsin mühafizəsi hər bir dövlət üçün strateji əhəmiyyət daşıyan məsələdir.

Azərbaycanda mədəni irsin qorunması və inkişafı müstəqilliyin ilk illərindən dövlət siyasətinin prioritet istiqamətlərindən biri kimi müəyyənləşdirilib. Son illər tarixi-mədəni abidələrin bərpası, mədəniyyət müəssisələrinin yenilənməsi, regionlarda mədəni infrastrukturun inkişafı, qeyri-maddi mədəni irsin qorunması ilə bağlı ardıcıl olaraq həyata keçirilən tədbirlər xüsusilə təqdirəlayiqdir.

Azərbaycanın bir sıra mədəni irs nümunələrinin UNESCO-nun Dünya İrs Siyahısına və Qeyri-Maddi Mədəni İrs Siyahısına daxil edilməsi bu sahədə aparılan məqsədyönlü siyasətin nəticəsidir. Belə ki, UNESCO-nun Dünya İrs Siyahısına daxil edilmiş İçərişəhər, Qobustan qayaüstü rəsmləri, Şirvanşahlar Saray Kompleksi, eləcə də qeyri-maddi mədəni irs nümunələri - muğam, aşıq sənəti, xalçaçılıq xalqımızın mədəni zənginliyinin beynəlxalq təsdiqidir.

Təəssüf ki, 30 ilə yaxın Ermənistanın işğalı altında qalmış ərazilərimizdə mədəni irsimizə qarşı məqsədli və planlı şəkildə mədəni soyqırımı həyata keçirilib. Qarabağ və Şərqi Zəngəzur bölgələrində mədəni irsimiz uzun illər ərzində sistemli şəkildə dağıdılıb. Şuşa, Ağdam, Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı və digər yerlərdə işğalçılar dünya və ölkə əhəmiyyətli Azərbaycan abidələrini vandalizmə məruz qoyublar. İşğalçılar tərəfindən bu ərazilərdə yüzlərlə tarixi abidə, məscid, türbə, qəbiristanlıq, muzey və digər mədəniyyət ocaqları məhv edilib və ya təhqir olunub. Məscidlərimizdə heyvan saxlanılıb, qədim qəbir daşları dağıdılıb. O cümlədən Qarabağ bölgəsində yerləşən alban məbədlərinin saxtalaşdırılaraq erməniləşdirilməyə cəhd göstərilməsi tarixin təhrifinə yönəlmiş vandalizm aktı idi. Bu faktlar beynəlxalq hüququn, mədəni irsin qorunmasına dair konvensiyaların kobud şəkildə pozulmasıdır.

2020-ci ilin payızında Ermənistan silahlı qüvvələrinin növbəti təxribatı səbəbindən başlayan və Azərbaycan Ordusunun Zəfəri ilə bitən Vətən müharibəsi Qarabağ və Şərqi Zəngəzur torpaqlarını əsarətdən qurtardı. Bu, möhtəşəm tarixi Qələbə təkcə ərazi bütövlüyümüzün bərpası deyil, eyni zamanda mədəni irsimizin yenidən dirçəldilməsi üçün geniş imkanlar yaratdı.

İşğaldan azad edilmiş ərazilərdə aparılan bərpa və yenidənqurma işlərinin əsas istiqamətlərindən biri də mədəni irsin bərpasıdır. Dağıdılmış məscidlərin, tarixi abidələrin, mədəniyyət müəssisələrinin bərpası dövlət tərəfindən xüsusi diqqət mərkəzində saxlanılır. Şuşa şəhərinin Azərbaycanın mədəni paytaxtı elan edilməsi bu siyasətin əhəmiyyətini göstərir. Şuşada Molla Pənah Vaqifin məqbərəsinin, Yuxarı Gövhər ağa məscidinin, Xurşidbanu Natəvanın, Üzeyir bəy Hacıbəylinin və Bülbülün evlərinin bərpası milli-mədəni yaddaşın dirçəlişinin bariz nümunəsidir.

Azərbaycanın zəngin və özünəməxsus mədəni irsinin qorunması, inkişaf etdirilməsi və dünyada tanıdılması istiqamətində işlər daha da uğurla davam etdiriləcək. Belə ki, milli mədəniyyətin uzunmüddətli inkişaf strategiyası müəyyənləşdirilib. Prezident İlham Əliyevin təsdiqlədiyi "Azərbaycan mədəniyyəti - 2040" Azərbaycan Respublikasının Mədəniyyət Konsepsiyası"nın üç mərhələdə həyata keçirilməsi nəzərdə tutulur. Birinci mərhələ 2026-2030-cu illər, ikinci mərhələ 2031-2035-ci illər, üçüncü mərhələ isə 2036-2040-cı illəri əhatə edəcək.

Azərbaycanın milli kimliyinə əsaslanan müasir mədəniyyət modelinin yaradılması, inkişafı və 2040-cı ilədək digər mədəniyyətlərlə qarşılıqlı əlaqələrinin genişləndirilməsi üçün dövlət mədəniyyət siyasətinin istiqamətlərini müəyyən edən və mədəniyyət sahəsi ilə bağlı fəaliyyətə vahid, sistemli və dayanıqlı yanaşmanı təmin edən strateji planlaşdırma sənədi olan "Azərbaycan mədəniyyəti - 2040" Konsepsiyasında mədəni irsin qorunması ilə bağlı çağırışlar yer alıb.

Konsepsiyada mədəni irsin qorunması və inkişafına dair əsaslandırma belədir: "Azərbaycan mədəni irsi Azərbaycan mədəniyyətinin tərkib hissəsidir. Mədəni irs cəmiyyətin keçmişinə aid dəyərləri özündə ehtiva etməklə yanaşı, onları gələcək nəsillərə ötürmək üçün əsas vasitə rolunu oynayır. Mədəni irsin qorunmasının təkmilləşdirilməsi məqsədilə davamlı və sistemli fəaliyyətin həyata keçirilməsi, həmçinin beynəlxalq mədəni mübadilədə iştirakın genişləndirilməsi istiqamətində tədbirlər görülməsi zəruridir".

Sənəddə mədəni irsin yalnız qorunması deyil, onun müasir dövrün tələblərinə uyğun şəkildə yaşadılması, iqtisadi və sosial inkişafla əlaqələndirilməsi də əsas vəzifələr sırasındadır.

"Azərbaycan mədəniyyəti - 2040" Konsepsiyasında mədəni irsin rəqəmsallaşdırılması, elmi tədqiqatların genişləndirilməsi, mədəniyyət sahəsində innovativ yanaşmaların tətbiqi, regionların mədəni potensialının artırılması, yaradıcı sənayelərin inkişafı əsas vəzifələr sırasındadır.

Konsepsiyanın mühüm istiqamətlərindən biri də işğaldan azad edilmiş ərazilərdə mədəni həyatın bərpası, yeni mədəniyyət mərkəzlərinin yaradılmasıdır.

Mədəni irsin qorunması yalnız dövlətin deyil, bütövlükdə cəmiyyətin məsuliyyətidir. Bu prosesdə alimlərin, tarixçilərin, mədəniyyət xadimlərinin, jurnalistlərin fəal iştirakı vacibdir. Mədəni irsimizin beynəlxalq səviyyədə tanıdılması, onun saxtalaşdırılmasına, təhrif olunmasına qarşı beynəlxalq informasiya mübarizəsinin gücləndirilməsi də xüsusi əhəmiyyət daşıyır.

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*

# Tolerantlıq və mədəni müxtəlifliyin Azərbaycan modeli



Azərbaycan tarix boyu mədəniyyətlərin, dinlərin, dillərin və müxtəlif həyat tərzlərinin qovuşduğu unikal məkan olub. Ölkəmizdə fərqliliklər heç vaxt parçalanmaya səbəb olmayıb. Əksinə, milli birliyin, qarşılıqlı hörmətin və tolerantlığın möhkəm təməli formalaşıb. Məhz bu xüsusiyyət Azərbaycan cəmiyyətini regionda və dünyada seçilən, özünəməxsus mədəni kimliyə malik bir topluya çevirib.

2020-ci ilin payızında başlayan 44 günlük Vətən müharibəsi bu birliyin sadəcə tarixi yaddaşında deyil, real həyatda, döyüş meydanında necə sarsılmaz gücə çevrildiyini bütün dünyaya nümayiş etdirdi. Azərbaycanın etnik, dini və mədəni müxtəlifliyini təşkil edən bütün xalqlar işğalçıya qarşı vahid amal, bayraq və Vətən naminə ölüm-dirim savaşında bir yumruq kimi birləşdilər. Döyüş meydanında çiyin-çiyinə vuruşan, arxa cəbhədə ürəkləri bir döyünən xalqımız sübut etdi ki, Azərbaycanı güclü edən təkcə silahı və ordusu deyil, onun sarsılmaz milli birliyi, torpaq sevgisi və xalqın dövlətinə sədaqətidir. Bu birlik düşmənə qarşı ən güclü cavab, tarix qarşısında isə əbədi qürur salnaməsi oldu.

Ulu Öndər Heydər Əliyevin formalaşdırdığı azərbaycançılıq ideologiyası milli birliyin və mədəni müxtəlifliyin ahəngdar vəhdətini təmin edən əsas siyasi-fəlsəfi xətt kimi tarixə düşüb. Ümummilli Lider mədəniyyəti yalnız estetik və ya yaradıcılıq sahəsi kimi deyil, dövlətin ideoloji dayağı, milli kimliyin qoruyucusu və cəmiyyətin mənəvi sütunu kimi dəyərləndirirdi. Ulu Öndərin ölkəyə rəhbərliyi dövründə dinindən və dilindən asılı olmayaraq heç kimə fərq qoyulmadan mədəniyyət xadimlərinə göstərilən diqqət, onların sosial rifahının yaxşılaşdırılması, fəxri adların verilməsi, sənətkarların xatirəsinin əbədiləşdirilməsi ardıcıl və sistemli dövlət siyasətinin tərkib hissəsinə çevrildi.

Bu siyasət indi Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilərək müasir çağırışlara uyğun inkişaf etdirilir. Dövlət başçısının mədəniyyət sahəsində apardığı siyasətin əsas prioriteti minilliklərin süzgəcindən keçmiş milli-mənəvi dəyərlərin qorunması ilə yanaşı, onların qlobal mədəni mühitə inteqrasiyasını təmin etməkdir. Məhz bu baxımdan "Azərbaycan mədəniyyəti - 2040" Azərbaycan Respublikasının Mədəniyyət Konsepsiyası yalnız strateji sənəd deyil, milli mədəniyyətimizin gələcəyə yönəlmiş yol xəritəsidir.

Müasir Azərbaycan cəmiyyətində mədəni müxtəlifliyin qorunması milli birliyə alternativ deyil, onun ayrılmaz tərkib hissəsidir. Fərqli etnik, dini və mədəni qrupların öz kimliyini sərbəst şəkildə yaşatması dövlət tərəfindən təmin olunur və bu müxtəliflik vahid azərbaycançılıq ideyası ətrafında birləşir. Bu model göstərir ki, güclü dövlət vahidliklə yanaşı, fərqliliyə hörmət üzərində qurulur.

Konkret şəkildə deyə bilərik ki, Azərbaycan birmənalı və ardıcıl surətdə dövlət səviyyəsində mədəni müxtəlifliyin qorunmasına və inkişafına böyük önəm verir. Bu siyasət çərçivəsində ölkənin müxtəlif bölgələrində tarixi və dini irs nümunələrinin bərpası və qorunması işləri sistemli şəkildə həyata keçirilir. Kilsələr, sinaqoqlar və digər dini ibadətgahlar yenidən təmir edilərək həm yerli əhalinin, həm də turistlərin istifadəsinə verilir. Bu təşəbbüslər yalnız memarlıq və tarixə hörmətin ifadəsi deyil, eyni zamanda Azərbaycanın tolerantlıq, sülh və dini dözümlülük prinsiplərinə sadiqliyinin ən yaxşı nümunəsidir. Dövlətin bu diqqəti mədəniyyətin və dinlərin birgəyaşayış modeli kimi uğurla inkişaf etməsinə imkan yaradır və Azərbaycanı bölgədə nümunəvi tolerantlıq mərkəzinə çevirir.

Azərbaycan yalnız tarixi torpaqlarında fərqli mədəniyyətlərin və xalqların birləşdiyi məkan deyil, həm də bütün dinlərin sülh və qarşılıqlı hörmət şəraitində mövcud olduğu bir ölkədir. Aparılan ardıcıl dövlət siyasəti nəticəsində Azərbaycan bütün beynəlxalq dini konfessiyaların rahatlıqla müzakirələr apardığı, dialoq və əməkdaşlıq mühiti yarandığı bir məkana çevrilib. Burada dini müxtəliflik dövlətin və cəmiyyətin dayanıqlı inkişafının təməl daşıdır. Fərqliliklər ayrı-seçkilik deyil, həmrəyliyin və vəhdətin zənginliyi kimi qiymətləndirilir. Azərbaycan tolerantlıq modelini təkcə öz xalqı üçün deyil, bütün region və dünya üçün nümunəvi bir təcrübə kimi təqdim edir.

"Azərbaycan mədəniyyəti - 2040" Konsepsiyasında mədəniyyətin həyat tərzinin ayrılmaz hissəsi kimi təqdim olunması təsadüfi deyil. Mədəniyyət insanın dünyagörüşünü formalaşdırır, onun cəmiyyətlə münasibətlərini tənzimləyir və sosial ədalətin bərqərar olunmasına xidmət edir. Sağlam mədəni mühit formalaşdırılmadan nə dayanıqlı inkişafdan, nə də rəqabətqabiliyyətli insan kapitalından danışmaq mümkündür.

Ərazi bütövlüyü və dövlət suverenliyi tam bərpa olunmuş Azərbaycanda mədəniyyət yeni inkişaf mərhələsinə qədəm qoyur. Qarabağ və Şərqi Zəngəzurda mədəni həyatın dirçəldilməsi, tarixi-mədəni abidələrin bərpası, yeni mədəniyyət ocaqlarının yaradılması milli birliyin praktik təzahürüdür. Bu proses göstərir ki, mədəniyyət təkcə keçmişin yadigarı deyil, həm də gələcəyin qurulmasında mühüm strateji alətdir.

Nəticə etibarilə Azərbaycan cəmiyyətində mədəni müxtəlifliyin qorunması və milli birliyin möhkəmləndirilməsi paralel şəkildə həyata keçirilən, bir-birini tamamlayan proseslərdir. "Azərbaycan mədəniyyəti - 2040" Konsepsiyası bu vəhdətin ideoloji, hüquqi və institusional əsaslarını müəyyən etməklə mədəniyyətin dövlət və cəmiyyət həyatındakı rolunu yeni mərhələyə yüksəldir. Bu sənəd Azərbaycanın təkcə bugününü deyil, gələcək nəsillərin milli-mənəvi kimliyini də təmin edən strateji baxışın ifadəsidir.

*Elşən QƏNİYEV,*
*"Azərbaycan"*

# *"Şəhərsalma və Memarlıq İli"ndə əsas hədəflər:* Qarabağın yenidən qurulması və Bakının inkişafı

Azərbaycanda 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan edilməsi dövlətçilik tariximizin ilk mühüm mərhələsini, Konstitusiyanın qəbulunun 30 illiyini və dövlət müstəqilliyimizin bərpasının 34-cü ildönümünü əhatə etməklə milli yaddaşın möhkəmləndirilməsinə mühüm töhfə verdi. Bu qərar hüquqi dövlət prinsiplərinə sadiqliyin və milli suverenliyin qorunmasının dövlət siyasətində prioritet təşkil etdiyini bir daha nümayiş etdirdi. Bu məntiqi və ideoloji ardıcıllığın davamı kimi Prezident İlham Əliyevin müvafiq sərəncamı ilə 2026-cı ilin "Şəhərsalma və Memarlıq İli" elan edilməsi Azərbaycan dövlətinin zəngin tarixi-mədəni irsimizə verdiyi yüksək qiymətdir.

Bunu AZƏRTAC-a açıqlamasında Bakı Şəhər İcra Hakimiyyəti başçısının tabeliyində "Dendrologiya Bağı" publik hüquqi şəxsin İdarə Heyəti sədrinin müavini biologiya üzrə fəlsəfə doktoru, dosent Samirə Bağırova deyib.

Onun sözlərinə görə, "Şəhərsalma və Memarlıq İli"ndə qarşıda mühüm məqsədlər durur. İlk növbədə şəhərlərin baş planlarının yenilənməsi, şəhərsalma norma və qaydalarının müasir tələblərə uyğunlaşdırılması, şəhərsalmada memarlıq irsinin qorunması, tarixi binaların inventarlaşdırılması və bərpası, qoruq ərazilərinin genişləndirilməsi və mühafizəsi mexanizmlərinin təkmilləşdirilməsi, müasir şəhər mühiti və infrastrukturunun qurulması, mədəniyyət və istirahət parklarının, meydanların, piyada zonalarının genişləndirilməsi və digər layihələrin icrası ön planda olacaq.

"Azərbaycanın işğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında həyata keçirilən tikinti-quruculuq işləri ekoloji cəhətdən təmiz, "yaşıl texnologiyalar"a əsaslanır. Hazırda 30 ilə yaxın bir müddətdə işğal al-



tında qalmış və yerləyeksan edilmiş şəhər və qəsəbələrimiz milli memarlıq üslubunda yenidən qurulur. "Şəhərsalma və Memarlıq İli"ndə həmin proses sürətlə davam edəcək.

Son illər ölkəmiz artıq yeni şəhərsalma və memarlıq mərkəzinə çevrilib. Bakıda milli memarlıq üslubunda inşa olunmuş binalar, yaşayış kompleksləri, ekoloji təmiz nəhəng şəhərsalma layihələri göz oxşayır. Sevindirici haldır ki, Bakı dünyanın ən təhlükəsiz, ekoloji təmiz turizm şəhərinə çevrilib. Azərbaycan dövləti şəhərsalmaya xüsusi diqqət ayırır. Belə ki, Bakı şəhərində gözoxşayan mədəniyyət və istirahət parkları salınır, nəqliyyat sistemi insanyönümlü olaraq yenidən qurulur. Paytaxtda 400-ə yaxın park yaradılıb və ya yenidən təmir edilib. Bu istiqamətdə həyata keçirilən siyasətin ana fəlsəfəsi dayanıqlı şəhər infrastrukturunun qurulması, sakinlər və turistlər üçün yüksək şəraitin yaradılmasıdır", - deyə o əlavə edib.

"Dendrologiya Bağı" olaraq dövlət başçısının çağırışlarına və elan olunan ilin ruhuna uyğun fəaliyyətimizi quraraq işlərimizi sürətləndirmişik. Dendrologiya Bağının qorunması, bağ ərazisindəki bitki növlərinin, yaşıllıq sahələrinin genişləndirilməsi, zənginləşdirilməsi, onlara qulluq edilməsi, nadir və nəsli kəsilməkdə olan bitki növlərinin mühafizəsinin təşkili, eyni zamanda bitkilərin xəstəlik və zərərvericilərinə qarşı yüksək səmərəliliyə söykənən inteqrir mübarizə tədbirlərinin hazırlanmasını həyata keçiririk. Ölkə rəhbərliyinin, Bakı Şəhər İcra Hakimiyyətinin həyata keçirdiyi ətraf mühitin mühafizəsi, biomüxtəlifliyin qorunması, yaşıl şəhər, ekoloji təmiz ətraf mühit və dayanıqlı şəhər inkişaf strategiyasına Bakı şəhərinin Xəzər rayonunda, bütövlükdə Abşeron yarımadasında dəstək vermək əsas məqsədlərimizdəndir. "Şəhərsalma və Memarlıq İli"ndə qarşıda duran məqsədlərə əməl etmək hər bir vətəndaşın, alimin, məmurun, vətəndaş cəmiyyəti fəalının ümdə vəzifəsi olmalıdır", - deyə S.Bağırova qeyd edib.





# Vətən deyəndə...





● Yurdu yaşadan qəhrəmanlar

# Qəhrəmanların ömür və döyüş yolu gənc nəsillər üçün örnəkdir



**27 sentyabr 2020-ci ildə erməni təxribatı nəticəsində İkinci Qarabağ müharibəsi başlayanda Vətən təəssübü çəkən mərd oğullarımız heç bir çağırış gözləmədən silaha sarılaraq yurdumuzun müdafiəsinə qalxdılar. Bu cəsurlar döyüşlərə atıldılar ki, illərdən bəri davam edən erməni işğalına son qoysunlar. Düşmən tapdağında qalmış Qarabağı, eləcə də başqa bölgələrimizi işğalçılardan azad etsinlər. Elə ilk döyüşlərdən düşmənə sarsıdıcı zərbə vuran zabit və əsgərlərimiz məqsədlərinə çatdılar. Qarabağı da, onun ətrafındakı əraziləri də 30 ilə yaxın davam edən işğaldan azad etdilər. Azərbaycan xalqına Zəfər sevinci yaşatdılar.**

Təəssüflər ki, yurdumuzun azadlığı uğrunda gedən döyüşlərdə itkilərimiz də oldu. Bir-birindən cəsur olan oğullarımız torpaqlarımızın azadlığı naminə şirin canlarından keçdilər. Döyüşlərdə göstərdikləri igidlikləri ilə adlarını qəhrəmanlıq tariximizə yazdılar. Belə cəsur oğullarımızdan biri də baş leytenant Vüsal Sübbün oğlu Babayev idi. Gənc zabit İkinci Qarabağ müharibəsinin ilk günlərindən artilleriyaçı kimi yurdumuzun müdafiəsinə atıldı, döyüşlərdə böyük hünər göstərdi. Vətənimizin azadlığı naminə canından keçdi, torpaq uğrunda şəhid oldu. Özü o günü görməsə də, arzuları çiçək açdı. Qarabağ və Şərqi Zəngəzur erməni işğalından azad edildi, ölkəmizin ərazi bütövlüyü və suverenliyi tam bərpa olundu.

Yurdumuzun azadlığı uğrunda gedən əməliyyatlar zamanı döyüş tapşırığını yerinə yetirərkən şəhid olmuş baş leytenant Vüsal Babayevin ömür və döyüş yoluna nəzər salaq. Öyrəndik ki, Vüsal gələcək nəsillərə nümunə olacaq bir ömür yaşayıb, şərəfli döyüş yolu keçib.

## Körpə dünyaya gəlişi ilə ailəyə böyük sevinc gətirdi

8 yanvar 1992-ci ildə Xəzərin sahilində yerləşən Pirallahı qəsəbəsində yaşayan Sübbun kişinin ailəsində bir oğlan uşağı dünyaya göz açdı. Uşaq gəlişi ilə ailəyə xoş ovqat gətirdi. Valideynləri vüsala yetişdiklərinə görə körpənin də adını Vüsal qoydular. Xeyir-dualarını verərək "Adı ilə böyüsün, xoşbəxt olsun!" dedilər.

Kiçik yaşlarından hərbçi olmağı arzulayan Vüsal 2010-cu ildə orta təhsilini başa vurduqdan sonra Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə (indiki Hərbi İnstitut) üz tutdu. Hazırlığı yaxşı olduğuna görə Vüsal imtahanlarda yüksək nəticə göstərəcəyinə əmin idi və xəyalları gerçəkləşdi. Vüsal ali hərbi məktəbə qəbul oldu. Onun qazandığı uğur yaxınlarını ürəkdən sevindirdi.

Orta məktəbdə olduğu kimi, Vüsal hərbi təhsil müəssisəsində də dərslərini yaxşı oxuyurdu. Yerüstü artilleriya ixtisasına, silahların sirlərinə dərindən yiyələnirdi. Gələcəyin zabiti olacaq Vüsal Babayev təkcə nəzəri biliklər qazanmır, əməli məşğələlərdə də fəal iştirak edirdi. 2014-cü ildə ali hərbi təhsilini uğurla başa vurub "leytenant" rütbəsi alan Vüsal bir il Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzində zabit ixtisasartırma kursunu da uğurla keçdi. Gənc zabit 2015-ci ildə taqım komandiri kimi cəbhə bölgəsində yerləşən hərbi hissədə xidmətə başladı. Vüsal zabit kimi şərəf dolu xidmət yollarında ilk addımlarını atdı.

2015-ci ilin yay günlərində, iyulunda qızların içindən sevib-seçdiyi Aynur adlı gözəl bir xanımla ailə qurdu. Yaxınları, doğmaları onun toyunda qol açıb oynadılar, gənc ailəyə xoşbəxtlik arzuladılar. Vüsalına yetişən Vüsal da yaxınlarının arzuladığı kimi xoşbəxt günlər yaşamağa başladı.

## Aprel döyüşlərində iştirak etdi

Gənc zabit 2016-cı ildə ordumuzun böyük uğuru ilə yekunlaşan Aprel döyüşlərində də fəal iştirak etdi. Vüsal Babayev dörd gün davam edən bu döyüşlərdə Tapqaraqoyunlu və Talış kəndləri istiqamətində vuruşdu. Zabit kimi üzərinə düşən döyüş tapşırıqlarının öhdəsindən bacarıqla gəldi.

2017-ci il martın 12-si Vüsalın həyatında yaddaqalan bir gün oldu. Həmin gün onun qız övladı dünyaya göz açdı. Körpənin adını Selcan qoydular. Selcan gəlişi ilə ailəyə böyük sevinc bəxş etdi. Belə bir sevinci Vüsal 4 yanvar 2019-cu ildə də yaşadı. Həmin gün onun ikinci qız övladı dünyaya gəldi. Körpənin adını Rüqəyya qoydular. Ailənin sevinci daha da artdı.

Artıq Vüsal baş leytenant rütbəsi almışdı. Xidmət illəri arxada qaldıqca onun döyüş təcrübəsi də artırdı. Başqa hərbçilərimiz kimi, torpaqlarımızın uzun illər-



dən bəri erməni işğalında qalması onu da narahat edirdi. Yurdumuzun ərazilərinin işğaldan azad olunacağı günü intizarla gözləyirdi. Gənc zabit əmin idi ki, getdikcə güclənən ordumuz müharibə olarsa, erməni qəsbkarlarına qalib gələcək. Baş leytenant Vüsal Babayev topaqlarımızın azadlığı uğrunda başlayacaq döyüşləri intizarla gözləyirdi. Arzulayırdı ki, işğalçılarla vuruşsun, mərmilərini düşmənin başına yağdırsın.

Axır ki, gənc zabitin gözlədiyi gün gəldi. 27 sentyabr 2020-ci ildə erməni işğalçılarının təxribatı nəticəsində İkinci Qarabağ müharibəsi başladı. Baş leytenant Vüsal Babayevin xidmət etdiyi hərbi hissənin şəxsi heyəti də elə həmin gün əks-hücum əməliyyatlarına cəlb olundu. Onun döyüş yolu Füzuli rayonundan başladı. Vüsal mərmiləri düşmənlərin başına dolu kimi yağdırırdı. Dəqiq atəş zərbələri nəticəsində işğalçıların ön mövqeləri yarılmışdı. Erməni qəsbkarları belə güclü əks-hücumların qarşısında çox dayana bilməyib geri çəkilirdi. Vüsal zabit kimi üzərinə düşən döyüş tapşırıqlarını peşəkarlıqla yerinə yetirərək hədəfləri dəqiq vururdu.

Vətən müharibəsi 24 gün idi ki, uğurla davam edirdi. Artıq Füzuli rayonunun mərkəzi erməni işğalçılarından azad olunmuşdu. Oktyabrın 21-i idi. Vüsalgil Füzuli rayonunun Gecəgözlü kəndində mövqe tutmuşdular. Torpaqlarımızın hər qarışı uğrunda qanlı döyüş gedirdi. Vüsalın ürəyindən keçirdi ki, mədəniyyət beşiyimiz olan Şuşa uğrunda da vuruşsun, onun azad olunmasında iştirak etsin. İstəyirdi ki, müharibədən qızları Selcanın, Rüqəyyanın, həyat yoldaşı Aynurun yanına qalib ordunun qalib zabiti kimi dönsün. Təəssüf ki, Vüsalın başqa arzuları kimi, bu arzusu da ürəyində qaldı. Oktyabrın 21-də Füzuli rayonunun Gecəgözlü kəndi uğrunda gedən döyüşdə şəhid oldu. Yaxınları oktyabrın 24-də Vüsalı acı göz yaşları içində İkinci Şəhidlər xiyabanında torpağa tapşırdılar. Gənc zabitin şərəf dolu ömrü bir payız günündə sona çatdı.

## Qəhrəmanlar unudulmur

Torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə göstərdiyi igidliyə görə Vüsal Sübbün oğlu Babayev Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə "Azəbaycan Bayrağı" ordeninə, "Vətən uğrunda" və "Füzulinin azad olunmasına görə" medallarına layiq görülmüşdür.

Gənc zabit Vüsal Babayev bu gün onu tanıyanların işıqlı xatirələrində yaşayır. Şəhid xatirələri kədərli olur. Amma şəhid zabit haqqında bu xatirələri dinləmək qürurvericidir. Çünki qəhrəmanların ömür və döyüş yolları hamımız üçün örnəkdir.

Həyat yoldaşı - Səbail rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin əməkdaşı Aynur Babayeva ilə iş yerində görüşüb söhbət etdik. Aynur xanım Vüsallı günlərindən söz açaraq dedi:

- Vüsal mənim üçün dünyanın ən əziz və doğma adamı idi. Həyatda doğmasını itirmək çox ağrılıdır. Təsəllim yalnız odur ki, həyat yoldaşım Vətən yolunda, yurdumuzun azadlığı uğrunda gedən döyüşlərdə şəhid olub. Vüsalın yoxluğu hər addımda hiss olunur. Mən Bakının qədim kəndlərindən biri olan Zirədə anadan olmuşam. Onunla uşaqlığımız demək olar ki, bir yerdə keçib. Xalamgil onlarla qonşu idi. Hər il məktəblər yay tətilinə bağlananda xalamgilə gedərdim. Həmin günlərdə Vüsalla bir yerdə oynayardıq. Günlərimiz bir-birindən şən keçərdi. Amma bir az böyüyəndən sonra xalamgilə getmədim. Ona görə də Vüsalla görüşə bilmirdik. İllər dayanmadan bir-birinin ardınca ötüb keçirdi. Artıq ikimiz də böyümüşdük, uşaqlığımız ötüb arxada qalmışdı. İçərişəhərdəki kitabxanada işləyirdim. Bilirdim ki, Vüsal hərbi məktəbdə oxuyur. Həyatda təsadüfi görüşlər çox olur. Bax, belə görüşlərdən biri bizi marşrut avtobusunda üz-üzə gətirdi. Amma əvvəlcə bir-birimizi tanımadıq. İkinci dəfə də təsadüfən görüşdük. Yəqin ki, tanış gəldiyimdən mənə çox diqqətlə baxırdı. Bu baxışlardan sevgi və məhəbbət süzülürdü. Hiss edirdim ki, tanış olmağa, söhbət etməyə məqam axtarır. Üçüncü dəfə rastlaşanda axır ki, dili "açıldı". Onda bildim ki, bu suyuşirin oğlan mənim uşaqlıq dostum Vüsaldır.

Onun Vüsal olduğunu bilsəm də, tanışlıq vermədim, bunu ona demədim. Amma "sirrimi" çox gizli də saxlaya bilmədim. Bir həftədən sonra hər şeyin üstü açıldı. Görüşmələrimizin ikinci ayında Vüsal sevgisini dilə gətirdi. Görünür ki, mənə qarşı olan məhəbbəti hələ uşaqlıqdan ürəyində var imiş. Mən bu sevgiyə biganə qalmadım.

2015-ci ildə, yay günlərinin birində ailə həyatı qurduq. Ömrümüzün ən gözəl günlərini yaşamağa başladıq. Vüsal çox ailəcanlı insan idi. Çox mehriban idik. İki qız övladımız dünyaya gəldi. Vüsal mənə təkcə həyat yoldaşı deyil, həm də ən etibarlı sirdaş və dost idi. O, Tanrıya yaxın adam idi. Namaz qılar, oruc tutardı. Heyf ki, xoşbəxt günlərimizin ömrü çox uzun olmadı.

Vüsal 27 sentyabr 2020-ci ildə döyüşlərə qatıldı. Evdən çıxanda dönə-dönə uşaqları mənə tapşırdı. Dedi ki, "Aynur, mən müharibəyə, erməni işğalçıları ilə döyüşə gedirəm. Dünyanın işlərini bilmək olmaz. Kim bilir, bəlkə də bu gedişin dönüşü olmayacaq. Uşaqlara yaxşı bax, gözün həmişə onların üstündə olsun". Vüsal cəbhədən tez-tez zəng vurub uşaqlardan xəbər tuturdu, uğurlu döyüşlədən danışırdı. Hər dəfə onun zəngi gələndə sanki dünyanı mənə verirdilər. Arxayın olurdum ki, sağ-salamatdır. Sonuncu dəfə mənimlə oktyabrın 21-də danışdı. Ondan sonra həyat yoldaşımdan zəng gəlmədi. Nigarançılığımdan bilmirdim ki, nə edim. İntizar içində ondan zəng gözləyirdim.

Oktyabrın 23-də telefonuma zəng gəldi. Amma bu, Vüsalın zəngi deyildi. Bu kədər dolu, qəm yüklü bir zəng idi. Çünki həmin zəng mənə həyat yoldaşımın ölüm xəbərini verdi. Acı xəbəri eşidən kimi dünya-aləm başıma fırlandı. Aman Allah, mən Vüsalsız necə yaşayacaqdım, onun yadigarlarını necə böyüdəcəkdim? Oktyabrın 24-də göz yaşları içində Vüsalı İkinci Şəhidlər xiyabanında torpağa tapşırdıq. Çox kədərli bir gün yaşadıq. Mənim üçün nə qədər çətin olsa da, çalışıram ki, Selcanı, Rüqəyyanı Vüsalın adına layiq böyüdüm...

Aynur xanımın ürəyi Vüsallı günlərin xatirələri ilə dolu idi. Amma kövrəldiyindən danışa bilmədi, dili söz tutmadı...

## Vüsal yaddaşlarda cəsur komandir kimi qalıb

Əsgər Rəşad Hüseynli 44 günlük Vətən müharibəsində Vüsalla çiyin-çiyinə vuruşub. O günləri xatırlayaraq dedi:

- Mən gənc zabit Vüsalla müharibədə tanış oldum. Çox cəsur, qorxmaz bir hərbçi idi. Gənc olsa da, döyüş təcrübəsi, hərbi biliyi yüksək idi. Onun komandası düşmən hədəflərini dəqiq vururdu. Erməni işğalçılarını geri oturtduqca, torpaqlarımızı azad etdikcə daha da həvəslə döyüşürdük. Ümid edirdik ki, Qarabağı azad edənədək çiyin-çiyinə olacağıq. Təəssüflər olsun ki, ümidlərimiz çiçək açmadı. Oktyabrın 21-də düşmən bizi minaatanlardan atəşə tutdu. Vüsal ayağından yaralandı. Əsgərlər Orxan Qəhrəmanov və Çərkəz Teyyublu komandiri bir az təhlükəsiz yerə apardılar ki, ona ilkin tibbi yardım göstərsinlər. Bu vaxt işğalçılar onları yenidən atəşə tutdular. Orxan da, Çərkəz də, komandirimiz Vüsal Babayev də şəhid oldular. Çox kədərli bir gün yaşadıq. Biz sonrakı döyüşlərdə torpaqlarımızı azad etdik, düşmənlərdən şəhidlərimizin qisasını aldıq.

Qarabağ müharibəsi əlili əsgər Tural Abdullayev komandirini belə xatırladı:

- Baş leytenant Vüsal Babayev komandirim idi. O, təlim-məşqlərdə bizə artilleriya qurğusunun sirlərini dərindən öyrətməyə çalışırdı. Deyirdi ki, müharibə zamanı hansı tərəfin zabiti, əsgəri hazırlıqlıdırsa, o tərəf də qalib gəlir. Biz də komandirin dediklərinə qulaq asaraq hərbi biliklərə yiyələnməyə çalışırdıq. Hazırlığımız yüksək olduğuna görə işğalçıların hədəflərini dəqiq vururduq. Üstümüzə hücum çəkən düşmənin zirehli texnikalarını məhv edir, atış mövqelərinin külünü göyə sovururduq. Vüsal Babayev çox alicənab, təvazökar insan idi. O çox cəsarətli, bacarıqlı zabit idi. Təəssüflər olsun ki, onu tez itirdik. Belə bir insanın ölümü bizim düşmənə qarşı olan qisas hissimizi daha da artırdı. Komandir yaddaşımda cəsur hərbçi kimi qalacaq. Onu həmişə bu cür xatırlayacağam.

Kövrəldiyindən Vüsalla bağlı olan xatirələrini bizimlə sonacan bölüşə bilməyən Aynur xanım üçün nə qədər çətin olsa da, həyat yoldaşının son tapşırığını yerinə yetirəcəyinə bizdə inam yarandı. Selcanı da, Rüqəyyanı da Vüsalın adına layiq böyüdəcək.

Yurdumuzun azadlığı uğrunda şəhid olmuş baş leytenant Vüsal Babayev haqqında eşitdiklərimizi xatırlaya-xatırlaya onun dəfn olunduğu Hərbi Memorial Məzarlığa getdik. Məzarı önündə dayanıb birdəqiqəlik sükutla xatirəsini yad etdik. Belə kövrək anlarda dilimizdən bu sözlər qopdu: "Məzarında rahat yat, Vüsal! Torpaqlarımız işğaldan azad olundu, ölkəmizin ərazi bütövlüyü və suverenliyi tam bərpa olundu. Qanınız yerdə qalmadı, düşməndən şəhidlərin qisası alındı!"

Pirallahı qəsəbəsindəki küçələrdən birinə Vüsal Babayevin adı verilib. Şəhidin adını daşıyan bu küçədən keçənlər cəsur zabiti hörmətlə anır, böyük ehtiramla yad edirlər. Bəli, şəhidlər heç vaxt unudulmur. Heç vaxt da unudulmayacaqlar. Onların igidliyi, qəhrəmanlığı gələcək nəsillər üçün örnək olacaq.

*Vahid MƏHƏRRƏMOV,*
*"Azərbaycan"*

● Ölməzliyə qovuşanlar

**Azərbaycan torpaqlarının 30 illik erməni işğalından azad edilməsi uğrunda gedən döyüşlərin iştirakçılarından biri də Şəmkir rayon Təzəkənd kəndinin yetirməsi Kamal Füzuli oğlu Süleymanovdur. O, 2002-ci il iyunun 18-də anadan olub. Orta təhsilini kənddəki Səməd Vurğun adına Təzəkənd orta məktəbində alıb. Həmyaşıdları kimi o da ermənilərin ölkəmizlə həmsərhəd kəndlərində, habelə Qarabağda törətdikləri vandallıqlardan çox narahat olurdu. Hələ məktəbdə oxuduğu zaman həmyaşıdları arasında bu barədə söhbət düşəndə "Vətən mənə oğul desə, nə dərdim", gedib ermənilərlə üzbəüz döyüşərdim, elədikləri vəhşiliklərin cavabını verərdim... özümü bir az rahat hiss edərdim" deyərdi.**



# Oğul belə olar

Kamal 2020-ci il iyulun əvvəllərində Vətənə borcunu yerinə yetirmək üçün Milli Ordu sıralarına çağrılanda çox sevindi. 2020-ci ilin sentyabrında ölkəmizin ərazi bütövlüyü uğrunda Ermənistan işğalçı qüvvələrinə qarşı Vətən müharibəsi başlayanda Kamal dörd ay idi Beyləqan istiqamətindəki "N" saylı hərbi hissədə xidmət edirdi. O, çoxdan bəri ürəyində gəzdirdiyi - erməni quldurlarından qisas almaq məqamının yetişdiyinə sevindi. Dərhal bölük komandirinə yaxınlaşıb "Komandir, döyüş bölgəsinə - ön cəbhəyə göndərilmək üçün seçim olsa, birinci məni nəzərdə tutun" deyib özünü ermənilərlə üzbəüz döyüşdə görmək istədiyini bildirdi...

Kamalın bu istəyi özündən xəbərsiz gündəmə gəldi. Artıq iki gündən sonra o, Xocavənd rayonunun Domi kəndində əsgər yoldaşları ilə hücum əmrini gözləyirdi.

Domidən başlayan döyüş yolu Dağdöşü, Qoçbəyli, Bulutan, Kiş, Köhnə Tağlar, Qarqar, Ağcakənd, Quşçular, nəhayət, Tuğ kəndindən keçmişdir. Bu kəndlərin işğaldan azad edilməsi uğrunda gedən döyüşlərdə onun igidlik göstərdiyi anlar çoxdur. Ancaq Kamal bu şücaətlərin hər birində bölük yoldaşlarının əvəzsiz xidməti olduğunu bildirir və heç vaxt unuda bilmədiyi bir epizodu dilə gətirərək deyirdi: "Gecə yarıdan sonra Xırmançay yaxınlığında beş nəfərlə erməni tərəfə kəşfiyyata getmişdik. Bizdən sağda, xeyli aralıda mina partlayışı nəticəsində qonşu alaydan olan Azərbaycan əsgərlərinin itki verdiyini hiss etdik, nəticədə erməni quldurlarının mühasirəsinə düşdük. İki gün ermənilərdən xəbərsiz onlarla eyni dərəni bölüşdük. Komandirin tapşırığına əsasən, yolumuzun üstündə keşikdə olan erməni quldurunu çətinliklə də olsa, səsi çıxmadan məhv etdik. Beləliklə, mən və yoldaşlarım komandir Adil Bəşirovun səyi nəticəsində mühasirədən itkisiz çıxa bildik".

Xocavənd erməni işğalçılarından azad edildikdən sonra komandanlığın əmri ilə Kamalın üzv olduğu alay Ağdama doğru istiqamət götürür. 1993-cü il iyunun 23-dən 85 faizi ermənilər tərəfindən işğal olunun rayonun ətraf ərazilərində mövqe tuturlar. Kamal Süleymanov kəşfiyyat tapşırıqlarını yerinə yetirmək üçün dəfələrlə Sarıcalı və Gülablı kəndlərinin ətrafındakı erməni səngərlərinə tək gedib, amma əli-qolu bağlı terrorçu erməni silahlısı ilə cüt qayıdır. O, Silahlı Qüvvələrin Ali Baş Komandanı tərəfindən Azərbaycan əsgərinin qarşısına qoyulan məqsədə nail olmaq üçün neçə-neçə döyüş və kəşfiyyat əməliyyatlarının əsas iştirakçılarından olur. Kamalın çevikliyinin, bəlkə də Tanrının qismətidir ki, onun və əsgər yoldaşlarının kəşfiyyat, həmçinin döyüş əməliyyatları həmişə uğurla nəticələnirdi.

Kamal qürur hissi ilə bildirir ki, 44 günlük müharibə dövründə onun bölüyündən ölüm-itim olmayıb. "Əlbəttə, yaralanan, xəstəxanaya düşənlər var idi, elə məqamlar olurdu ki, yaralı əsgər yoldaşımı kilometrlərlə çiynimdə özümlə aparırdım. Bölüyümüzdən olan yaralıların köməksiz qalmasına, əsir düşməsinə imkan vermədik..."

Bütün bu şücaətlər, genişliyi ilə bələd olmadıqları dağ və ərazilərdə terrorçu erməni qoşun birləşmələri üzərində qazanılan hər qələbə Kamalın və onun döyüş yoldaşlarının vətənə olan sevgisi sayəsində başa gəlirdi. Silaha sarılan igidlərimizin bir məqsədi var idi: ancaq irəli getmək, təpədən-dırnağadək silahlanmış terrorçu erməni silahlılarını torpaqlarımızdan qovmaq, Qarabağı işğalçılardan azad etmək. Sıravi əsgər Kamal Süleymanov bu sıradan olan hərbi tapşırıqları ləyaqətlə yerinə yetirdiyinə görə qulluq etdiyi hərbi hissənin rəhbərliyi tərəfindən dəfələrlə təşəkkür və fəxri fərmanlara layiq görülüb. Xocavənd rayonunun işğaldan azad edilməsi uğrunda aparılmış döyüş əməliyyatlarında şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin 25 dekabr 2020-ci il tarixli sərəncamı ilə "Xocavəndin azad olunmasına görə" medalı ilə, habelə Ali Baş Komandanın 29 dekabr 2020-ci il tarixli sərəncamı ilə "Ağdamın azad olumasına görə" medalı ilə təltif edilmişdir.

Kamal Süleymanov o günlərdə yaşadığı duyğu dolu anları əsgər yoldaşları, dostları və ailə üzvləri ilə bölüşəndə Zəfərə gedən yolun iştirakçısı və Müzəffər Azərbaycan Ordusunun sıralarında olması ilə fəxr edir. Döyüş yoldaşlarını, torpaqlarımız uğrunda canından keçən şəhidlərin igidliyini fəxarətlə anır. Onların vətənpərvərliyi haqqında qürurla danışır.

Vətən müharibəsi iştirakçısı Kamal Süleymanovla söhbətimizdən o da aydın oldu ki, Böyük Qələbə xəbərinin sevincini hər biri fərqli, amma oxşar duyğular içərisində dadıblar. Kamal Qələbə xəbərini döyüşə hazırlaşdıqları məqamda aldıqlarını deyir: "Noyabrın 9-u gecə döyüş hazırlığı aparılırdı, xəbər gəldi ki, düşmən təslim oldu".

Bu təslimiyyət uğurlu və qətiyyətli siyasətin, rəşadətli ordunun, yumruq kimi birləşmiş xalqın ümumi qələbəsi idi. Artıq bütün dünya, nəhayət, nankor ermənilər də dərk etdilər ki, Qarabağ Azərbaycandır!

Qalib ordunun qalib əsgəri kimi geri dönəndə Kamal Süleymanovun vətənpərvərliyinə, müharibədə göstərdiyi şücaətə görə doğmaları, onu yaxından tanıyanlar qürur hissi ilə deyirdilər: "Oğul belə olar! Allah saxlasın!"

Müzəffər Ali Baş Komandan İlham Əliyevin tapşırıq və tövsiyələrinə görə, digər Vətən müharibəsi iştirakçıları ilə yanaşı, Kamal Süleymanova da Şəmkir Rayon İcra Hakimiyyəti, habelə rayon hərbi komissarlığı tərəfindən lazımi diqqət və qayğı göstərilir. Müharibədən qələbə ilə qayıdan Kamal üç il bundan öncə həmkəndlisi Mirvari xanımla ailə qurub, Ağa adlı oğul atasıdır.

*Rəhman SALMANLI,*
*"Azərbaycan"*

# "YAŞAT" Fondu şəhid Zərbəli Qafarovun ailəsinə dəstək göstərib

**"YAŞAT" Fondu fəaliyyət istiqamətləri çərçivəsində şəhid Zərbəli Vidadi oğlu Qafarovun ailə üzvləri üçün dəstək tədbirləri reallaşdırıb.**



Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin İctimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, onun övladları Xalidə və Həsən fond tərəfindən gerçəkləşdirilən müxtəlif tədbir və layihələrin iştirakçısı olub, eləcə də məktəbli ləvazimatları ilə təmin ediliblər.

Həmçinin Xalidə fondun vəsaiti hesabına Gəncə şəhərində, Xəzər Universitetinin "Dünya" məktəbində təhsil alır.

Qeyd edək ki, şəhid Zərbəli Qafarov barədə daha ətraflı link vasitəsilə məlumat ala bilərsiniz.

Onu da bildirək ki, "YAŞAT" Fondunun hesabatları və xərclənən vəsaitlərlə bağlı ətraflı məlumatı yashat.gov.az rəsmi internet saytının "Hesabatlar" bölməsindən əldə etmək mümkündür.

# Şəhidlər xiyabanında 20 Yanvar faciəsinin ildönümünə hazırlıq işləri aparılır





**20 Yanvar faciəsinin baş verdiyi vaxtdan 36 il keçir. 36 il əvvəl 1990-cı il yanvar ayının 20-də keçmiş sovet ordusunun xüsusi təyinatlı dəstələri heç bir xəbərdarlıq etmədən Bakı şəhərinə hücum edərək dinc əhaliyə qarşı böyük amansızlıq göstərmişdilər. Faktlardan da göründüyü kimi, faciə xüsusi qəddarlıqla törədilmişdir. Məlum olduğu kimi, çoxumuz bu dəhşətli hadisənin, haqsızlığın canlı şahidi olmuş, o gecənin ağrı-acılarını yaşamışıq.**











Ürəkləri ağrıdan, qəlbləri göynədən 20 Yanvar faciəsi xalqımızın yaddaşına qanla yazılmış tarixdir. Baş verdiyi günün üstündən illər keçsə də, xalqımız müstəqilliyimiz və ərazi bütövlüyümüz uğrunda şəhid olan övladlarını heç vaxt yaddan çıxarmır. Yaddaşlara qanla yazılmış bu tarix həm də xalqımızın qəlbində milli azadlıq uğrunda mübarizənin rəmzi kimi yaşayır. Azadlıq və istiqlal yolunda canlarını qurban vermiş şəhidlərin xatirəsi həmişə əziz tutulur, hörmətlə anılır.

Azərbaycan xalqı hər il 20 Yanvar şəhidlərini dərin ehtiramla yad edir. Faciənin ildönümü ilə əlaqədar həm Azərbaycanda, həm də dünyanın müxtəlif ölkələrində anım mərasimləri, sərgilər təşkil olunur. 20 Yanvar faciəsinə həsr olunmuş konfranslar keçirilir. Bütün bunların təşkilində və keçirilməsində bir məqsəd də 36 il əvvəl xalqımızın başına gətirilmiş bu qanlı faciə barədə beynəlxalq ictimaiyyəti ətraflı məlumatlandırmaqdır. Azərbaycan xalqının müstəqillik əzmini, dönməz qətiyyətini, sarsılmaz iradəsini dünyaya göstərməkdir.

20 Yanvar faciəsinin 36-cı ildönümü ilə əlaqədar Şəhidlər xiyabanında hər il olduğu kimi, bu il də Bakı Şəhər İcra Hakimiyyətinin müvafiq qurumları tərəfindən ənənəvi hazırlıq işləri aparılır. Xiyabanın hər tərəfində təmizlik, abadlaşdırma işləri görülür, yeni gül kolları, dekorativ bitkilər əkilir, qazon örtüyü təzələnir. Xiyabanın girişi qan rəngli güllərlə bəzədilir, ziyarətçilərin diqqətini çəkən kompozisiya yaradılır.

Şəhidlər xiyabanında böyük canlanma var. Bakı Şəhər İcra Hakimiyyətinin qurumları iş başındadır. Xüsusi geyimdə olan işçilər ətrafda abadlıq işləri aparırlar. Kimi ağac və dekorativ bitkilər əkir, kimi sanki yerə gül toxuyur, kimi ətrafda səliqə-sahman yaradır. Yalnız xiyabanın girişində deyil, məzarlığa tərəf uzanan yolun hər iki tərəfindəki divarlarda da qərənfillərdən müxtəlif formalar düzəldilir. Yanvar ayının 20-də xiyabana gələcək ziyarətçilər üçün rahat şərait yaradılır.

Bakı Şəhər İcra Hakimiyyətinin Mətbuat xidmətindən verilən məlumata görə, Şəhidlər xiyabanında 20 Yanvar faciəsinin 36-cı ildönümü ilə bağlı hazırlıq işləri davam edir. Ərazi Bakı Şəhər İcra Hakimiyyətinin nəzarətindədir. Xiyaban ərazisində ənənəvi olaraq müxtəlif rəngli qərənfillərdən xüsusi kompozisiyalar hazırlanır. Bu işlərə təcrübəli mütəxəssislər, landşaft-dizaynerləri cəlb olunub.

Bakı Şəhər İcra Hakimiyyətinin qurumları tərəfindən Şəhidlər xiyabanında geniş təmizlik və abadlıq işləri görülür, zədələnmiş plitələr dəyişdirilir, ağacların budaqları, bəzi kollar budanır, qazon örtüyü yenilənir, yeni güllər və kollar əkilir, işıq dirəkləri rənglənir, səkilər və bütün ərazi yuyulur, Xiyabandakı hər iki məşəldə profilaktika işləri aparılır.

Ulu Öndər Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı Prezident İlham Əliyev şəhidlərin xatirəsinin yad edilməsini, adlarının həmişə uca tutulmasını, şəhid ailələrinin sosial problemələrinin həll olunmasını daim diqqət mərkəzində saxlayır. Şəhidlərin xatirəsini həmişə əziz tutan dövlətimizin başçısı hər il yanvarın 20-də Şəhidlər xiyabanını ziyarət edərək "Əbədi məşəl" abidə kompleksinin önünə əklil qoyur, müstəqilliyimiz və azadlığımız uğrunda canlarından keçmiş oğul və qızlarımızı ehtiramla anır.

Hər il olduğu kimi, bu il də Azərbaycan xalqı 20 Yanvar faciəsinin 36-cı ildönümündə şəhidlərin məzarını hörmətlə ziyarət edəcək. Qəbirlərinin üstünə gül, çiçək dəstələri düzəcək, ruhlarına dualar oxuyacaq.

***Vahid MƏHƏRRƏMOV, İlham BABAYEV (foto), "Azərbaycan"***

# Ordubadda Şəhidlər Xiyabanı Abidə Kompleksinin abadlaşdırılması nəzərdə tutulur




Ölkəmizdə həyata keçirilən uğurlu siyasətin tərkib hissəsi olaraq Ordubad rayonunda da son illər, o cümlədən 2025-ci il ərzində sosial-iqtisadi inkişafın təmin edilməsi istiqamətində mühüm işlər görülüb.

Ordubad Rayon İcra Hakimiyyətindən AZƏRTAC-a bildirilib ki, xüsusilə Prezident İlham Əliyevin 21 fevral 2024-cü il tarixli "Ordubad" Dövlət Tarix-Mədəniyyət Qoruğunun yaradılması haqqında sərəncamı da əsas götürülməklə, "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"na uyğun olaraq 2025-ci ildə Ordubad şəhərinin tarixilik və müasirlik prinsiplərini özündə birləşdirən Baş planının hazırlanması istiqamətində mühüm addımlar atılıb. Dövlət proqramına uyğun olaraq rayonun bir sıra avtomobil yollarında əsaslı təmir işləri aparılıb.

2025-ci ildə Ordubad şəhərindəki XVII əsr abidəsi olan Cümə məscidinin təmir və yenidənqurma işləri yekunlaşıb. Həmçinin XVIII əsrə aid olan Sərşəhər məscidinin və Ordubad mədrəsəsinin bərpası ilə əlaqədar layihələndirmə işləri başa çatıb. Ordubad şəhərində Şəhidlər Xiyabanı Abidə Kompleksinin layihə-smeta sənədləri yekunlaşıb və abadlaşdırılması nəzərdə tutulur. Hazırda Ordubad şəhərinin mərkəzindəki Ərbabın iş yeri tarixi binasında əsaslı təmir və bərpa işləri davam etdirilir.

OXUCULARIN VƏ MƏTBUAT YAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

"AZƏRBAYCAN" qəzetinə abunə yazılışı davam edir!

Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:

| | |
|---|---|
| "Azərpoçt" MMC | (012) 598-49-55, (051) 225-02-13 |
| "Azərmətbuatyayımı" ASC | (012) 441-19-91, (050) 322-33-17 |
| "Qaya" firması | (012) 566-77-80, (050) 214-40-53 |
| "Region Press" MMC | (055) 316-79-01, (050) 316-79-01 |
| "Səma-M" MMC | (012) 594-09-59 |
| "Ziya" LTD | (012) 497-76-96, (050) 306-77-22 |
| "Pressinform" MMC | (012) 598-49-52, (070) 340-01-00 |
| "City press" MMC | (055) 819-09-26 |

1 illik -156 (yüz əlli altı) manat
6 aylıq - 78 (yetmiş səkkiz) manat
3 aylıq - 39 (otuz doqquz) manat
1 aylıq - 13 (on üç) manat




Hörmətli oxucular!

Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (Tel.: (012) 539-59-33) zəng vura bilərsiniz.

# Əməkdar hüquqşünas vəfat edib



Konstitusiya Məhkəməsinin sabiq hakimi, Əməkdar hüquqşünas Rafael Sergeyeviç Qvaladze yanvarın 15-də uzun sürən xəstəlikdən sonra vəfat edib.

Konstitusiya Məhkəməsinin Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, o, Azərbaycanın görkəmli hüquqşünası kimi hüquqi dövlət quruculuğu və ədalət mühakiməsinin səmərəliliyinin artırılması istiqamətində uzun illər məsul vəzifələrdə uğurla çalışıb, ömrünün 50 ilindən çoxunu ölkəmizdə məhkəmə hakimiyyətinin həyata keçirilməsinə həsr edib. "Əməkdar hüquqşünas" fəxri adına layiq görülüb, "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" və 1-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif olunub.

Səmimiliyi və təvazökarlığı ilə hörmət qazanmış, yüksək insani keyfiyyətlərə malik ədalətli hakim Rafael Qvaladzenin xatirəsi onu tanıyanların qəlbində daim yaşayacaq.

# Qış depressiyasını necə aradan qaldırmaq olar?



Qış depressiyası tibdə, adətən, payızın sonunda başlayan, qış boyunca davam edən, yaz-yay ayları yaxınlaşdıqca tamamilə yox olan xəstəlikdir. Bu, adi qış kədərindən fərqli olaraq, daha ciddi və funksionallığa təsir edə bilən vəziyyətdir.

AZƏRTAC xarici saytlara istinadla xəbər verir ki, qış depressiyasının əsas əlamətlərinə kədərlənmək, enerji itkisi, davamlı yorğunluq, gündəlik fəaliyyətlərə marağın azalması, çox yatmaq, artan aclıq və karbohidratlara qarşı güclü istək, çəki artımı, sosial əlaqələrdən çəkilmə, konsentrasiya və qərarvermədə çətinlik, ümidsizlik hissi daxildir. Bu simptomlar bir neçə həftə və ya uzun müddət davam edərsə, peşəkar yardım almaq vacibdir. Qış depressiyasına səbəb gün işığının azalması, bioloji saatın pozulması, serotonin səviyyəsinin azalması, D vitamininin çatışmazlığı ola bilər. Bu dəyişikliklər bədənin "bioloji saatı"nı qarışdırır və qaranlıq, soyuq havada daha yuxulu, enerjisiz və məyus hiss etməyə səbəb olur. Qış depressiyasını yüngülləşdirmək və idarə etmək üçün işıq terapiyası və D vitamini əlavəsinin qəbulu kimi müxtəlif üsullar mövcuddur. Həmçinin yaxşı qidalanma, müntəzəm fiziki aktivlik və gündəlik həyat ritmlərini saxlamaq depressiyanın təsirlərini yüngülləşdirə bilər.

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin rəhbərliyi, hakimləri və Aparat əməkdaşları Konstitusiya Məhkəməsinin sabiq hakimi, Azərbaycan Respublikasının Əməkdar hüquqşünası

**RAFAEL QVALADZENİN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədri və kollektivi Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin sabiq hakimi

**RAFAEL QVALADZENİN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin sabiq hakimi, Əməkdar hüquqşünas

**RAFAEL QVALADZENİN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

"AzerGold" QSC-nin rəhbərliyi və kollektivi cəmiyyətin əməkdaşı Şaiq Abdullayevə atası

**QƏHRƏMAN ABDULLAYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Prokurorluğunun rəhbərliyi və kollektivi Bakı Şəhər Prokurorluğunun Daxili işlər orqanlarının istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət idarəsinin rəis müavini Asif Şıxəliyevə atası

**ƏLİABBAS MÜƏLLİMİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Səbinə Əliyeva Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin sabiq hakimi

**RAFAEL QVALADZENİN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Texniki Universitetinin rektorluğu, kollektivi və Həmkarlar İttifaqı Komitəsi universitetin Kommunikasiya şöbəsinin müdiri Səfa Bağırova anası

**XANIM TEYYUB QIZI BAĞIROVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Şəki Apellyasiya Məhkəməsinin kollektivi Konstitusiya Məhkəməsinin sabiq hakimi

**RAFAEL SERGEYEVİÇ QVALADZENİN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Əlaqə telefonları:

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Kompüter mərkəzi | - 538-20-87, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Mühasibatlıq | - 539-59-33 |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | | |

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə

az.reklam@mail.ru




www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 3222
Sifariş 63

Qiyməti 60 qəpik